**İnqilab Nadirli**

# *Ömrün payız akkordları...*

75

Zərdabi LTD MMC

**Bakı - 2015**

**Redaktor:** **Nizami Cəfərov**
*f.e.d., prof. Azərbaycan MEA-nın müxbir üzvü, millət vəkili*

**Korrektor:** **Nazim Tapdıqoğlu**
**Məsləhətçi:** **Gülşən Nadirova**
**Tərtib edən:** **Tohidə İbadova**

İnqilab Nadirli «**Ömrün payız akkordları...**»,
Bakı, "Zərdabi LTD" MMC, 2015, 376 səh.

Tanınmış İctimai-siyasi xadim, şair, dramaturq, publisist, alim, Azərbaycan Yazıçılar Birliyinin üzvü İnqilab Nadirlinin oxuculara təqdim etdiyi "Ömrün payız akkordları..." kitabı doqquz bölmədən ibarətdir. Hər bölmə ədəbiyyatın müxtəlif janrlarında və müxtəlif illərdə qələmə alınmışdır. Müəllifin başqa əsərlərində olduğu kimi, burada da həyatının acılı- şirinli anlarını necə həyəcanla yaşadığını yazılarından da aydın görmək olar. "Elmsiz bir kitab heç kitab deyil" deyimini əsas tutan şairin bu kitabından həm elmi, həm bədii, həm də tarixi mənbə kimi istifadə etmək olar. Zənnimizcə, burada oxucuları maraqlandıran bir çox suallara aydın cavab tapmaq mümkündür.

Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

N $\frac{4705120994-20}{0103-2015}$

© İ. Nadirli, 2015
© "Zərdabi LTD" MMC, 2015

***Bənzərəm zirvədə gur məşələ mən,***
***Cahan nurun alar hikmətlərimdən.***

***Mənim hikmətli dünyam bənzəyir bir dənizə,***
***Onları qətrə-qətrə çatdırıram mən Sizə.***



**REDAKTORDAN**

Ondan çox bədii, elmi-publisistik kitab müəllifi olan tanınmış şair, dramaturq, publisist, alim, ictimai xadim İnqilab Nadirlinin "***Ömrün payız akkordları...***" adlanan bu yeni kitabında onun acılı-şirinli, göynərtili ömrünün çırpıntıları öz əksini tapmışdır. İki yaşı olanda atası Böyük Vətən müharibəsinə getmiş və qayıtmamışdır. Elə buradan da onun atasız keçən çətin uşaqlıq dövrü başlamışdır. Uşaqlıqdan min bir əzab-əziyyətə qatlaşan İnqilab kəşməkəşli həyat yaşamış, uğurlarını da dişi-dırnağı ilə özü qazanmışdır. Həyatın ağır, çətin imtahanlarından üzüağ çıxan İnqilab elə şairliyi də öz istedadı hesabına, özü qazanıb...

Uzun illərin, yuxusuz gecələrin məhsulu olan bu növbəti kitabla İ.Nadirli oxucularının görüşünə gəlib. Geniş oxucu auditoriyası üçün ünvanlanan "*Ömrün payız akkordları...*" kitabı aforizmlər, poemalar, təcnislər, mahnılar, şeirlər, publisistika və s. bölmələrdən ibarətdr.

Kitabın "***Aforizmlər***" bölümündə müəllifin müxtəlif illərdə qələmə aldığı *553* aforizmi işıq üzü görmüşdür. Müəllif əvvəlki kitablarında *777* aforizm çap etdirdiyindən, bu nəşrdə onlar *778*-dən etibarən başlanır. Ümumilikdə İnqilab müəllim *1330*-dan çox hikmət və nəsihətlər yazmışdır. Mənşəcə yunan sözü olan ***aforizm*** termini "*forma və mahiyyətcə dərin mənalı fikir, yığcam məzmunlu kəlam bildirən hikmətli söz, söz birləşməsi və cümlə*" anlamını ifadə edir. Aforizmlərdə əsas şərt fikrin bitkin və səlis olmasıdır. Hər bir adam, hər bir şair aforizm yarada bilməz.

Aforizm yazan adam böyük zəka sahibi, riyazi təfəkkürə malik təcrübəli sənətkar və sözün əsil mənasında şəxsiyyət olmalıdır. İnqilab Nadirli bu mənada məhz böyük şəxsiyyət, sənətkar və zəka sahibidir.

***Zəhmətsiz şan-şöhrət köpük kimidir,-***
***Ən zəif meh belə onu məhv edir.***
* * *
***İmtahan eylə sən özün özünü,-***
***Vicdan tərəzisi desin sözünü.***
* * *
***Ən alçaq adamdır dünyada o kəs, -***
***Bilə-bilə ağa qara deyən kəs.***
* * *
***Vaxtını keçirmə havayı yerə,***
***İnsan bu dünyaya gəlir bir kərə.***

O, aforizmlərində öz ürəyinin səsini eşidir. Hiss olunur ki, bu beytlərin bəziləri günlərlə müəllifi rahat buraxmayıb. Adama elə gəlir ki, bu aforizmlərin əksəriyyəti bir anda yazılmışdır. Beytlərin bir qismində onun təmasda olduğu konkret adamların ümumiləşdirilmiş səciyyəsi öz əksini tapmışdır. Açığını deyim ki, məncə son dövr ədəbiyyatımızda bu sayda aforizm yazan ikinci yazar tanımıram.

Aforizm və nəsihətlərdən yoğrulan ideal bir insan obrazı yaratmağı qarşısına məqsəd qoymuş müəllif demək olar ki, bu amalına nail olmuşdur. Onun aforizmləri insanlıq adına layiq yaxşı işlər görməyə çağırış motivləri üzərində qurulmuşdur. Vətəni, eli, elmi, zəhməti, həyatı sevən və





bu sevgiləri ipli muncuq kimi şeirə düzən şair bu sevgilərdə bir hikmət olduğunu dilə gətirir, cəmi bir beytdən ibarət hər kiçik lövhədə sanki rəssam fırçası ilə böyük şeir naxışı toxuyur:

***Cəhənnəm haqqında düşünsə insan,***
***Cənnətlik iş görər o, hər bir zaman.***
* * *
***Çörək müqəddəsdir, onu bil ki, sən,***
***Çörəksiz qalarsan çörək itirsən.***
* * *
***Gələndə pak gəldin bu dünyaya sən,***
***Çalış ki, həyatdan pak da köçəsən.***

Əgər vaxtilə böyük şairimiz Nizami Gəncəvi:

***Qüvvət elmdədir, başqa cür heç kəs***
***Heç kəsə üstünlük eyləyə bilməz;***

- deyirdisə, İnqilab Nadirli bu fikri müqayisə üçün başqa cür ifadə edir:

***Elmdir dünyada ən qiymətli zər,***
***Onun qüdrətilə ucalır başər.***

Şair SÖZ xəzinəsindən, öz sehrli dünyasının sirli açarlarından istifadə edərək çox yığcam və mənalı deyimlərdən ibarət olan İLAHİ kəlamlarını insanlara çatdırmağı özünün müqəddəs borcu hesab edir. Sözlərimin təsdiqi üçün şairin

bir neçə aforizminə diqqət etmək yerinə düşər:

***Həyatı, dünyanı dərk etməyən kəs***
***Xalqına bir fayda gətirə bilməz.***
* * *
***Ağılsız adamdır dünyada o kəs,-***
***Axmaq vərdişlərə göstərər həvəs.***
* * *
***Nöqsansız bir insan yoxdur həyatda,***
***Çünki nöqsanlıdır özü həyat da.***
* * *
**Atanın mülkünə göz dikən övlad,-**
**Onun yurdunu da edəcək bərbad.**

Kitabın "***Poemalar***" bölümündə müəllifin ayrı-ayrı vaxtlarda yazdığı iki poeması ("*Yaşamaq yaşatmaqdır...*", "*Ömrümün bir günü*") da çap olunmuşdur. "*Yaşamaq yaşatmaqdır...*" adlı poemada dahi klassiklər - Qətran Təbrizi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Vilyam Şekspir, Molla Pənah Vaqif, İvan Krılov, Abbasqulu Ağa Bakıxanov, Aleksandr Sergeyeviç Puşkin, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Əliağa Vahid, Cəfər Cabbarlı, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə haqqında maraqlı fikirlər öz əksini tapmış, onların həyat və yaradıcılığı mənzum şəkildə, sadə və oxunaqlı bir üslubda qələmə alınmışdır.

"*Yaşamaq yaşatmaqdır...*" adlı poemanın "*Ozan dünyasına səyahət*" adlı hissəsində müəllif Aşıq Qurbanİ, Sarı Aşıq, Aşıq Pəri, Aşıq Valeh, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Abbas Tufarqanlı və başqaları haqqında da öz fikirlərini oxucuları ilə bölüşür. Bu yazılarından da görünür ki, İ.Nadirli klassik aşıq yaradıcılığına da dərindən bələddir.





Poemanın "*Dünyaya baxış*" hissəsində şair Azərbaycan klassiklərindən Əbülhəsən Bəhmənyar, Qövsi Təbrizi, Qasım Bəy Zakir, Xurşid Banu Natəvan, Baba Bəy Şakir, Məhəmməd Hüseyn Şəhriyar və digərləri ilə bərabər, həm də dünya ədəbiyyatından R.Taqor, Konfusi, N.Karamzin, A.Çexov, L.Tolstoy, F.Dostayevski, N.Çernışevski, N.Qoqol, T.Drayzer, V.Hüqo, M.Rid, R.N.Güntəkin, N.Hikmət, M.Cəlil, N.Nekrasov, İ.Turgenev, M.Şoloxov, S.Yesenin, V.Mayakovski və başqalarından bəhrələndiyini də oxucularının diqqətinə çatdırır.

"*Ömrümün bir günü*" adlı poema şairə doğma olan və bir zamanlar (*1976–1988-ci illər*) orada rəhbər işdə çalışdığı Kəlbəcər rayonu, onun 1993-cü ilin baharında (*31 mart – 2 aprel*) işğalına həsr olunmuşdur. Şairin həmin ərəfədə - işğal günü keçirdiyi həyəcanlar, rayonun işğaldan qurtulması üçün döydüyü "qapılar" bu poemada lirik və poetik bir üslubda verilmişdir. Poema bütövlükdə Kəlbəcərin işğalçı qüvvələri tərəfindən zəbt olunmasına həsr olunmuşdur.

Kitabın "***Təcnislər***" bölümündə şairin *9* təcnisi - "*Ata*", "*Yarandı*", "*Sarı*", "*Maya*", "*Ağardı*", "*Yaradı*", "*Üzüm*", "*Yeri*", "*Çalaram*" adlı təcnisləri işıq üzü görmüşdür. Məlumdur ki, cinas üzərində qurulan və klassik üslublu şeir forması olan təcnis yazmaq o qədər də asan iş deyildir. Bu mənada İ.Nadirli məhz təcnis yaradıcılığında da öz sözünü

məharətlə demişdir:

***Yaşamışam, eyləmişəm mən üz ağ,***
***Çıxdım neçə döyüşlərdən üzüağ.***
***Düşdü ellər Kəlbəcərdən çox uzaq,-***
***Məni qəlbdən inanmıram xalq ata.***

***Müqəddəsdir ana torpaq, qalandı,***
***Vətən üçün qəlbim oda qalandı.***
***Millət dərdi ürəyimdə qalandı,***
***Qayğı çəkən olar xalqa bir ata.***

(“*Ata*”)

Şairin “*Sarı*” adlı təcnisi də çox oxynaqlıdır. Bu təcnisin bir bəndində müəllif belə deyir:

***Eşqin ilə bu dağları yararam,***
***Gözəl pərim, hər dərdinə yararam.***
***Eşq eylədi mən yazığı yara ram,***
***Nəzmə çəkdi mən aşiqi tel sarı.***

İnqilab Nadirlinin “*Ömrün payız akkordları...*”adlı kitabının sonrakı bölümü “***Mahnılar***” adlanır. Bu bölümdə şairin müxtəlif bəstəkarlar tərəfindən bəstələnmiş və onlarla tanınmış ifaçılar tərəfindən nəğmə və muğam kimi oxunan şeirləri, mahnı mətnləri verilmişdir. Ümumiyyətlə, İ.Nadirli *70*-dən çox muğam və mahnı mətnlərinin müəllifidir. Şairin “*Qəhrəman oğlusan Azərbaycanın*” şeirinə Azərbaycanın xalq artisti, professor Nəriman Məmmədovun bəstələdiyi mahnıya müraciət edək:





***Döyüş meydanında atıldın oda,***
***Qənim kəsilmişdin qaniçən yada.***
***Adın igid kimi qaldı dünyada,***
***Xalqım əhsən dedi cəsarətinə,***
***Sənin qeyrətinə, şücaətinə***

Nəqarət:

***Nakam getdin, izin qaldı,***
***Könüllərdə sözün qaldı.***
***Çalınmamış sazın qaldı,***
***Ağ olubdur eldə üzün,***
***Fəxrimizsən, Çingiz, özün.***

Bəstəkarlar İ.Nadirlinin yaradıcılığına böyük maraq göstərirlər. Onun sözlərinə yazılan mahnılar öz orijinallığı, lirik cizgiləri ilə seçilir. Az müddət içərisində bir çox mahnıları dildən-dilə keçərək populyarlıq qazanmışdır. Bir neçə il öncə yazdığı “*Oxu, bülbül, muğamlardan güc alım*” şeirinə tanınmış musiqiçi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızının bəstələdiyi mahnı artıq dillər əzbərinə çevrilmişdir:

***Muğam adlı möcüzəyə vuruldum,***
***Dərk eylədim hikmətini, duruldum.***
***Bir alınmaz qala kimi quruldum,***
***Oxu, bülbül, muğamlardan güc alım,***
***Şəfa tapsın ürəyimdə məlalım.***

İ.Nadirlinin şeirləri artıq neçə illərdir ki, populyarlığı ilə ölkə sərhədlərindən kənarda da məşhurdur. Şairin “*Mə-*

*nim üçrəngli bayrağım*" şeirinə tanınmış musiqiçi, bəstəkar Mətanət Dadaşovanın bəstələdiyi mahnı artıq Azərbaycan sərhədlərini çoxdan aşmış, şirin bir nəğməyə çevrilərək ürəklərdə yurd salmışdır:

***Vətənimin qürurusan***
***Mənim üçrəngli bayrağım.***
***Xalqım kimi sən ulusan***
***Mənim üçrəngli bayrağım.***

***Bayraqlardan ən ucasan,***
***Tarix qədər sən qocasan.***
***Sən əbədi olacaqsan,***
***Mənim üçrəngli bayrağım!..***

Kitabın " ***Müxtəlif şeirlər***" bölümündə şairin müxtəlif illərdə yazdığı bəzi şeirləri verilmişdir. Bu şeirlərin əksəriyyəti insan mənəviyyatı, ləyaqəti uğrunda gedən mübarizədən yoğrulmuşdur. Ümumiyyətlə, şeirlərində bədii həqiqətə uyğun çalarları ustalıqla seçən şair bu məqamların fərdi poetik düşüncə tərzini canlı və qabarıq vermişdir. Onun şeirlərinin əhatə dairəsi olduqca zəngin və çoxşaxəlidir. İ.Nadirli öz şeirlərini ilhamla yazdığı üçün bəzi müasirlərinə nisbətən ümumi ritorikadan uzaqlaşmış və məhz bu baxımdan çoxlarından fərqlənərək yüksələ bilmişdir. "*Var*" adlı şeirdə oxuyuruq:

***Ömür payın bənzəri var bir ilə,***
***Yazı, yayı, payızı var, qışı var.***





***Uşaq, gənclik, orta, ahıl dəmiylə***
***Dörd fəsli yaşayan olar bəxtiyar,***
***Hər dövrün öz izi, öz naxışı var.***

Şairin Şamaxıya həsr etdiyi "*Şamaxı*" şeiri də çox maraqla oxunan şeirlərdəndir:

***İnqilab adından güc, ilham aldı,***
***Pirlər diyarına yolunu saldı.***
***Pirqulu dağında xəyala daldı,***
***Hüsnünü bəzəyir güllər, Şamaxı,***
***Şənindən söz açır dillər, Şamaxı.***

Anaya məhəbbəti, hesabatı, ondan halallıq istəyini şair özünəməxsus poetik bir obrazlı üslubda ifadə edir. Vicdan tərəzisi üçün hallallıq və əfv istəyi ilə aşılanmış şair ovqatı onun şeirlərində yaşadığı mənəvi iqlimi, nəfəs aldığı ab-havanı tərənnüm edir:

***Gəldim ziyarətə məzarıstana,***
***Məzarın başına dolandım, ana.***
***Qəbrinə baxanda od düşdü cana,***
***Elə bil məzara salındım, ana.***

("*Məzarın başına dolandım, ana!*")

Şairin ana, vətən, yurd, torpaq, Qarabağ, dünya mövzulu şerləri çoxdur. Vaxtilə böyük ərazilərə malik olmuş vətənin, Azərbaycanın ikiyə, üçə, dördə, beşə bölünməsi

vətənpərvər şairi sıxır, bu nisgil şairin kövrək ürəyində inil-tili bir haraya çevrilir. Mənsub olduğu millətin qüruruna güvənən şair qələmini süngüyə çevirərək onu düşmənin məkrli ürəyinə sancmaq istəyir. Yurduna məhəbbət, xalqa yanımlıq İnqilabın canında, qanındadır. Əslində əsil şair belə də olmalıdır. Vətən sərhəd dirəklərindən başlandığı kimi, yazarın da şüurlu həyata başlanğıc nöqtəsi Vətən sevgisindən başlamalıdır.

İ.Nadirli poetik imkanlarını öz şəxsi keyfiyyətləri səviyyəsinə qaldırmağı bacarır və beləcə çox gözəl sənət nümunələri yaradır:

***İnqilab, əbədi heç kəs qalmayır,***
***Dünyada daimi məskən salmayır,***
***Kimsə sona qədər zəfər çalmayır.***
***Comərdlər ömrünü verməyir bada,***
***Onlarla fəxr edir ulu dünya da.***

(“*Dünyada*”)

***Gedişin qəlbimi eylədi yara,***
***Ürəyim ağrıdı, çəkildim dara.***
***Neyləsin binəva, yazıq biçara,***
***Gəl qoyma aşiqin sənsiz qəm yeyə,***
***Dönmədin geriyə, dönmədin, niyə?..***

(“*Dönmədin niyə?*”)

Şair İnqilab Nadirli “*Qan yaddaşı*” şeirini tanınmış tədqiqatçı, əslən Qarabağdan olan tarixçı Nazim Tapdıqoğ-





lunun (Vəlişovun) “*Facıələrimizin təqvim işləri*” kitabına həsr etmişdir. Şeirdə aşağıdakı misraları oxuduqca adam riqqətə gəlir:

***Bu, adi kitab yox, bir salnamədir,***
***Yanında onlarla kitab de, nədir?..***
***Hər cümlə altında qanlı tarix var,***
***Hər oxuyan ondan bir ibrət alar.***
***Kitab müəllifi qarabağlıdır,***
***Ünvanı Xocalı, Qaradağlıdır...***
***Bizə “Qan yaddaşı” olsun bu kitab!***
***Şəhid olanlara edilmiş xitab!***
***Stolüstü kitab olsun hər kəsə!***
***Monolit birləşib verək səs-səsə!***
***Uğurlar dilərəm bu kitaba mən,***
***Sədası gələcək qərinələrdən!..***

İnqilab poeziyasının idrak siqləti müasir şeir sənətinin qabaqcıl təcrübəsini ümumiləşdirmək üçün çox zəngin material verir. Şairin yurdsevərlik, ləyaqət, nəciblik, gözəllik, sevgi duyğuları ilə aşılanmış şeirləri çoxdur. Belə şeirlərdə kövrək və müqəddəs misralar istənilən qədərdir. Bu cəhətdən şairin “*Puldan qorxuram*” şeiri də maraqlıdır:

***Təxti-Süleymana qalmayan dünya,***
***Kasıbı yadına salmayan dünya,***
***Varlını vecinə almayan dünya***
***Dedi: “Bu dünyada puldan qorxuram”.***

***Varlını yoxsula endirən də pul,***
***Nökəri ağaya döndərən də pul.***
***İnsanı kosmosa göndərən də pul,***
***Dedi: "Bu dünyada puldan qorxuram".***

Kitabın sonuncu - "***Publisistika***" adlanan bölümü İnqilab Nadirlinin publisistikası ilə bağlıdır. Burada "*Böyükşor gölü: yeni həyatın astanasında*", "*Kəlbəcər mənim üçün nədir?*", adlı oxunaqlı yazılar öz əksini tapmışdır.

Zahirən ağır təbiətə malik bir şəxsiyyət olan İnqilab Nadirli həm də daxilən güclü, eyni zamanda da kövrək bir şairdir. Onun şəxsi həyatı, fəaliyyəti ilə yaxından tanış olduqda əzminə, iradəsinə, vətənsevərliyinə heyrət etməyə bilmirsən. Ulu Yaradan bu xoşbəxt insana fiziki kamillik ilə bərabər, sağlam ruh, coşqun ilham, tükənməz həyat eşqi də bəxş etmişdir. O, artıq 75 yaşın kürəyini yerə vurur. Hələ də bitib-tükənməyən mövzular onu gözləyir. Təcrübəli qələm adamı olan bu insan, eyni zamanda qaynar və enerjili olduğundan sonu görünməyən yaradıcılığının yüksəlişinə doğru yol, özü də nümunəvi bir yol getməkdədir. Bu isə, oxucular üçündür, onlara lazımdır. Yaradıcılığının yüksəlişə doğru irəliləyən mərhələsində mən İnqilab müəllimə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Nizami Cəfərov**
*f.e.d., prof. Azərbaycan MEA-nın*
*müxbir üzvü, millət vəkili*



***İlhamı O, Ulu Tanrıdan aldım,***
***Sənət dünyasında söz bağı saldım.***

## Yeni hikmətlər və nəsihətlər

*("Hikmətli dünyam" kitabına düşməyən hikmətlər və nəsihətlər)*

# Birinci hissə

## *(İnsanı cəmiyyət tərbiyə edir)*

778

Elmdir dünyada ən qiymətli zər,
Onun qüdrətilə ucalır bəşər.

779

"Quran"a ehtiram bəsləyən insan,
Həyatda o, zalım olmaz heç zaman.

780

Sınaq meydanıdır həyat insana,
Onu yetişdirir, şans verir ona.

781

İnsan ilk baxışda huri - mələkdir,
Sonra bəlli olur saf, ya kələkdir.

782

Sanma ki, həyatın mənası puldur,
Pulun qulu olan həyata çuldur.





783

Zəhməti sevməyən çörəksiz olar,
Gözü onun- bunun əlində qalar.

784

Ən ecazkar sənət bil, musiqidir,-
Çünki kainata o, xidmət edir.

785

Aqilin sərvəti - düşüncəsidir,
Onu əməlləri bəxtiyar edir.

786

Saxta tərif altda məkrlər yatır,
Xəbislər məqsədə bu yolla çatır.

787

Tərifdən hələ ki, ölən olmayıb,
Aqillər təhqiri bir ölüm sayıb.

788

Zəhmətsiz şan-şöhrət köpük kimidir,
Ən zəif meh belə onu məhv edir.

789

Yaşamaq eşqilə çalışan hər kəs,
Vaxtında əkməsə, o, biçə bilməz.

790

Kinli nifrət ilə baxar həyata,
İstər ki, məkrli məqsədə çata.

791

İstedadlı adam xalqın fəxridir,
Müşkül sayılanı o, mümkün edir.

792

Hər gülüş altında bir məna yatır,
Yerində gülənlər məqsədə çatır.

ü





793

Tamahkar xislətli olsa bir insan,
Onu bu xisləti xar edər asan.

794

Bugünkü körpələr sabahkı nərdir,
Onu nər eyləyən əsas hünərdir.

795

Nifrət olan kəsdə, sevgi də vardır,
Sevgisi çox olan nə bəxtiyardır.

796

Nöqsanlar  içində boğulan bir kəs,
Özgədə bir nöqsan axtara bilməz.

797

Xalqın sərvətidir hər gözəl əsər,
Naqis vərdişlərin yolunu kəsər.

798

Araya soxulan iylənib çıxar,
Sonda o, özünün evini yıxar.

799

Yerini bilməzsə əgər bir insan,
Ona öz yerini göstərər zaman.

800

Hər müti olanı sanma qoyundur,
Onu qoyun edən bəlkə oyundur?..

801

Vətəndən, yurdundan güc almayan quş,
Edə bilməz göydə pərvazlı uçuş.

802

Alınıb - satılmır həyatda zaman,
Çünki geri dönmür ötən heç bir an.





803

Təmiz natəmizlə dost ola bilməz,-
Çünki dostu ilə tanınır hər kəs.

804

Şahlar qanun deyil, qanunlar şahdır,
Onların fövqündə duran Allahdır.

805

Hər xeyirxah adam arxadır elə,
Onun da qədrini gərək el bilə.

806

Xəmiri paklıqdan yoğrulan bir kəs,
Həyatda  heç kimə xəyanət etməz.

807

Şərəfsiz bir ömür ölümdən betər,
Şərəfli ölümdən pöhrələr bitər.

808

Ağılsız adamdır dünyada o kəs,-
Axmaq vərdişlərə göstərər həvəs.

809

Bahar müjdəçisi danaqırandır,
Aqillər bilir o, dana qırandır.

810

Yaratmaq eşqilə döyünsə ürək,
Müqəddəs amala köklənə gərək.

811

Sahibsiz dərədə çaqqal bəy olar,
Əlinə düşəni didər, parçalar,

812

Nifrət öz həddini aşdığı andan,-
Yenilik başlayır həmin zamandan.





813

«İnsan çiy süd əmib» - deyib atalar,
Bəlkə ona görə edir xətalar.

814

Şəkərli diabet həyat tərzidir,
Saf tərzi qoru ki, ömrə fərzidir.

815

İki əl bir başı dolandırmasa,
O baş qəm- qüssədən batacaq yasa.

816

İstedad insanla birgə qonaqdır,
Qədri bilinməsə, böyük qınaqdır.

817

Bala ölümünə matəm tutur fil,
Övlada xor baxan heç insan deyil.

818

Həyat amansıza verərsə aman,
Ona aman verməz hakimi- zaman.

819

Müqəddəs ocaqlar iman yeridir,
Tanrıdan umulan aman yeridir.

820

Dəlidir dünyanın bədbəxt insanı,-
Çün ki, o, dərd çəkmir, qaralmır qanı.

821

Hər şeyin zamana var ehtiyacı,
Şahın da başına o qoyur tacı.

822

Haqqı, ədaləti qoruyarsa şah,
Tarixdə şərəflə qalar o padşah.





823

Sadiq köpək hər vaxt keşikdə durur,
Sərsəmdən kənar dur, havayı hürür.

824

Meşənin ağası olarsa bağa,
İlanı carmıxa çəkər qurbağa.

825

Tanrıdan verilsə kimə iqtidar,
Yüksək kürsülərdə onun yeri var.

826

Çörəksiz yaşaya bilsə də insan,
Ümidsiz yaşaya bilməz heç zaman

827

Yaramaz adamdır həyatda o kəs,-
İnsanlıq hissini itirən nakəs.

828

Musiqi instinkti var hər canlıda,
Bundan qidalanır hər bir canlı da.

829

Ən asan, ən çətin varlıqdır insan,
Şüur belə edir, onu hər bir an.

830

Mənliyi olmayan həddini bilməz,
Aqillər yanında hesaba gəlməz.

831

Canlı təbiətin qanunları var,
Onları bilənlər fayda taparlar.

832

Hava, od, su, torpaq- Tanrı payıdır,
Qədrini bilmirik, çün havayıdır.





833

Azadlıq eşqinə köklənsə millət,
Ona yaxın düşməz heç zaman zillət.

834

Qonaq hər bir evin ən əzizidir,
Dəyərlisi evi şərəfli edir.

835

İldırım çaxır ki, bulud ağlasın,
Torpaq sevncindən çələng bağlasın.

836

İlan ulduzlardan qorxursa necə,
Caqqal da pələngdən qorxur eləcə.

837

Dənizin sahili füsunkar meşə,
Nadan sahib çıxsa, olar əndişə.

838

Təmsil* aforizm**in qan qardaşıdır,
Burda da hikmətlər təməl daşıdır.

839

Haqq, ədalət olsa şahın amalı,
Xalqa xidmət edər nurlu kamalı.

840

Elə əzab versə əzazil bir kəs,
Gec- tez cavabını alar o nakəs.

841

Qərəzli olarsa elin başçısı,
Özü də dadacaq qisas acısı.

842

Ölkəni haqsızlıq bürüsə əgər,
Haqsızlar haqlının qəddini əyər.





843

Məddah tərifini eşidər nadan,
Başı gicəllənər, çıxar sıradan.

844

Pis geni düzəltmək çox çətin işdir,-
Qozbeli qəbir də düzəltməmişdir.

845

Evinin sahibi olmasa kişi,
Elində tanınar o bir nakişi.

846

Ən alçaq adamdır dünyada o kəs,
Bilə- bilə ağa qara deyən kəs.

847

Sadəlövh adamlar boş vədə uyar,
Sonra peşman olub qəlbini oyar.

848

Layiqli almasa öz qiymətini,-
Zaman ona verər düz qiymətini.

849

Doğma övladını atan bir ata,
Layiqdir xoş günü zindanda yata.

850

Öz ana südüylə böyüyən övlad,
Çətin ki, həyatda  ola ona yad.

851

Öz zəhmət barını dərmirsə insan,
Xalqa xidmət etmir demək, bu dövran.

852

Nöqsansız bir insan yoxdur həyatda,
Çünki, nöqsanlıdır özü həyat da.





853

İnsanlıq həddini aşarsa kişi,
Zillətdə keçəcək həyat gərdişi.

854

Tanrı öz dağına baxıb qar verir,
Yaxşıya, yamana layiq var verir.

855

İnsan gəncliyində olarsa hatəm,
Qocaldıqca ona saxlayar matəm.

856

Borcunu  hörmətlə qaytarar kişi,
Əgər qaytarmasa olar nakişi.

857

Faşizmin vəhşəti qəlbləri didir,
Qəddarlıq onların xislətindədir.

858

Əsil istedadı Tanrı bəxş edir,
Onlar öz dövrünün fövqündə gedir.

859

Düşməndən mərhəmət gözləsə millət,
Çəkəcək o zaman dözülməz zillət.

860

Öz ağlı mükəmməl olmayan bəndə,
Həyat sınağında düşər kəməndə.

861

Tanrı sevimlisi qələbə çalır,
Çünki, o, gücünü Tanrıdan alır.

862

Zəlzələni öncə duyur pişiklər,-
İnsan aciz baxıb, qulağın şəklər.





863

Ağıllı qocalar şöhrətdir elə,
Qədri bilinmirsə, töhmətdir elə.

864

Qaliblər həmişə deyir sözünü,
Ağıllı qaliblər tapır özünü.

865

Ata yetirir ki, öz övladını,
Övlad da yaşatsın onun adını.

866

Rəhbər xəbisləri yığsa başına,
Bais olar elin kədər yaşına.

867

Hər kimin olmasa düşünən ağlı,
Həyatda olacaq sinəsi dağlı.

868

Yaxşının həyatı keçərsə rəvan,
Nanəciblər ona pəl vurar hər an.

869

Həqiqi insandır dünyada o kəs,
Şərəfli ölümə göstərər həvəs.

870

Həyat sınağında bişməyən insan,
Naqis təsirlərə tez düşər asan.

871

Adətən gödəklər daha çox bilir,
Bəzən uzunlara kələk də gəlir.

872

Xalqını sevənə xalqı olar yar,
Ona dönük çıxan olmaz bəxtiyar.





873

Oxumaq, öyrənmək heç vaxt gec deyil,
O, beynə, ürəyə qida verir, bil.

874

Ağıldır insanda ən qiymətli var,
Onunla  verilir ən düzgün qərar.

875

Çörəyə xəyanət eyləyən nakəs,
Çörək tapa bilməz, həyatda o kəs.

876

Peşəsi insanı formalaşdırır,
Sənət zirvəsinin dağın aşdırır.

877

Müqəddəs amallı olsa bir insan,
Xoş məramla ona qovuşar asan.

878

Dünyanı kor qoyar xəbis adamlar,
İmkanları olsa, hamını damlar.

879

Körpələrə qayğı müqəddəs işdir,
Sabahı onlara Tanrı vermişdir.

880

Dövran qəddarına verərsə aman,
O qansız nadanı susdurar zaman.

881

Axmaq sahib çıxsa zəhmətsiz vara,
Daha da pozular, olar avara.

882

Hikmətlər öyrənmək olsa amalın,
Həm də tətbiq etsən, gülər camalın.





883

Hamıya xoşbəxtlik istəməyən kəs,
Heç zaman o, xoşbəxt yaşaya bilməz.

884

Bilik mənbəidir kitab bunu bil,
Elmisiz bir kitab heç kitab deyil.

885

Hər saçı ağaran ağsaqqal deyil,-
O, ağlı, işiylə dəyərlənir, bil.

886

Canini himayə eyləyən nakəs,-
Ondan daha pisdir əməldə o, kəs.

887

Pisi yaxşı etmək bir savab işdir,
Aqillər bu yolda qəhər yemişdir.

888

Təbiət yaradır güldə tikanı,-
Bülbül fəda etsin eşqinə canı.

889

Həyatı, dünyanı dərk etməyən kəs.
Xalqına bir fayda o verə bilməz.

890

Harda məhkum varsa, orda hakim var,
Ədalətli hakim olar xalqa yar.

891

Ustad sənətkara qoyulur heykəl,
Bu pir abidəyə toxunmaz bir əl.

892

Başlar ayaq olsa, ayaqlar da baş,
Həyatda insanlar olarlar çaşbaş.





893

Sənət- sənətkarın dövləti, varı.
Sənəti yaşadır hər sənətkarı.

894

Başçı başlayarsa qərəzli hərbə,
Xalqı alacaqır dözülməz zərbə.

895

İblis yaxşılara qənim kəsilir,
O, evlər yıxmağı bir şərəf bilir.

896

Dahilər – şöhrətdir bütün cahana,
Bəşər fayda görür, borcludur ona.

897

Nöqsansız bir varlıq yalnız Allahdır,
Ona şəkk eləmək böyük günahdır.

898

Başçısı olmasa xalqın öz oğlu,
Səadət qapısı qalacaq bağlı.

899

Nadan aqilləri sevməz heç zaman,
İstər ki, onlara verməsin aman.

900

Günahsız qan tökən çalsa qələbə ,
Tab gətirə bilməz haqlı tələbə.

901

Yaxşı müdafiə həm də hücumdur,
Ömrü yaşamağın mənası budur.

902

Bülbültək avazla oxuyan bir kəs,-
Tanrı əzizidir, verib ona səs.





903

Nadan aqilləri sanarsa axmaq,
Onun öz başında sınacaq toxmaq.

904

Zalım məzlumları əzaba salır,
Amma cəzasını gec- tezi alır.

905

Ailə başçısı olarsa oğru,
Çətin ki, o evdə yetişə doğru.

906

Cəhənnəm haqqında düşünsə insan,
Cənnətlik iş görər həyatda hər an.

907

Mübarizə ilə yaşayır həyat,
Dartışır, bərkişir daim kainat.

908

Yaradan yaşayar tarixdə ancaq,
Onun yaratdığı sayılsa ocaq.

909

Eşq ilə yaranıb sonsuz kainat,
Yoxsa ki, olmazdı bu gözəl həyat.

910

İnsan çox sevinir bar dərən anda,-
Ağac da barını verən zamanda.

911

Allahsız adamın olmaz imanı,
Haqqa, ədalətə verməz amanı.

912

Kişi yalvarışla danışsa əgər,
Məkrli məqsədi qəlbləri sökər.





913

Xəstə dəfni görsə düşünər dərin,
İçində qərq olar düşüncələrin.

914

Tanrı yaratdı ki, bu cəmiyyəti,-
O da qoy yaşatsın bu təbiəti.

915

Əlində od-suyu olan padşahın,
Tanrı da bağışlar onun günahın.

916

Çörək, dil dostluğu müvəqqətidir,
Şəxsi məqsəd onu mənasız edir.

917

Yuxuya gedir ki, qışda ağaclar,-
Baharda oyanıb onlar versin bar.

918

Bütün xəzinələr tükənər son an,
Sözünki, çoxalır ötdükcə zaman.

919

Canlı düşmənini gördüyü zaman,
Bəşər övladından diləyir aman.

920

Canlı yer altından qaçır bayıra,-
Zəlzələ onları çəkməsin dara.

921

Namərd körpüsündən keçsə əgər mərd,
Bütün ömrü boyu çəkəcəkdir dərd.

922

Ümumi düşmənlə vuruşan zaman,
Xüsusi düşmənlər birləşir haman.





923

Yadları evinə buraxan insan,
Onlardan xəyanət gözlə çox zaman!..

924

Savaş beyinlərdə yaranır əzəl,
Başlanır tərəqqi, sonra tənəzzül.

925

Gün səhər doğur ki, yaransın gündüz,
Yağışı yağdırır gülsün çəmən, düz.

926

İnsan doğulanda o, famillәşir,
O, yaşa dolduqca bil kamilləşir.

927

Tufanlı dağların başı olsa qar,
Tufansız təpənin üstü olar bar.

928

Elmsiz bir ölkə zülmətdə qalar,
Qəflət yuxusunda o məskən salar.

929

Hər kəs öz qəlbinin payını yeyir,
Narazı qalanlar ona pis deyir.

930

Halalı haramlıq eyləyən bəndə,
Haram yol ilə də düşər kəməndə.

931

Çox yeyən həmişə tamarzı olar,
Gözü başqasının əlində  qalar.

932

Dahilər ölməyir, yaşayır hər an,
Sən bunu unutma,çalış heç zaman.





933

Nadanı yalandan tərif edirlər,
Başını gic edib məhvə gedirlər.

934

Bədzat adamlardan həzər dad- aman,
Çalış ki, uzaq ol, onlardan hər an.

935

Tamahkar xislətli bir divanədir,-
Tamahı ömrünü mənasız edir.

936

Qəlbə od salarsa, nə vaxt ki, gözlər,
Nəğməyə çevrilər dodaqda sözlər.

937

Gülüşdür çox dərdin dərmanı ancaq,
Dünya onsuz olar sönmüş bir ocaq.

938

Müqəddəs, bənzərsiz varlıqdır ana,
Çünki bu dünyada yoxdur tay ona.

939

Comərdlik kişilik nişanəsidir,
Onu əməlləri müəyyən edir.

940

Xoşbəxt o kəsdir ki, var ailəsi,
Bədbəxtin olmayır bir doğma kəsi.

941

Ailəsiz adam biyabangərddir,-
Sərgərdan olanı millətə dərddir.

942

Gücünü evindən almasa kişi,
Mənasız görünər həyat gərdişi.





943

Atadan tərbiyə götürər övlad,
İbrətli olarsa, çıxaracaq ad.

944

İlk tərbiyə verir uşağa ana,-
Bəxş edir, öyrədir onu cahana.

945

Anasız böyüsə əgər bir insan,
Bu, biruzə verər onda çox zaman.

946

Evindən, elindən güc alsa insan,
Yüksək zirvələrdə olar hər zaman.

947

Elmə əsaslanan hər din elmidir,
Onu humanizmi bəşəri edir.

948

İradə insanı dağa qaldırar,
Onsuz yaşayanı dağdan saldırar.

949

Dünyanı aqillər etsə idarə,
Bilər öz yerini dünyada hərə.

950

Zəhmətlə yeyilir həyatda çörək,
Onun cəfasını çəkəsən gərək.

951

Atanın mülkünə göz dikən övlad,-
Onun yurdunu da edəcək bərbad.

952

Arvad öz hökmünü eyləsə diqtə,
KİŞİ bu ərliyə qoymalı nöqtə.





953

Xalqının dərdinə yaramayan kəs,
Artıq bir vücuddur, yaramaz, nakəs.

954

Daş-qaşlı bir evin çoxsa zinəti,
Əgər kitabsızsa, heçdir qiyməti.

955

Nadanla dost olmaq, özünə qəsddir,
Yaxşı olmaq cəhdin daha əbəsdir.

956

Vəhşi balasını atmır heç bir an,
Əgər qadın atsa, pisdir heyvandan.

957

Həqiqi dostluğun çoxdur cəfası,
Cəfasız dostluğun olmaz səfası.

958

Məqsədə çatarsan nəfsə yox desən,-
Xırda hisslərinə hər an yox de, sən.

959

Dövran üz döndərib çıxarsa namərd,
Mərdlərin qəlbini çulğalayar dərd.

960

Vəzifə sahibi çıxsa yalançı,
İşi saxta olar, özü talançı.

961

Canlı son nəfəsdə yığır gücünü,
Ömrü təslim edir, çıxır son ünü.

962

Necə gün üfüqdə şəfəqlər saşır,
Eləcə elm də qapılar açır.





963

İstedadlı adam qanadlı quşdur,
Əsası odur ki, hara qonmuşdur.

964

Axmaqlar aqilə axmaqtək baxar,
Ağıllı kəslərə min ləkə yaxar.

965

Kələkbaz kələkdən çətin ki, doyar,
Yaxşını kələklə pis günə qoyar.

966

Vəzifə insanın tamah gözüdür,
Pul da vəzifənin astar üzüdür.

967

Həyatın öz qayda- qanunları var,
Qaydasız döyüşdür qanunsuz diyar.

968

Gündüzlər gecənin sirrini açır,
Odur ki, gecələr gündüzdən qaçır.

969

Deyingən arvadlı olarsa kişi,
Fikir girdabında keçər gərdişi.

970

Aqillər yamanı tez ayırd edir,
Həyat yaxşıların çiynində gedir.

971

Hər rəngin özünün öz mənası var,
Tünd rənglər həmişə göz qamaşdırar.

972

İnsan üzü ayna, qəlbi göstərir,
Ürəkdən keçəni biruzə verir.





973

Əbədi bir dostluq olmur həyatda,-
Daimi deyildir çünki, həyat da.

974

Həyatın min cürə naxışları var,
Onları dərk edən olar bəxtiyar.

975

İNSAN yarananda bayram etdi Yer,
Bildi o, edəcək Yeri yerbəyer.

976

Tələfxərc xanımlar ev qura bilməz,
Ərinin qazancı üzünə gülməz.

977

Bir dəfə xəyanət edən insana,-
Bir daha etibar eyləmə ona.

978

Seçki keçirilsə həqiqi, rəvan,
Orda üzə gülər həmişə dövran.

979

İnsanlar gəzməkçün düşüb sevdaya,
Qonaq gedəcəklər bir gün də Aya.

980

Zülmün nəşəsindən xumarlanma çox,
Dəyər ürəyinə düşmənindən ox.

981

Xoşbəxt o adamdır yardan zövq alır,
Həyatda onunla birgə qocalır.

982

İnsandır ən qadir varlıq həyatda,
Ona səcdə edir bu kainat da.





983

Arvad öz ərinin olarsa yarı,
Yüz yaşda da olar ərinə qarı.

984

Torpaqdan yaranır hər şey həyatda,
Onları yaşadır özü həyat da.

985

Yaltaqlıq sayılır yaltağa "peşə"-
Hər əmrə müntəzir, qulaqlar şeşə.

986

Təbiət özünün yoluyla gedir, -
Həyatda hər şeyi saf - çürük edir.

987

Kainat olsa da, sonsuz bir varlıq,
O, acgözlər üçün eyləyir darlıq.

988

Nadandır kitabı sevməyən insan,
Ondan faydalanır aqillər hər an.

989

Əgər uçmasaydı səmada quşlar,
Bəlkə də olmazdı göyə uçuşlar.

990

Təriflər altında əməl yatmalı,-
Dostlar məqsədinə belə çatmalı.

991

Qiymətli hədiyyə kitabdır ancaq,
Dəyərlisi edər yurdunu ocaq.

992

Sükansız qayıqdır məqsədsiz insan,
Burulğan məhv edər onu hər bir an.





993

Oğrudan oğruya halal deyirlər,
Oğrular o malı halal yeyirlər.

994

Haqsızlıq, heç zaman çox uzun getməz,
Haqsızlar ömrünü bəxtəvər etməz.

995

Başçı olmalıdır yaxşı nümunə,
Yoxsa verə bilməz xalqına heç nə.

996

Kişi qisasını kişidən alar,
Onun yaxınının nə günahı var.

997

Əqidə sarvandır, ömür bir karvan,
Karvanı mənzilə çatdırar sarvan.

998

Sağlam əqidəli olan insana,-
Ülvi varlıq kimi baxarlar ona.

999

Yaşamaq eşqi var hər bir quşun da,-
Dənizdə suyun da, dağda daşın da.

1000

Laqeydlik insanı baxar kor edər,
Özü də fərsiztək arxada gedər.

1001

Vəzifə– iş görmək vasitəsidir,
Aqillər xalqına onu sərf edir.

1002

Evə bərəkəti kişi gətirir,
Ağıllı qadınsa daimi edir.





1003

Musiqi dünyası sehirli aləm,
Onda gizlənibdir sevinc, sirr, ələm.

1004

Gendə nələr varsa, çıxacaq üzə:-
Namərd naqis kimi, mərdlər təmizə.

1005

Tufanı öncədən quşlar tez bilir,
İnsanın yanına imdada gəlir.

1006

Bəzən dul qadına deyirlər bədbəxt,
Elə dul kişi də deyildlr xoşbəxt.

1007

Pulun əyarıdır qızıl həyatda,
Çox məqsəd gizlənir hər qızıl altda.

1008

Hikmətli söz demək çətindən, çətin,
Gərək buna çata elmi  cürətin

1009

Sonda düşmən olar yemək dostları,
Burdan qalib çıxır çox olan varı.

1010

Başçı tez itirər etibarını,
Xalqdan üstün tutsa yaxınlarını.

1011

Hər bir yaranmışın öz qisməti var,
Alın yazısında təcəlla tapar.

1012

Əqidəsiz insan qayığa bənzər,
Həyat ümmanında avarla üzər





1013

Məddah tərifindən ölənlər olmur,
Tarixdə şərəfli ad ilə qalmır.

1014

Ağılla yeyilir çörək hər zaman,
Ağılsız möhtacdır ona hər bir an.

1015

Dağsız örən olmur, örənsiz də dağ,
Dağın qüdrətilə örən olur bağ.

1016

Rəhbər vəzifəli seçilməlidir,
And içib sınaqdan keçilməlidir.

1017

Bir milçək öldürdüm, yaratmadan mən,
Canlıya qəsd etdim, öldüm qəhərdən.

1018

Gün qürub edəndə, sevinir zülmət,
Yarasa şadlanır, ei çəkər zillət.

1019

Sənətdir insanın həyat açarı,
Sənətsiz insanın olmaz bir karı.

1020

Çox yeyən, çox yatan, nəfsli insandan,
Yaxşı işçi çıxmaz heç zaman ondan.

1021

Tənhalıq həb olar o, yazar üçün,
Əgər yaratdığı ərşə salsa ün.

1022

Deyilən sözləri eşitsə ölü,
Qalxardı qəbirdən kəfən bükülü.





1023

Ömür sarayımı hər gün sökürəm,
Yerində hikmətdən saray tikirəm.

1024

Maddi marağı var hər bir quşun da,
Bir sərçə payı var hər bayquşun da.

1025

Çalış öyrənəsən elmləri sən,
Bəşər fayda görsün əməllərindən.

1026

Soykökünü danan - haramzadədir,-
O, soykökünə də haramlıq edir.

1027

Dahilər yetirsə əgər bir millət,
Dahiləri qoymaz o çəksin zillət.

1028

Mənalı hər ömür - bir gözəl əsər,
Mənasız ömürdən qalmaz bir əsər.

1029

Özünə vurğunluq - sağalmaz bəla,
Bədbəxtdir kim buna olsa mübtəla.

1030

Aqilin əlinə keçsə iqtiyar.
Xalqını eyləyər daim bəxtiyar.

1031

Dünyanı dolaşsa nəfis bir kitab,
Deməli, bəşərə edilib xitab.

1032

Xalqın fədaisi olsa rəhbəri,
Xalqı fəth eləyər ənginlikləri.





1033

Ömrünü xalqına fəda etsən sən,
Sorağın gələcək qərinələrdən.

1034

Doğulub - gəzdiyin torpaq Vətəndir,
Onu qoru, çünki,  anaya təndir.

1035

Evini idarə etməyən bir kəs,
Bölgəni idarə eyləyə bilməz.

1036

Yararlı məhsulu məhv edən bir kəs,
Elin düşmənidir demək o nakəs.

1037

Özünün həkimi olmayan bir kəs.
Özgəyə  həkimlik eyləyə bilməz.

1038

Atasının gül balası, başda tacdır,
Müftəxoru nökərinə bil, möhtacdır.

1039

Zamana möhtacdır dövran hər bir an,
Hakim-zaman edir, onu imtahan.

1040

Əgər yayda yağsa qar, olacaqdır fəlakət,
Yas donunu geyəcək qış gələndə məmləkət.

1041

Qəlbən nifrət etməyən ürəkdən gülə bilməz,
Sevinc, kədər hissini əsla o, bölə bilməz.

1042

Varı, pulu yox idi, dərdi- səri çox idi,
Varı, pulu çoxaldı, ağlı yerində qaldı.





1043

Alçala- alçala ucalanları
Ucala- ucala satılan gördüm.
Alçala- alçala qocalanları,
Ayaqlar altına atılan gördüm.

1044

Elmlərin  bənzəri var dənizə,
Bu ümmanda kim boğula, kim üzə.
İstedadlar  baş vurarlar  ümmana,
Dürrü tapıb, bəxş edərlər cahana.

1045

Nə sərvət, nə dövlət, nə toy, nə busat
Əsil xoşbəxtliyə dəlalət etməz!
Saf sevgi üstündə qurulan həyat
Çətin sınaqlarda güdaza getməz!

1046

Bu torpaq heç zaman artmayacaqdır,
Artan insanlara çatmayacaqdır.
İnsan üz tutacaq ənginliklərə,
Orda yer tapacaq özünə hərə.

1047

Müsbət enerjili olan insandan
Bəşər faydalanır, güc alır ondan.
Mənfi enerjili olan insandan,
Bəşər ziyan görür hər zaman, hər an.

1048

Ən gözəl əsərlər yaranır gecə,
Tarix sınağını almayır vecə.
Özünə əbədi ömür qazanır,
Qəlblərə yol tapır aşkar- gizlicə.





1049

Siyasət bənzəyir qaynar qazana,
Burda kimlər yana, kimlər qazana.
Dünəni öyrənib, sabahı görən,
Həqarətlə baxar o, uduzana.

1050

Ümumi təhlillər apararaq mən
Çox dərin mənalı fikirlər tapdım.
Yığcam, həm də dərin ifadələrdən
Dillərdə yaşayan hikmətlər yapdım.

1051

Ömür payın bənzəri var bir ilə,
Yazı, yayı, payızı var, qışı var.
Körpə, gənclik, orta, ahıl dəmiylə,
Dörd fəsli yaşayan olar bəxtiyar,
Hər dövrün özünün öz naxışı var.

1052

Baharı təbiət bir müjdə sanır,-
Qışın yuxusundan torpaq oyanır.
Alır ilhamını quşlar da yazdan,
Təbiət dirçəlir cəh-cəh avazdan.
Cücərir torpaqda olan toxumlar,
Çün ki, toxumlarda həyat eşqi var.
Həyat nəfəsi var axan sularda,
Canlıya can verir, şəffaf sular da.
Verir öz hökmünü tarixi- dövran,
Yamyaşıl don geyir təbiət o an.
Gecə ilə gündüz olur bərabər,
Təbiət bu dövrə olur səfərbər.
Canlılar təbiət qeydinə qalır,
Nəsil artırmağa meylini salır.
Bu, dini bayram da deyildir əsla,
Məğzi sübut edir tam bir əsasla.
Bir sözlə, təbiət yeni don geyir,
Bəşər övladına bunları deyir:
“ Adına Novruz de, ya da ki, Bahar,
Onun məzmununda böyük hikmət var.
Bəşəri bayramdır Bahar bayramı,
Onu qeyd etməli dünyada hamı”.



# İkinci hissə

***(İndi o, başqalarını tərbiyə edir)***

1053

Gələndə pak gəldin bu dünyaya sən,
Çalış ki, həyatdan pak da köçəsən.

1054

Şükr elə həmişə sən Yaradana,-
Gətirib insantək səni cahana.

1055

Bu gidi dünyada elə yaşa sən,
Bəşər bəhrələnsin əməllərindən.

1056

Ömrünə mənanı axtarsan əgər,
Bəşərə xidmətdə taparsan dəyər.

1057

Abırsıza tövbə olmaz, biləsən,
Çalış onu həyatından siləsən.





1058

Allah kəlamını öyrən sən öncə,
Nümunə olasan yetişən gəncə.

1059

Ömrün yazı, yayı, payız, qışı var,
Çalış ki, hər fəsil olsun sənə yar.

1060

Tarixdə şərəfli ad qoysan əgər,
Xalqın da adınla daim fəxr edər.

1061

Kimə pislik etsən qədərini bil,
Axı bu insandır, daş, dəmir deyil.

1062

Saf amal yolçusu olsan həyatda,
Səni yaşadacaq daim həyat da.

1063

Ananı itirmə varlığın çökər,
Onsuz ürəyinə kədər dağ çəkər.

1064

Özünə güzəştə getmə heç bir an,
Faciən başlayar həmin zamandan.

1065

Namərddən, nadandan uzaq ol ki, sən,
Naqis təsirlərdən kənar düşəsən.

1066

Həmişə tədbirli olsan əgər sən,
Vaxtsız əcəli də kənar edərsən.

1067

Getmə təbiətin ziddinə heç vaxt,
Yoxsa ki, o səni eyləməz xoşbəxt.





1068

Kim öz peşəsinin olsa vurğunu,
Sənətkar sayacaq tanıyan onu.

1069

Namərdə yaxşılıq etsən əgər sən,
Onun əvəzində pislik görərsən.

1070

Yaxşıya pis demə, ağzın əyilər,
Pisə yaxşı desən atan söyülər.

1071

Çalış adamları tez-tez ara sən,
Möhtaca kömək et, xalqa yara sən.

1072

Dəyərli ol ki, sən dəyər verəsən,
Dəyərli olmasan, dəyər vermə sən.

1073

Usanma büdrəyib yıxılmağından,
Nəticə çıxarsan, qorxma yağından.

1074

Faşisti əfv etmə, səni məhv edər,
Sonra da nəslinin məhvinə gedər.

1075

Alçalıb ucalma, qeyrətlə ucal,
Mənalı yaşa ki, şərəflə qocal.

1076

Meyvəni kal dərmə, ağac ağlayar,
Bağban bar dərdindən qara bağlayar.

1077

Alçaq təqdirini sən bir təhqir san,
Yoxsa ki, özün də alçalacaqsan.





1078

Acgöz, qarınqulu olsan əgər sən,
Heç vaxt gileylənmə öz taleindən.

1079

Yatsan kölgəsində sən namərd kəsin,
Xəyanətkar kimi gələcək səsin.

1080

Halallıq ömrünə kəsilsə hakim,
Sənə hörmət edər ağıllı hər kim.

1081

Səbəbsiz suclama ata, ananı.
Yoxsa, itirərsən sənə yananı.

1082

Acgözdən mükafat heç vaxt umma sən,
Ölüm şərəflidir bu hədyyədən.

1083

Qəpiyin qədrini bilsən hər zaman,
Zalım yoxsulluğa verməzsən aman.

1084

Hər salam bir məna kəsb edir, bil, sən,
Çalış ki, sən onu dərk eyləyəsən.

1085

Yaxşılıq eyləyib unutsan əgər,
Qapını həmişə xoş xəbər döyər.

1086

Yaxşıya bir pislik etsən əgər sən,
Hesab et özünə onu edirsən.

1087

Ana təbiətdir yaşadır bizi,
Qədrini bilməsək, dönəcək üzü.





1088

Özünə sevdiyin ixtisası seç,
Onun zirvəsini sən şərəflə keç.

1089

Hər şirin dilliyə dostumsan: - demə,
Sonra peşman olub qəm - qüssə yemə.

1090

Nuruna qərq etsən doğma vətəni,
Əməlin döndərər məşələ səni,

1091

Kimsəyə baş əyib yaltaq olma sən,
Yoxsa, adamlardan nifrət görərsən.

1092

Öyrən hikmətləri, ona əməl et,
Cənnət gor evinə sevgi ilə get.

1093

Milyonlar toplasan qəpik- quruşdan,
Qur, yarat, uzaq ol findu-firuşdan.

1094

Hiyləgərlik olsa əgər amalın,
Nifrətə tuş gələr nifrin camalın.

1095

Vicdansız, nanəcib, namərd insandan,-
Hər cür alçaqlığı gözlə, sən ondan.

1096

Bəzən namərdə də mərdlik et ki, sən,
O namərd qoy ibrət götürsün səndən.

1097

Daim başın üstə görsən Allahı,
Günahlar işlədib, çəkməzsən ahı.





1098

Yaxşılıq olarsa əgər amalın,
Aləmə nur saçar nurlu kamalın.

1099

Tənqidə dözümlü olsan hər zaman.
Olan nöqsanını bilərsən hər an.

1100

Yaradıcı olsan  sevərlər səni,
Cənnət eyləyərsən doğma vətəni.

1101

İstəsən həmişə qalib olasan,
Düşməni özündən ehtiyatlı san.

1102

Namərdlə dost olma, namərd olarsan.
Xalqın nifrətinə məruz qalarsan.

1103

Ağılsız adama eyləmə hörmət,-
Onun mənasını dərk etməz fəqət.

1104

Əqrəb, ilan kimi yaşasan əgər,
Sancdığın hər bir kəs qapını döyər.

1105

Kasıb, sahib olsan dövlətə, vara,
Onlardan pay ayır, ver kasıblara.

1106

Namərddən uzaq ol, buraxma yaxın,-
Yoxsa ki, məhv edər səni günahın.

1107

Tamah gözü ilə baxsan həyata,
Şərəf hissi sənə çətin ki, çata.





1108

Haqsızlıq eyləmə, çünki divan var.
Haqqı itirənə Haqq qənim olar.

1109

Təmənna güdməsən özgə birindən,
Demək, insan kimi yaşayirsan sən.

1110

Bir milçək öldürmə, yaratmadan sən,
Canlıya qəsd etmək pisdir ölümdən.

1111

Hamıya sən yaxşı olmaq istəsən,
Öncə düşmənini dostun eylə sən.

1112

Məclisdə içkidən aşsan həddini,
Sənə göstərərlər öz sərhəddini.

1113

Barsız kölgəsində yatsan əgər sən,
Bir bəhər görməyib, qəhər yeyərsən.

1114

Haqqa, ədalətə carçı ol ki,sən,
Gül  ətri qoxusun əməllərindən.

1115

Cinayət yoluyla sən toplama var,
Səni bu dünyada edəcəkdir xar.

1116

Çox varlı olarsan, fikrin çox olar,
Çox kasıb olarsan, dərdin çoxalar.

1117

Comərd, dost bildiyin çıxarsa namərd ,
Tez ondan uzaqlaş, gətirəcək dərd.





1118

Oxu “Zənbur”, “ Tövrat”, “ İncil”, “ Quran”ı,
Həyatı dərk elə, dünyanı tanı.

1119

Çalış ki, həyatı mənalı yaşa,
Bir şəxsiyyət kimi ömrü vur başa.

1120

Hər cür yaxşılığın qədrini bilsən,
Yaxşılıq taparsan həmişə bil, sən

1121

Çalış ucalıqdan enmə heç zaman,
Yoxsa, düşmənlərin verməzlər aman.

1122

Xalq üçün dəyərli əsər yaratsan,
Onun ömrü qədər həyatda varsan.

1123

Sapı özümüzdən olan baltalar,
Kötüyü üstündə bizi baltalar.

1124

Boş mis qablar kimi gur səs çıxarsan,
Bilmədən evini özün yıxarsan.

1125

Hikmətli sözlərdən tiksən türbəni,
Bu türbən əbədi yaşadar səni.

1126

Ömürlər yaşasan sən bir ömründə,
Xalqa örnək olar sənin ömrün də.

1127

Xəyalpərəst deyil, realist olsan,
Həyatın nəbzini tutarsan asan.





1128

Sağlam müxalifət düşmən ki, deyil,-
Olan nöqsanları aşkar edir, bil.

1129

Boşboğaz kəslərdən uzaq ol ki. sən,
Özün də boşboğaz ola bilərsən.

1130

Pislər dırnaq deyil, kəsib atasan,
Düz yola yönəlt ki, haqqa çatasan.

1131

Sözünü bişir de, heç vaxt tələsmə,
Doğru danışanın sözünü kəsmə.

1132

Xalqı soymaq üçün vəzifə tutsan,
O xalq kömək etməz həyatda batsan.

1133

Yaxşılıq etdiyin adamı tanı,
Sonra yarat ona uyğun  imkanı.

1134

Çox vaxt saxta olur üzə təriflər,
Dost olan arxada səni təriflər.

1135

İdeyan çevrilsə hakim qüvvəyə,
Quşqonmaz dağa da olarsan yiyə.

1136

Pis sənə pis desə, demək yaxşısan,
Yaxşı pis deyərsə, bunu doğru san.

1137

Dostun xain çıxsa, dostluğa əgər,
Ondan gec-tez sənə, zərbələr dəyər.





1138

Xalqından sədaqət görsən əgər sən,
Hər an düşməninə qalib gələrsən.

1139

Tanımaq istəsən sən bir adamı,
Ona vəzifə ver, tanısın hamı.

1140

Varının qədrini bilsən hər zaman.
Yaxşı yaşamağa çatarsan hər an.

1141

Ölməzlik xülyası tutmasın səni,-
Ruhun tərk edəcək bir gün bədəni.

1142

Xalqa xidmət üçün vəzifə tutsan,
Onun sevimlisi olarsan asan.

1143

Arsızlıq eyləyb ömrü uzatsan,
Özünü ən qısa bir ömürlü san.

1144

İstəsən övladın olsun amallı,
Elə bir yar seç ki, nurlu, kamallı.

1145

Dostunu yanında görsən hər zaman,
Qəvi düşmənə də verməzsən aman.

1146

Öz həyat yolunu elə keç ki, sən,
Geriyə baxanda dərd çəkməyəsən.

1147

Ağsaqqal sayılsa hər çox yaşayan,
Onda qarğanı da gəl ağsaqqal san.





1148

Ədalı nəzərlə baxsan, dünyaya,
Səni insan kimi salmazlar saya.

1149

Çörəklə imtahan etmə insanı,
Yoxsa, Tanrın verər sənin cəzanı.

1150

Oğurluq yolu ilə toplasan varı,
Kisən ələk olar, yığdığın darı.

1151

Həyatda mərdanə, təmiz ol ki, sən,
İnsanlar nümunə götürsün səndən.

1152

Həyatda sən yanan şam olsan əgər,
İnsanlar nurundan zər libas geyər.

1153

Ata-ana sağlam olsun ki, gərək,
Onların övladın biz sağlam görək.

1154

Sev ki, insanları, sevsinlər səni,
Sən də yaşadasan doğma vətəni.

1155

Heyvani hisslərlə yaşayan insan!
Anla ki, özün də bir cür heyvansan.

1156

Namərd düşmən yatan görərsə səni,
Əyninə geydirər ölüm kəfəni.

1157

Ağız tikəsini bölən insandan,
Ürək dostu olar sənə bax ondan.





1158

Dərdini dostunla sən bölsən yarı,
Deməli, tapmısan dərd giriftarı.

1159

İşığın nə qədər "gur" olsa sənin,
Səninlə fəxr edər doğma vətənin.

1160

Fürsəti düşmənə versən əgər sən,
Tezliklə cəhənnəm odu görərsən.

1161

Həmişə ədalət  toxumu əksən,-
Bu haqsız dünyada haqq  dərəcəksən.

1162

Zəhmətsiz bir ömür heç ömür deyil,
İnsan zəhmət ilə xoşbəxt olur, bil.

1163

Düşmən tərifini bir kənara at,
Dostun tənqidindən nəticə çıxart.

1164

Ötən hər bir anın qədrini bil, sən,
Çünki, birdəfəlik o, gedir səndən.

1165

Ömründə  heç kəsə sən quyu qazma,
Tanrı qoyan yolu heç zaman azma.

1166

Qarğatək yuvalar tez-tez korlasan,
Bil ki, aqibətin heç olmaz asan.

1167

Dost ilə yoldaşı qarışdırma sən,
Dostu çox sınaqdan keçirməlisən.





1168

Dostun namərd olsa, düşməninsə mərd,
Deməli, özün də namərdsən, namərd.

1169

İlantək sürünüb yaşasan əgər,
Nifrətin həyata zəhər gətirər.

1170

Qohumun paxıllıq edərsə sənə,
Bunu yad eyləsə, eyləmə tənə.

1171

Müftəxor adamla dost olsan əgər,
Ona imkan versən, səni də yeyər.

1172

Sağlamlıq insanı cəngavər edir,
Qədrini bilməsən, o, səndən gedir.

1173

Qoyma xəbisliyi hopsun qanına,
Yoxsa ki, yayılar bütün canına.

1174

Qonaqlıq verməyən ən xəsis bir kəs,
Sifariş etməyə göstərər həvəs.

1175

Bacardığın işin dalınca sən get,
Ağıllı təklifə çalış əməl et.

1176

Kiminin əvvəli, kiminin sonu,-
Bunlar yoxundursa, gey matəm donu.

1177

İstedad- Tanrıdan verilən paydır,
Ona sahib çıxsan, dürlü saraydır.





1178

Bil ki, bu dünyada nəyi yaparsan,
Başqa bir şeyi yox, onu taparsan.

1179

Desən yaxşıya pis, yamana yaxşı,
Nifrət qazanarsan hər addımbaşı.

1180

Sözün ümmanında dürrü ara sən,
Dürdən ümman yarat, xalqa yara sən.

1181

Canının qədrini bilsən hər zaman,
Sən öz məqsədinə çatarsan hər an.

1182

İnsanlara qarşı xeyirxah ol sən,
Bədxah da qoy ibrət götürsün səndən.

1183

Vəzifən var isə, pulun da vardır,
Xalqa xidmət üçün zamanın yardır.

1184

Qənaət et sağlam olasan deyə,
Duza, qəndə, ətə, həm də çörəyə.

1185

Vaqif olsan əgər elmlərə sən,
Cənnət məkanında, bil, behiştəsən.

1186

Qənaət eyləsən əgər puluna,
Yoxsulluq çevrilər hər an quluna.

1187

Üç rəqəmli etmə, sən öz çəkini,
Köklük xəstəliyi tez tutar səni.





1188

Normal istiliyi olmayan yerə,
Toxumu səpmə ki, getsin hədərə.

1189

Saxta təriflərdən uzaq ol ki, sən,
Özünü kənardan görə biləsən.

1190

Harda yaman varsa, orda yaxşı var,
Yaxşıya dəstək ol, yaşa bəxtiyar.

1191

Çörək müqəddəsdir, onu bil ki, sən,
Çörəksiz qalarsan çörək itirsən.

1192

Dost kimi, hər kəsdən yoldaş da olmaz,
Olsa, bu dünyada varlığın qalmaz.

1193

Yaddaşda ən çox pis, ən yaxşı qalır,-
Yaxşılar qəlbində yerini salır.

1194

Yaxşılıq eyləsən,  gətirmə dilə,
Gəl,  razı olma ki, bunu el bilə.

1195

Çalış boyundan çox olmasın çəkin,
Varsa, artığından büsbütün çəkin.

1196

Sən Haqqın yolundan çıxma kənara,
Yoxsa ki, qəlbinə vurular yara.

1197

Yaxşıları, yamanları sına hər an,
Utanmasan, inanmasan, aldanmazsan.





1198

Ata qisasını övladdan alma,
Günahsız  övladı bəlaya salma.

1199

Namərd ovçu kimi durma pusquda,
Ayıq düşmən salar səni bil, oda.

1200

Talamaq olarsa əgər amalın,
Xalqın qənimidir demək kamalın.

1201

Xalq üçün yaşayıb, yaratsan əgər,
Yaşanan bu ömrün min ömrə dəyər.

1202

Düşsən  xalqın "qara siyahı"sına,
Özgə birini yox, özünü qına.

1203

Halal çörəyini nankora versən,
Vicdan əzabını özün görərsən.

1204

Fırıldaqçı öncə qəlbini alır,
Sonra da talayıb pis günə salır.

1205

Təmənna umma san xalq düşmənindən,-
Xalqın üz döndərər  yoxsa ki, səndən.

1206

Dosta mümkün güzəşt etməsən əgər,
Səndən uzaqlaşar, qəlbin dərd çəkər.

1207

Elmə yiyələnib düşünsən dərin,
Səni ucaldacaq saf əməllərin.





1208

Yaşadığın ömrün mənasını bil,
Dərk elə bu həyat əfsanə deyil.

1209

Ürəyində təpər olmasa əgər,
Olan qeyrətin də səni tərk edər.

1210

Hər bir gözəllikdən doymaq olar, bil,
Qadın gözəlliyi doyumluq deyil.

1211

Bir an da Tanrıdan üzmə əlini,
Yoxsa ki, bu həyat qırar belini.

1212

Nadana dost desən, zərbə alarsan.
Özün də çevrilib nadan olarsan.

1213

Namərdin hörməti töhmət gətirər,
Olan hörmətini sona yetirər.

1214

Ən məxfi sirrini dosta da demə,
Sonra peşman olub qəhər də yemə.

1215

Övladın  çıxarsa acgöz, tamahkar,
Deməli, özünsən buna  günahkar.

1216

Fürsəti əlindən fövtə vermə sən,
Yoxsa, üzülərsən acı qəhərdən.

1217

Ya dost ol, ya düşmən, orta mövqe yox,
Orta mövqelilər satqın olur çox.





1218

Həyat mövcud olmaz susuz, havasız,
Onları qoru ki, qalma davasız.

1219

Torpağı qoru ki, artmır heç zaman,
Artan insanlara yer çatmaz, aman!..

1220

Tanrıya şəkk etmə, yaratmış bizi,
Odur hifz eləyən  hər birimizi.

1221

Sədaqət gözləmə hər ötən kəsdən,
Yoxsa aldanarsan hər addımda sən.

1222

Heç kəs səadətə qovuşmur asan,
Onu zəhmət ilə qazanmalısan.

1223

Yalan danışarsa dəstə başçısı,
Dəstəyə gətirər həyat acısı.

1224

Əgər istehsalçı olsan həmişə,
İstehlak səninçün olmaz əndişə.

1225

İnsan taleyilə oynama heç vaxt,
Yoxsa ki, olmazsan həyatda xoşbəxt.

1226

Dərdini özün de umduğun kəsə,
Qəlbində saxlama, ürəyin küsə.

1227

Namərddən  bir hörmət gözləmə qəti,
Sənə şöhrət olar mərdin hörməti.





1228

Xalqını ağ günə çıxarsan əgər,
O da həmişəlik səni yad edər.

1229

Alçaltmaq olarsa əgər vərdişin,
Səni alçaldacaq belə gərdişin.

1230

Acgözlük olarsa əgər xislətin,
Həmişə kəm olar bil ki. qismətin.

1231

Dünyanı dolaşan əsər yaz ki, sən,
Onunla dillərdə daim gəzəsən.

1232

Həyatda heç kəsə qurma ki, tələ,
Onun da qisası başına gələ.

1233

Yazsan hikmətini sirli dünyanın,
Dünyanı bəzəyər sənin ad-sanın.

1234

Bu sirli dünyanın özü bir hikmət,
Dərk etsən, görərsən ondan mərhəmət.

1235

Əkib- becərmədən, havayı  biçsən,
 Halallığın al ki, halal biçəsən.

1236

Üzünə tərifdən  imtina et sən,
Yoxsa gicəllənər başın tərifdən.

1237

Sarı sarmaşıqtək yaşama bir an.
Canlılar verməzlər sənə bir aman.





1238

Düşmənlə birlikdə nahar etmə sən,
Hesab et o yemək pisdir zəhərdən.

1239

Könüllü bir tikə dünyaya dəyər,
Könülsüz min tikə səni də yeyər.

1240

Xeyriyyəçi olsan, xeyir taparsan,
Özünə qəlblərdə məskən yaparsan.

1241

Xeyirxah əməlin yaşadar səni,
Şöhrətli eyləyər bütün nəslini.

1242

Heç kəsə, sən qəsdən pislik eyləmə,
Yoxsa ki, həyatın çevrilər qəmə.

1243

Ellər əməlindən geysə zərxara,
Məzarın çevrilər behiştlik gora.

1244

Vaxtını keçirmə havayı yerə,
İnsan bu dünyaya gəlir bir kərə.

1245

Hər kəsə xoş günlər diləsən əgər,
Cəmiyyət başına min sığal çəkər.

1246

Xalq mənafeyini üstün tut ki, sən,
Həmişə xalqından hörmət görəsən.

1247

Əgər yazda yatsan, qışda batarsan,
Hətta son mənzilə çox tez çatarsan.





1248

Vəzifə mindirsə hörmətə səni,
Ucalt el gözündə o vəzifəni.

1249

Vəzifənə layiq olmasan əgər,
Sən onu tərk elə, o, səni əyər.

1250

Tutmasın həyatda şöhrət gözünü,
Hər an imtahan et özün – özünü.

1251

Ürəyin xalqınla döyünsə əgər,
Ömrünün hər anı dünyaya dəyər.

1252

Əmlaklar yandırıb döndərsən külə,
Ziyankar adamtək düşərsən dilə.

1253

Haqqı, ədaləti taparsan hər an,
Bu məqsəd uğrunda mübariz olsan.

1254

Ədalətlə tut ki, hər işini sən,
Hər kəs fayda görsün əməllərindən.

1255

Haqsızlıq eləmə, qarşına çıxar,-
Səni məhv eləyər, evini yıxar.

1256

Xalqın nifrətinə tuş gəlsən əgər,
O da daim sənin goruna söyər.

1257

Haqsızlıq içində sən haqqı yarat,
Haqqın dərgahında öz haqqına çat.





1258

Adamları qoysan axmaq yerinə,
Bir kimsə yaramaz dərdi- sərinə.

1259

Verilən çörəyə xəyanət etmə,
Düşmən qapısına çörəyə getmə.

1260

Haqsız tənqidlərə dözmür hər ürək,
Həqiqəti üstün tutasan gərək.

1261

Həzm edə bilməsən xörəyi yemə,
Sonra da kimsədən imdad diləmə.

1262

Sevincdən, kədərdən  yaşarsa gözün,
Ömrün uzun olar, gülümsər üzün.

1263

Riyakar adamla dost olsan əgər,
Onun xəyanəti səni məhv edər.

1264

Uğurlu siyasət aparmasan sən,
Onu bilənlərdən  öyrənməlisən.

1265

Namərdə yalvarma, çox alçalarsan,
Mərdanə ölməyi sən bir şərəf san.

1266

Gənclik həyatını elə qur ki, sən,
Qocalan zamanı qəm çəkməyəsən.

1267

Özünü heç kəsdən üstün tutma sən,
Hər kəsdən aşağı enə bilərsən.





1268

Çalış ki, hamıya yaxşı olasan,
Qəlblərdə özünə məskən salasan.

1269

Çox kasıb, ya harın olsan həyatda,
Mənasız görünər sənə həyat da.

1270

Çalış əqrəb kimi heç vaxt yaşama,
İnsanı sancanlar çatmazlar kama.

1271

Ouyular qazma ki, özün düşərsən,
Cəhənnəm odunda orda bişərsən.

1272

Xoş təsadüf səni dağa qaldırar,
Bəd təsadüf isə dağdan saldırar.

1273

Gördün qiymətini verməyir zaman,
Özünə qiyməti onda ver haman.

1274

Səhra küləyitək əsmə hər yana,
Mövqesiz adamlar yükdür cahana.

1275

Xalqın düşməninə əgər yarasan,
Demək, öz xalqına qara yarasan.

1276

Siqar aludəsi olarsa həkim,
Demək, sənətinə deyildir hakim.

1277

Haram pul dalınca qaçma heç zaman,
Halal yaşamağa o, verməz aman.





1278

Düzgün olmağınla fəxr etsən əgər,
Həqiqət həmişə qapını döyər.

1279

Doğma eldə yaratdığın sənin olar,
Yad ellərdə yaratdığın yada qalar.

1280

Xəyanət eyləmə, qarşına çıxar,
Etdiyin bu əməl  evini yıxar.

1281

Kimsənin pisliyin istəmə heç vaxt,
Səni bu xasiyyət eyləməz xoşbəxt.

1282

Hikmət sorağıyla dolan hər yanı,
Çalış hikmətlərdən qur öz dünyanı.

1283

İmkanlı dəlidən uzaq ol ki,sən,
Həyatda salamat qala biləsən.

1284

Nə təklif olunsa yoxla, qəbul et,
Vicdan qarşısına alnı, açıq get.

1285

Uca Tanrın olsa sənin pənahın,
Göylərə yüksəlməz heç zaman ahın.

1286

Hər əsər- abidə, bir yadigardır,
Mənim də “Böyük Şor*” abidəm vardır.

1287

İmtahan eyləsən hər vaxt özünü,
Vicdan tərəzisi deyər sözünü.





1288

Biliyin gücüylə ağlı bəzə, sən,-
Elmin ümmanında üzə biləsən.

1289

Oxu dahiləri, öyrən dərindən,
Hikmətli incilər, süzsün sərindən.

1290

İstəsən daima qəlbdə qalasan,
Müqəddəs amalı sən bir qala san.

1291

Səhəri kədərlə sən açsan əgər,
Həmin gün qəlbini qəm – qüssə sökər.

1292

Nə ömür, nə zaman dönməyir geri,
Mərd yaşa, ömrünün görünsün yeri.

1293

Özünütərifdən uzaq ol ki,sən,
Özgə ibrət alsın sadəliyindən.

1294

Onun, bunun hesabına kişi olan,
Özü haqda hey uydurar yalan- palan.

1295

Sirli bir aləmdir insan həyatda,
Aləmə hökm edir o, kainatda.

1296

Büdcə qanununa düz əməl etsən,
Ailən dağılmaz bəd səfalətdən.

1297

Xeyir zalım şərlə döyüşür hər an.
Sonda qalib olur xeyir hər zaman.





1298

Kimin kim olduğun bilmək istəsən,
Dediyi sözünü, işin ara sən.

1299

Özün gözə soxanları yoxla, sına,
Bacarmasan, gəl özünü onda qına.

1300

Yüz ölçüb, bir biçib ailə qur ki, sən,
Həyat sınağında büdrəməyəsən.

1301

Anaya, vətənə, xalqa yarasan,
Haqqın dərgahına çatarsan asan.

1302

Hava, od, su, torpaq- Tanrı  payındır,
Onları qorumaq haqq- sayındır.

1303

İmtahan etsən əgər, sən  gecələr gündüzünü,
Etdiyin əməllərin tapacaqsan ən düzünü.

1304

Yarın, bacın, qardaşın olsalar  da havadar,
Yalnız atan, anandır bu dünyada sənə yar.

1305

Uca dağların  qarı, bağların barı yoxsa,
Nəyə lazım o ömür, həyatda yarı yoxsa?..

1306

İki dünya arasında bölünürsən iki yerə.
Adın  qalır  bu dünyada, nəşin  isə gedir yerə.

1307

Qədrini bil hər anın, nəbzini tut zamanın,
Qoru sağlamlığını, səni yaşatsın canın.





1308

Babalardan qalan diyar, müqəddəsin olan diyar,
Əgər onu qorumasan,  olarsan  diyarbadiyar.

1309

Xalqın üçün örnək olub, ürəklərdə məskən salsan,
Bu dünyada sən özünü həmişəlik  yaşayan san.

1310

Kitabı ver oxuyana,  gəbəni ver toxuyana.
Gülü vermə sən nadana, ver ətrini qoxuyana.

1311

Öncə bu həyatı müşahidə  et.
Onun təfəkkürdə təhlilinə get.
Sonra təcrübədən keçir  onları,
Obyektiv varlığı bax belə dərk et.

1312

Ağıllı bir insan haqlasa yüzü,
İlkin qərinədə öyrənir özü.
İkinci qərinə qurub- yaradır,
Üçüncü qərinə öyrədir bizi.

1313

Ümumi təhlillər apararaq sən,
Çox dərin mənalı fikir taparsan.
Yığcam, həm də dərin ifadələrdən
Dillərdə yaşayan hikmət yaparsan.

1314

Başqasının kədərinə sevinsən,
Onun sevincini kədərin bilsən,
İnsan olan sənə insan deyərmi?..
Bu dünyada yaşamağa dəyərmi?..





1315

Adama vəzifə gəl axtarma, sən,
Abad ölkəni də bərbad edərsən.
Vəzifəyə adam axtar ki, hər an,
Ölkəni eyləsin bir cənnət- məkan.

1316

Dələduz axtarma, özü gələcək,
Zəif cəhətini tapıb, biləcək.
Əvvəl soymaq üçün yollar tapacaq,
Səni müflis edib, sonra güləcək.

1317

Qorxulu olsa da aşikar düşmən,
Ondan qorxuludur gizlisi, bil, sən.
Aşikar düşmənə döyüşün ilə,
Gizlinə uğrunla qalib gələrsən.

## 1318

Aldanma dünyanın var-dövlətinə,
Bir anda ən yoxsul hala düşərsən.
Kasıb - küsublara eyləmə tənə,
Həyat girdabında odda bişərsən.

## 1319

Xalqına ürəkdən bağlı ol ki, sən,
Adın nəğmə kimi dolaşsın dildə,
Yolunda canını fəda eyləsən,
Abidən əbədi ucalar eldə.

## 1320

İstəmə heç kimdən heç nə, heç bir vaxt,
Versə minnət olar, verməsə nifrət.
Yalnız tək Allahdan istə hətta taxt,
Versə hökmün olar, verməsə hikmət.





## 1321

Haqsızlıq odunda alışıb, yansan,
Özünü dünyanın məzlumu sansan,
Tanrın zülmkarın dərsin verəcək,
Dostun, düşmənin də bunu görəcək.

## 1322

1 İnsandır Allahın yerdə kölgəsi,
Odur ki, hər yerdən ucalır səsi.

2 Tanrı düşüncəni vermiş İNSANA-,
Qurub- yaşatmağı tapşırmış ona.

3 Nadandır Tanrıya dönük çıxanlar,
Ülvi insanları oda yaxanlar.

4 İblislər törədən müharibələr
Bəşərin başına od-alov ələr.

5 İnsanlıq bərqərar olsa dünyada,
İnsanlar heç zaman düşməzlər oda.

6 İnsanlıq olsaydı, savaş olmazdı,
Nahaq qan heç zaman yerdə qalmazdı.

7 İnsan da insana qəsd edərmi heç?
İnsana qəsd edən, insanlıqdan keç!

8 Tanrıya zidd çıxma, bir düşün dərin,
Məhvinə gəl getmə sən bəndələrin...

**Nəticə**

1330

Bir məktəb yaratdım nəsillər üçün,
Bizdən sonra gələn minillər üçün.
Tərbiyə məktəbi – ad verdim buna,
İthaf eyləmişəm insan oğluna.
Burada hər beyti sən bir ibrət san,-
Həyat reseptini burda taparsan.
Həyat dərslərindən hikmət yaratdım
Haqqın dərgahında arzuma çatdım.





***Hikmətli sözlərdən qurdum bir qala,***
***İstədim həyatda bu izim qala.***

***Türbəmi tikmişəm inci sözlərdən,***
***Onun ömrü qədər yaşayacam mən.***

***Həyat aşiqiyəm sabah mənimdir,***
***Mənə ilham verən öz Vətənimdir.***

----------------------------------------

*"Böyük şor"-Bakıda ən böyük göl idi. Qarşısıalınmaz zənn edilən bu gölün problemlərini müəllif elmi şəkildə həll etmiş, bununla əlaqədar dissertasiya müdafiə edərək, orada qəsəbə salınmasına şərait yaratmışdır. Odur ki, onu özünün şah əsərlərindən biri hesab edir.*

**Aforizm- ümumiləşmiş, bitkin bir fikri yığcam, dəqiq ifadə edən və dildə müstəqil yaşaya bilən dərin mənalı fikrin qısaca ifadəsidir.*

**Təmsil - adamları və onların əməllərini eyhamlı şəkildə (heyvanların, bitkilərin, yaxud əşyaların simasında) təsvir edən qısa və nəsihətamiz formalı ədəbi- bədii əsər.*



***Aldım ustadlardan mən öz dərsimi,***
***Nəğməyə kökləndi qəlbimin simi.***

# Poemalar

## Yaşamaq yaşatmaqdır...

*(Düşüncələr poeması)*

## Proloq

*Çox olub dünyada yazıb-yaradan,*
*Onları bəxş etmiş Böyük Yaradan.*
*Hər yazar özünü bir zirvə sanır,*
*Amma tarix hər vaxt yaxşını anır.*
*Oxudum onların əsərlərini,*
*Dərindən dərk etdim kəsərlərini.*
*Anladım söz nədir, bu həyat nədir,*
*Yaşamaq, yaşatmaq, kainat nədir...*
*Yazarlar Günəşə, ulduza bənzər,*
*Qəlbləri oxşayar, həyatı bəzər.*
*Qiymətli əsərlər özü məktəbdir,*
*Bütün nəsilləri tərbiyə edir.*
Ustadlar öyrətdi mənə həyatı,
Çalışdım yaradım söz kainatı.
Müqəddəs dərgahdan güc almışam mən,
Şeirin zirvəsinə ucalmışam mən.
Yazıb - yaratmaqdır eşqim, həvəsim,
Nurlu sabahlardan gələcək səsim.
Açıb ürəyimin içini oydum,
Yazıb bu əsəri, yadigar qoydum..





## Müqəddimə

Poeziya – ümman, bir kainatdır,
Mənəvi qidadır, ülvi həyatdır.
Bir cənnət bağıdır, çox səfası var,
Güllərə qərq olmuş ətirli bahar.
Sənətlər incisi dedim mən ona,
Onunçün baş vurdum mən bu ümmana.
İlhamı mən Ulu Tanrıdan aldım,
Sənət dünyasına yolumu saldım.
Qətran Təbrizinin yaratdığı bağ,-
Bəxş etmiş cahana sönməyən çıraq.
Bu bağda solmayan güllər açılmış,
Hər gülün qoxusu bağa saçılmış.
Xaqani, Nizami, Nəimi gülü,
Xətai, Füzuli, Nəsimi gülü.
Bunları saymaqla qurtaran deyil,
Mən də bu güllərə salmışam meyil.
Onlar qida verdi mənim qəlbimə,
Mən də arxalandım coşqun təbimə.
Anıb dahiləri irsi aradım,
İstədim söz bağı mən də yaradım,
Dərs aldım bəşərin SÖZ sərvətindən,
Xəzinə yaratdım hikmətlərindən.
Ora dürlü-dürlü sözlər gətirdim,
Qəlbin arzusunu başa yetirdim.

Hər beytim çevrildi çağlayan selə,
Məlhəmlər gətirdi millətə, elə.
Mənim Söz bağımda hər cür meyvə var,
Ondan bəhrələnən olar bəxtiyar.
Söz xiridarları olar qonağım,
Onlara töhfəmdir hikmət bulağım.
Mənim də, sənətdə bir söz mülküm var,
Ariflər yəqin ki, məni anlayar.
Məni ovsunlamış hikmətli sözlər,
Onlar yaranmaqçün yolumu gözlər.
Baş vurub hikmətli söz ümmanına,
İnci, dürr çıxarıb gətirrəm cana.
Sənət dünyasında mənim söz bağım,-
Bəşərə ərməğan şəfa bulağım.
Sözlərdən yaratdım mən elə bir bağ,-
Sirli ümmanlardan verəcək soraq.
Aldım dahilərdən mən öz dərsimi,
Kökləndi sözlərə qəlbimin simi.
Sözün dəryasında mən üzə-üzə,
Həyat dərslərimi çatdırram sizə.
İncilər əxz etdim Söz məxəzindən,
Qoy yadigar qalsın xalqıma məndən...





**QƏTRAN TƏBRİZİ**

(Əli Mənsur Qətran Cili Azərbaycani)

*(1012, Təbriz, Şadiabad kəndi - 1088, Təbriz)*



Azəri şeirində Qətran ilk addır,
Vətəni Təbrizdir, Şadiabaddır.
Burada almışdır ilk təhsilini,
Burda öyrənmişdir şeirin dilini.
Sonralar çox yerdə yaşamış şair,
Şeirlər yazmışdır bunlara dair.
Şəddad dövlətinin paytaxtı Gəncə,
Qoynunda yer vermiş bu şair gəncə.
Bir müddət burada yazıb- yaratmış.
Şeirdə, sənətdə zirvəyə çatmış.
Gəncədə bağlanmış şeirə, sənətə,
Nüfuzu qaldırmış onu hörmətə.
Yazdığı şeirlər dillərə düşmüş,
Şöhrəti ellərdən ellərə düşmüş.

Bir müddət yaşamış Naxçıvanda da,
Burda da vaxtını verməmiş bada.
Yazıb- yaratmışdır şövqlə, həvəslə,
İsti münasibət qurmuş hər kəslə.

Qətran Təbrizini kim tanımır, kim?..
Dilçi, alim, şair, filosof, həkim...
Gəzib - dolanmışdır o, dörd bir yanı,

Şeirlə tanıtmış Azərbaycanı.
Yazdığı "Divan"ı əllərdə gəzir,
Qoşduğu şeirlər dillərdə gəzir.
Özgə bir aləmdir qəsidələri,
Hər biri qüdrətli sənət əsəri.
Dəri dili olmuş öz əsas dili,
Şeirini bu dildə yaratmış, bəli.
Bu, saray dilidir, klassik dildir,
Durmadan yol gəlir, artıq min ildir.
Bu dildə yazmışdır Firdovsi, Xəyyam.
Həm Hafiz, Rudəki, həm də ki, Qətran.
Yazmış mədhiyyələr, gözəl şeirlər,
Onu oxuyanlar "Əhsən!"- deyirlər.
Min ildir yol gəlir Qətran şeiri,
Min ildir yaşadır ər oğlu əri.
O, Odlar yurdunun ilk şairidir,
Bu məktəbi onu əlçatmaz edir.
Həm "Vamiq və Əzra", həm "Quşnamə"si,
Hər yanda sevilən "Qövsnamə"si.
Şəstlə yaratdığı "Lüğəti- Qətran"
Ömür verəcəkdir Qətrana hər an.

Onun təsirilə xəyala daldım,
Belə əsərlərdən mən ilham aldım.
Qətrandan doyunca faydalanmışam,
Şeirinin oduna şam tək yanmışam.
Özüm də əsərlər yaratmışam mən,
Bu da bir töhfədir xalqıma məndən.





## MƏHSƏTİ GƏNCƏVİ

*(Təxminən 1089-cu il – XII əsrin ortaları)*



Gəncənin Xərabət məhəlləsində
Doğuldu Mənisə türk ailəsində.
Sənətkar, müğənni, şahmatçı qadın,
Əbədi tarixə həkk etdi adın.
O, ilk bəstəkardır, musiqiçidir,
Sənəti söyləyir kimdir, nəçidir.
Dövrün girdabında artdı qayğısı,
Şeirindən süzüldü eşqin duyğusu.
Min ildir yol gəlir o, bizə sarı,
Yarır əsrləri- o daş hasarı...
Məhsəti xanımın rübailəri,
Neçə əsrləri, neçə illəri
Fəth edib, uzaq yol adlayıb gəlib,
İllər dolandıqca göyə yüksəlib.
Neçə igidlərin köksünü dəlib,
Sevən könüllərin qəmini silib...
Gör neçə nəsillər ondan dərs alıb,
Məhsəti əhdinə vəfalı qalıb.
"Kaşı kuzəsini daşlara çaldı",
Ulu Yaradandan o, ilham aldı.
Rübai yaratdı söz incisindən,
Mən onu Günəşə, Aya tutdum tən.
Şeir meydanında o, at oynatdı,
On ikinci əsri çox məşhurlatdı.

Hər bənd rübaidə mənalar açdı,
Sənət dünyasında Günəştək saçdı.
Mənisə olsa da onun əsl adı,
Məhsəti adıyla qaldı, yaşadı.
O, “Qızıl dövrü”nün şahzadəsidir,
Ölməz Azərbaycan şairəsidir.
Rübai dərsimi mən ondan aldım,
Meylimi rübai yazmağa saldım,
Söz adlı bağımda, xanimanımda,
Tufanlı, çovğunlu, ahıl anımda
Qurdum zər sözlərdən alınmaz qala,
Rübai yazmağa oldum mübtəla.

Əziz oxucular! Bunu bilin siz,
İlhamla yazılan olmaz dəyərsiz.
Rübailər yazdım ürəkdən, qəlbən,
Qoy yadigar qalsın xalqıma məndən...





**XAQANİ ŞİRVANİ**

(Əfzələddin İbrahim Əli Nəccar oğlu Xaqani Şirvani)

*(1126, Şamaxı – 1199, Təbriz)*



Baş vurdum xalqımın tarixinə mən,
Dondum heyrətimdən, fəxarətimdən.
Vətənim olmazın əzablar görmüş,
Bəşərə ən böyük dahilər vermiş.
Onikinci əsrdə Şirvan diyarı,
Tarixə bəxş etmiş çox sənətkarı.
Bunlardan biri də Xaqani idi,
Sözü özü kimi nurani idi.
Sənət bağçasını sözlə bəzəmiş,
Xalqına üz tutub o, belə demiş:
“İstəmirəm adımı çağıralar Xaqani,
Mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani”.

Kəşməkəşli həyat sürmüş Xaqani,
Şeirində, sözündə dürmüş Xaqani.
Yazdığı əsərlər dillər əzbəri,
Oxşayır qəlbləri min ildən bəri.
Yaratmış çox dolğun gözəl qəzəllər,
Şeirinin mövzusu vətən, gözəllər.
Qətran Təbrizilə başlanan qəzəl,
Xaqani şeirində gül açdı gözəl.
Onun qəzəlləri bu gün də yaşar,
Odur ki, olubdur əbədiyaşar.

"Töhfətül-İraqeyn"- qiymətli əsər,
Hər beyti, misrası qılınctək kəsər.
Yazdığı "Mədain xərabələri"
Olubdur hər yerdə dillər əzbəri.
Saray mühitinə dözmədi şair.
Yazdı tənqidini saraya dair.
Məkkəyə yol aldı, o, "Hacı" oldu,
Qayıdıb gələndə Təbrizdə qaldı.

Həyatı keçibdir çətin, narahat,
Bunlardan yadigar – "Həbsiyyə"si var.
Onun zəngin irsi yadigar qalıb,
Yazdığı əsərlər ərşə ucalıb.
Ölməz şairidir bu məmləkətin,
Durmuş zirvəsində şeirin, sənətin.
Dahi Nizaminin olmuş ustadı,
Böyük Xaqaninin ölməzdir adı.





**NİZAMİ GƏNCƏVİ**
(Cəmaləddin İlyas Yusif oğlu)
*(1141, Gəncə - 1209, Gəncə)*



Sənət dünyasında möhtəşəm işi,
Etmiş Nizamini sözün günəşi.
Doğuldu sənətkar ailəsində,
Təhsil aldı Gəncə mədrəsəsində.
Hər elmi mükəmməl öyrəndi şair,
Kitablar oxudu onlara dair.
Ərəb, fars dilində yazıb-yaratdı,
Yazdıqları ilə zirvəyə çatdı.
Halal zəhmətilə dolandı, gəzdi,
Şeir bağçasının gülünü üzdü.
Qiymətli dəfinə - "Xəmsə" yaratdı,
Onunla sənətin fövqünə çatdı.
"Sirlər xəzinəsi", "Xosrov və Şirin",
Hər biri mənalı, hər biri dərin...
"Leyli və Məcnun"a o, həyat verdi,
Məhəbbət bağından gül, çiçək dərdi.
Ölməz "Yeddi gözəl" elləri aşdı,
Sevən könüllərə nurunu saçdı...
"İsgəndərnamə"si söz salnaməsi,-
Gəlir, gələcəkdir tarixdən səsi.
Onlardır xəzinə sirrini açan,
Sənət dünyasında parlaq nur saçan.

Dünyanı fəth etdi o, məsnəvilə,
Susmuş könülləri gətirdi dilə.
Yazdı çox əsərlər məsnəvi üstə,
Min bir şəfa tapdı şeirindən xəstə.
Sözün qüdrətilə dünya yaratdı,
Əlçatmaz, ünyetməz zirvəyə çatdı.
Nizami məsnəvi gülünü üzdü,
Sözdən könüllərə incilər düzdü.
Hikmətlər yaratdı beytlərilə,
Bu gün də dolaşır o dildən-dilə.
Nizami yaratdı söz ahəngini,
Hər sözün, kəlmənin öz ahəngini.
Hikmət dünyasına çəkibdir ülgü,
Fikir karvanıdır onun söz mülkü.
Min ildir yol gəlir Nizami irsi,
Nizamidən alır milyonlar dərsi.
Nizami irsindən biz ilham aldıq,
Onun qüdrətilə göyə ucaldıq.
Nizami kəlamı bir inci, bir nur,
Onun hər kəlməsi qəlbimdə qürur.
O, Türk dünyasının şeir ustadı,
Parlaq ulduz kimi yaşayır adı.
Şairlər cərgəsi məğrur ordudur,
Nizami komandan- sərkərdə odur.
Nizami-parlayan, sönməyən Günəş,
Sözlə qəlb oxşayan alovlu atəş.
Nəsillər dərs alır onun irsindən,
Müqəddəs sayıram o məktəbi mən.





Dünya şairləri səf-səf düzüldü,
Bu dahi şairi komandan bildi.
Dolaşdı dünyanı, gəzdi hər yeri,
Qəlbləri fəth etdi Nizami şeiri.

Mən də öz dərsimi ustaddan aldım,
Hikmət dünyasına yolumu saldım.
Nizami irsinin oldum vurğunu,
Ən böyük ustadım sandım mən onu.
Baş vurdum hikmətlər dünyasına mən.
Kəlamlar əxz etdim şeyx Nizamidən.
Görmüşəm həyatın hər üzünü mən,
İbrət götürmüşəm çətinliklərdən.
Həyat məktəbindən mən dərs almışam,
Haqqa, həqiqətə meyl salmışam.
Öyrənib bilmişəm nədir bu həyat,-
Sonda insanındır sonsuz kainat.
Oxudum, dərk etdim, gördüm ki, hər an
Elmin gücü ilə yüksəlir insan.
Elmdir dünyada ən qiymətli zər,-
Elmin qüdrətilə ucalır bəşər.
Sınaq meydanıdır həyat insana,
Onu yetişdirib, şans verir ona.
Həyatı, həm elmi dərk etməyən kəs,
Heç zaman hikmətlər yarada bilməz.
Çalışdım öyrənim hər bir elmi mən.
Bəşər fayda görsün bu əməlimdən.

Təbiət elminə meylimi saldım,
Hikmətlər yazmağı qərara aldım.
İlhamım ömrümün oldu yelkəni,
Hikmətli kəlamlar cəlb etdi məni.
“Hikmətli dünyam” tək əsər yaratdım,
Bununla ən böyük arzuma çatdım.
“Hikmətlər dünyası” ad verdim buna,-
İthaf eyləmişəm İnsan oğluna...

“Nizami bağı”ndan güllər üzmüşəm,
Cahan süfrəsinə səf-səf düzmüşəm.
Hikmətli sözlərdən bu, bir qaladır,
Hər sözü bir inci, şəkər, bal dadır.
Həyat dərslərindən əsər yaratdım,
Sözün dərgahında arzuma çatdım...
Əsərdə hər beyti sən bir ibrət san,-
Həyat hikmətini burda taparsan.
Bir məktəb yaratdım nəsillər üçün,
Bizdən sonra gələn minillər üçün
Tərbiyə məktəbi - ad verdim buna,
İthaf eyləmişəm insan oğluna.
Bir saray tikmişəm inci sözlərdən,
Onun ömrü qədər yaşayacam mən.
Bitirdim bağçamda hikmətlər gülü,
Bu gül heyran etdi şeyda bülbülü.
Taparsan bağçamda o gülləri sən,
Qoy yadigar qalsın xalqıma məndən...





**NƏSİRƏDDİN TUSİ**

(Xacə Nəsirəddin Əbu Cəfər Məhəmməd ibn Məhəmməd ibn Həsən Tusi)

*(12. 02.1201, Tus şəhəri - 25. 06.1274, Bağdad)*



Xalqın keçmişinə mən nəzər saldım,
Xoş bir əhval ilə xəyala daldım.
Nə qədər dahilər yetirmiş vətən,
Bunları dərk etməz hər yoldan ötən.
Onlar öz işilə tarixdə qalıb,
Tarix səhnəsinə izini salıb.
Bəhmənyar, Əvhədi, Qətran Təbrizi,
Yüz illər ötsə də, yaşadır bizi.
Nəsrəddin Tusini yetirən ölkə,
Dünyaya dahilər gətirən bölgə.
Doğma məmləkətim - Azərbaycanım,
Damarımdan axan coşqun al qanım.
Tusi- parlaq ulduz, böyük şəxsiyyət,
Qazanmış özünə bir əbədiyyət.
Atasından almış ilk təhsilini,
Dərindən öyrənmiş həyat felini.
Elmin zirvəsinə qalxıb, ucalmış,
Dövrünün zəkalı alimi olmuş.
Təbiət elmində kəşflər etmiş,
Neçə alimlərin dadına yetmiş.
Fəlsəfə, həndəsə, məntiq, fizika,

Astranomiya, cəbr, etika,-
Tusi ustadıydı bu elmlərin,
Onları bilirdi dərindən-dərin.
Ürəkdən sevirdi riyaziyyatı,
Hüququ, tarixi, ilahiyyati.
Triqonometriya - onun şah tacı,
Dünya alimləri ona möhtacı.
*(Kolumbun müəllimi Toskanelli,*
*Cəbri, Həndəsəni, kordinatları,*
*Öyrəndi Tusidən tapdı təsəlli,*
*Elmə yiyələtdi çox fanatları.*
*Kolumb bu elm ilə gəzdi hər yanı,*
*Nəhayət kəşf etdi Amerikanı).*

O, Hülakü xanın yanına getmiş,
Astrologiyada inqilab etmiş.
Arzu - təklifini söyləmiş xana,
Marağada tikmiş bir rəsədxana.
Bu gün də bəşərə o, xidmət edir,
O, dünya elminin fövqündə gedir.
Yazmış dörd hissəli “Zici-İlxanı”,
Bu əsər dolaşmış bütün dünyanı...
Tusinin yazdığı ölməz əsərlər,
Daim yetişdirir ərənlər, ərlər.





Ölkələr dolanır “Əxlaqi- Nasir”,
Namərdin, nadanın yolunu kəsir.

“Bağdadın tarixi”, “Tibb qanunları”,-
Heyrətə gətirir oxuyanları.
Onun yaratdığı “Şərh əl-İşarat”,
Mənə yol göstərir, deyir : “Yaz- yarat”.
Təbiət elminin yolçusuyam mən,
Çox şeylər öyrəndim dahi Tusidən.
Onun əsərinin mən qüdrətilə
Yazdığım elmi iş düşübdür dilə.
Tusi - qürur yerim, pərvərdigarım,
Onunla fəxr edir doğma diyarım.
Tusinin yazdığı “Risalə”ləri,
Bu gün də olubdur dillər əzbəri.
Dünya bəhrələnir bu əsərindən,
Oradan çox şeyi əxz elədim mən.
“Hikmətli dünyam”ı yazdım ürəkdən,
Bununla həmişə fəxr edəcəm mən...

## İMADƏDDİN NƏSİMİ

(Seyid Əli Seyid Məhəmməd oğlu İmadəddin Nəsimi)
(*1369, Şamaxı – 1417, Hələb)*



Günəştək parladı böyük Nəsimi,
Öyrəndim, sızladı qəlbimin simi.
Əli adı ilə gəldi cahana,
Şöhrət qazandırdı Azərbaycana.
Şamaxı torpağı yetirdi onu,
Hələbdə qurtardı ömrünün sonu.
Şeirləri düşdü dillərdən-dilə,
Dost oldu "Hürufi" Nəimi ilə.
Onu o, özünün ustadı sandı,
Hürufi oduna alışıb yandı.
Onun sağlığında qəsidələri,
Gözəl qəzəlləri, daha nələri.
Dillərdə dolaşdı, qəlblərdə yatdı,
Qəflət yuxusundan xalqı oyatdı.
Dövran hökm eylədi, zaman dəyişdi,
O da bu dövranın odunda bişdi.
Qoşuldu sidq ilə hürufilərə,
Yaydı o, bu dini uzaq ellərə.
Edam edilsə də ustad Nəimi,
Adında yaşatdı onu Nəsimi.
Onun edamında qəlbən and içdi,
Əqidə yolunda canından keçdi.





Bütün Qoca Şərqi dolaşdı şair,
Əfsanə yarandı şairə dair.
Yazdığı qəzəllər dillər əzbəri,
Ürək ovundurur əzəldən bəri.
Möcüzədir onun düşüncələri.
Tarixdə yaşayır söz inciləri.
Qəlbi ovsunlayır Nəsimi şeiri.
Ağlı heyran edir şeirinin sehri.
Getdiyi yerlərə o, nur çilədi,
Allahdan xalqına imdad dilədi.
O, edam edildi Mənsur Həllactək,
Öldü ölümünə qalib gələrək.
Dərisi soyuldu hökm ilə onun.-
Vətənin bu ölməz şair oğlunun.

***Səndə sığdı iki cahan,***
***Sən bu cahana sığmadın.***
***Qiymətini verdi zaman,***
***Tarixə yazıldı adın...***
Məğrur Nəsimini yetirən ölkə,
Yenə Nəsimilər yetirər bəlkə...

**Şah İsmayıl Xətai**
**(Şah İsmayıl Şeyx Heydər oğlu Səfəvi)**
***(17.07.1487, Ərdəbil- 23.05.1524, Ərdəbil)***



Qəlbim deyənləri qələm nəqş edir:
Dahilər dahisi şah Xətaidir,-
Özünü min oda, alova atdı,
Vətəndə ilk milli dövlət yaratdı.
Səfəvi dövləti- ad verdi ona,
Bu, baş tacı oldu Azərbaycana.
Ulu babasından qalan bir addı,
O, dövlət yaradıb murada çatdı.
Azəri dilini ali dil etdi,
Düşmən üzərinə mərdanə getdi.
Ucaltdı səfəvi təriqətini,
Aləmə car etdi həqiqətini.
Zəfərlər dalınca zəfərlər çaldı,
Şah İsmayıl kimi tarixdə qaldı.
Şah oğlu şah idi Xətai babam,
Onunla fəxr edir bütün el-obam.
Onun qarşısında çökdü neçə şah,
Qanmaza, nadana çəkdirdi min ah.
Döyüş meydanında hayqıranda o,
Göstərdi bir ərdir Çaldıranda o.
Ər oğlu ər idi Xətai babam,
Nər oğlu nər idi Xətai babam.
O, şeirə də çox, həvəs eylədi,





Qılıncı qələmlə əvəz eylədi.
Şeirin növlərində qələm sınadı.
Klassik şairtək yaşadı adı.
Mahir qələmilə yazdı, yaratdı,
Poeziyada o, zirvəyə çatdı.
Çaldı qələmini, dünya oyandı.
Onun hər beytindən ürəklər yandı.
Xətai yaratdı gözəl qəzəllər,
Ondan bəhrələnir türfə gözəllər.
Qəzəl - qəsidəsi dillər əzbəri,
Onlar məftun edir saf könülləri.
Onun “Dəhnamə”si ölməz bir əsər,
Donmuş könüllərin yolunu kəsər.
Xətai yaratmış gözəl “Divan”ı
Bu “Divan” dolaşır bütün dünyanı.
“Nəsihətnamə”si böyük məktəbdir,
Bütün nəsilləri tərbiyə edir.
Hümanist düşüncə, fəlsəfədir o,
Onu oxuyanlar görər nədir o.
Onun sənətinin işığı haqdır,
Xətai əbədi yaşayacaqdır...

Mən onu özümə bir örnək sandım,
Hər zaman, hər yerdə adını andım.
Həyat eşqim oldu qurub - yaratmaq
Xoş amal eşqilə zirvəyə çatmaq.

Mən həyat dərsimi aldım ustaddan,
Qorxub çəkinmədim alovdan, oddan.
Dar gündə xalqımın dadına çatdım,
Mən bu addımımı vaxtında atdım.
Qarabağ səmasın alanda bulud,
Göydən ələnəndə qurşun, alov, od.
Çətinə düşmüşdü mənim vətənim,
Coşdu damarımda al qanım mənim.
Xətainin ruhu güc verdi mənə,
Sevgini yaratdı qəlbdə vətənə.

Çəkdirdim Murovdan, Dəlidağdan yol,
Oxucum, bu yerdə sən də arif ol.
Murovdağ-Dəlidağ inadkar yolu,
Oldu Nicat yolu, Xilaskar yolu.
Bu yol xilas etdi yüz min insanı.
Onların ölümdən qurtuldu canı.
Əhdimə, eşqimə mən sadiq qaldım,
Könül rübabımı şeirimlə çaldım.
Əsərlər yazılıb mənim adıma,
Şeirimə, işimə, istedadıma.
Həqiqi qiyməti tarix verəcək,
Gələcək nəsillər bunu görəcək.
Özüm boylanıram şeirlərimdən,
Qoy yadigar qalsın xalqıma məndən...





## MƏHƏMMƏD FÜZULİ

(Məhəmməd Süleyman oğlu Füzuli)
*(1494, Kərbəla - 1556, Kərbəla)*



Bayat tayfasının dahi övladı,-
Ölməz Füzulidir bu türkün adı.
Doğuldu İraqda, - Kərbəlada o,
Sonra layiq oldu böyük ada o.
Yazdı bir- birindən gözəl əsərlər,-
Bizim bu həyatı onlar bəzərlər.
Hər bir əsərində məntiq, fəlsəfə,
Yazdığı hər sətir dəymiş hədəfə.
Füzuli sənətdə eşq Allahıdır,
Onun əsərləri könül ahıdır,
Füzuli ilhamı almış gözəldən,
Doya bilməmişdir şeir-qəzəldən.
O, sənət şanının balını çəkmiş,
Qəzəl bağçasında gül- çiçək əkmiş.
Ondan dərs alıbdır bəşər övladı,
Sənət dünyasında qalıbdır adı.
“Leyli və Məcnun”u fövqəl əsərdir,
Təpədən dırnağa eşqi vəsf edir.
Qazandı qəzəldə şərəfli bir ad,
Eşqi zirvələrə qaldırdı ustad.
Eşqin dəlisidir Məcnun əzəldən,
Doymadı sevdiyi Leyli gözəldən.

Füzuli yaratmış elə bir əsər,
Yoxdur ona bir tay, əvəz, müxtəsər.
Dövrü qamçıladı, tutdu atəşə,
Sevgini qaldırdı Aya, Günəşə.
Dolaşır dünyanı bu şah əsəri,
Olubdur hər yanda dillər əzbəri.
Məhəbbət şairi deyirlər ona,
Heykəllər qoyulmuş bu el oğluna.
"Söhbətül- Əsmar"ı qələmə almış,
Sənət dünyasında dağ tək ucalmış.
"Şikayətnamə"si dillər əzbəri.
Bu əsər mat qoyub çox əsrləri.
Paşaya şikayət eylədi bir vaxt,
Amma bu şairi etmədi xoşbəxt.
Bu günlə səsləşir onun kəlamı,
Püşvətlə alınır insan salamı.
Rüşvət olan yerdə ədalət olmaz,
Həqiqət orada qələbə çalmaz.
Rüşvət girdabına batıbdır dünya,
Qəflət yuxusunda yatıbdır dünya.
Füzuli vaxtında dedi sözünü,
İstədi ki, aça xalqın gözünü.
Nə etmək? Bu gün də belədir heyhat,-
Rüşvət çirkabında boğulur həyat.

Bu gidi dünyada elə yaşa sən.
Bəşər fayda görsün əməllərindən.
Füzuli yazmışdır "Səhhət və Mərəz",
Bu əsər qiymətdə ölçüyə gəlməz.





"Bəngü-Badə"sindən min hikmət duydum,
Onun hər sətrinin sehrinə uydum.
Böyük möcüzədir "Söhbətül-əsmar",
Onda bu həyatın ibrətləri var.
Burada meyvələr özünü öyür,
Biri o birini təhqirlə söyür.
Hərəsi özünü faydalı bilir,
Acı həqarətlə öyünür, gülür.
Mənəmlik onların hopmuş canına,
Çevrilmiş şairin həyacanına.
İnsan da bənzəyir bu meyvələrə.
Nəsihət edirəm mən nəvələrə...
Boğun içinizdə siz mənəmliyi,
Sevdirin çoxluğu, sevin cəmliyi...

Füzuli üç dildə "Divan" yaratmış,
Şair məqsədinə bu yolla çatmış.
"Divan"da fəlsəfi qəsidələri;
"Padişahi-mülk"ü dillər əzbəri.
"Mətləül- etiqad" yazdı nəsrlə,
Bu əsər yaşayar daim, əsrlə.
Adı dillərdədir " Ənisül- qəlb"in,
O, bir məlhəmidir ürəyin, qəlbin.
Şairdən yadigar "Yeddi cam" qalıb,
Oxucu qəlbini əlinə alıb.
Füzuli yaratmış tərkibbəndləri,
Mənalı, məzmunlu tərcibəndləri.
Müsəddəs, mürəbbe, rübailəri,
Gözəl qəzəlləri, daha nələri...

Onun qəzəlləri yolumda çıraq,
Təhlillər apardım hey oxuyaraq.
Qəzəl yazmaq idi, əzəldən dərdim,
Füzuli bağından mən onu dərdim.
Dərs alıb Füzuli qəzəllərindən,
Özüm də qəzəllər yaratmışam mən.
Qəzəl - sevənlərin qəlb naləsidir,
Sevən ürəklərdə eşqin səsidir.
Qəzəli sanmışam şeirin şahı,
Onlarda həkk olub qəlbimin ahı.
Qəzəllə eşqimi, məhəbbətimi,
Aləmə çatdırdım kövrək, səmimi.
Qəzəlsiz muğam yox, muğamsız qəzəl,
Alar ilhamını qəzəldən gözəl.
"Muğamlı dünyam"ı yazıb- yaratdım,
Qarşıma qoyduğum məqsədə çatdım.
Şöbə- guşələrin adı var orda,
İzahı verilir onların burda.
Muğam salnaməsi deyirlər buna,
Elmi məqalələr həsr olmuş ona.
Qəzəllə yazılıb burda çox muğam,
Oxusan, taparsan orda hər məqam.
Muğam karvanıdır bu əsər- gedir,
Bütün muğamları əhatə edir.
Muğamlar oxunur qəzəllərimdən,
Yadigar qalacaq xalqıma məndən...





**VİLYAM ŞEKSPİR**

*(26.04.1564, Stratford - 23.04.1616, Stratford)*



Aktyor, yazıçı, şair Şekspir,
Ədəbi aləmdə olmuş sanki pir.
Dram əsərləri sevdirmiş onu,
Onlarla bilirik kim olduğunu.
Ölməz əsərləri – " Maqbet", "Kral Lir",
Dörd yüz ildən çoxdur uzun yol gəlir.
Vilyam Şekspirin hər bir sətiri,
Həm böyük ümmandır, həm günəş ətri.
Onun "Otello"su sənət incisi,
"Hamlet"i qeyrətin mübariz səsi.
Saraylar içində qanlı bir həyat!
"Olumlar", "Ölümlər" çarpışır heyhat!
"Romeo- Culyetta"- sevgi məbədi,
Onların sevgisi ölməz, əbədi.
Mənə xatırlatdı Leyli-Məcnunu,
Eşq imiş göylərə qaldıran onu.
Şekspir, sənətin ölməz dahisi,
Sənət mehrabından gəlir xoş səsi.
Şekspir dünyanı gəzib-dolaşır,
Sənət aləmində zirvələr aşır.
Onun məktəbindən hamı dərs alır,
Sənət dünyasına yolunu salır.
Bəşər məftun olub bu böyük ada,
Adı bir bəzəkdir ülvi həyata.

Ölməz sənətkarın eşqi, ürəyi,
Sənət aləminin olub dirəyi.
Bu söz fatehinə səcdəyə gəldim,
Ömrün mənasını mən bunda bildim.
Oxuyub mən onun "Otello"sunu,
Sənət zirvəsində gördüm mən onu.
Ondan bəhrələnib "Sınaq" yaratdım,
Bununla ən böyük arzuma şatdım.

Arılar balını çəkir çiçəkdən,
Toplayır onları bir- bir ləçəkdən.
Sözün şirəsini həyatdan çəkdim,
Sənət bağçasında mən də gül əkdim.
Görüb bu mənanı dərindən duydum,
Bu böyük sənətin sehrinə uydum.
Səhnə əsərləri yaratmışam mən,
Qoy yadigar qalsın xalqıma məndən...





**MOLLA PƏNAH VAQİF**

*(Molla Pənah Vaqif Mehdi oğlu)*

*(1717, Qazax, Salahlı k. - 1797, Şuşa)*



Vaqif - qoşmamızın şah tacıdarı,
Sənət dünyasının ölməz vüqarı.
Yaratdı onlarla qoşma, gəraylı,
Bir ömür yaşadı haylı- haraylı.
Vaqif qoşmaları əzəldən bəri
Olub xalqımızın dillər əzbəri,
O, ilham almışdır min bir gözəldən,
Olmuşdur onlara vurğun əzəldən.
Qoşmayla vəsf etmiş o gözəlləri,
Büllur buxaqları, nazik əlləri.
Vaqif məsnəvisi başqa aləmdir,
Orada həm fikir, həm məna cəmdir.
Müxəmməs, mərsiyə, müstəzad yazmış,
Hər nəyi yazmışsa, o, azad yazmış.
Yaratdığı "Divan" itirilsə də,
Xalq onu yaşatdı ürəklərində.
O, xan sarayında baş vəzir olmuş,
Kamil vəzir kimi yaxşı ad almış.
Şərəflə daşımış bu vəzifəni,
Dolamış başına ölüm kəfəni.
Qələmi bir an da qoymamış yerə,
Şeiri qaldırmışdır ənginliklərə.
O, nələr görməmiş xan sarayında?..

Xalqın ərşə qalxan ahı-vayında.
“Görmədim” şeirində bunları yazmış,
Bəlkə də bununla qəbrini qazmış.
Yazdığı “Bax” adlı qəzəli onun.
Dilindən düşməyir vətən oğlunun.
Haqqı, ədaləti edərək peşə.
Dövranın eybini tutmuş atəşə.
Şirindən şirindir şeirinin dili.
Daim məftun edir milləti, eli.
Sanki bal süzülür hər misrasından,
Gələcək nəsillər dərs alar ondan,
Ona istedadı vermiş Yaradan,
Hanı Vaqif kimi yazıb- yaradan?
Vaqif şeirinə can deyə-deyə,
Onu Səməd Vurğun qaldırdı göyə.
Yazdı “Vaqif” kimi bir şah əsəri,
Oldu hər misrası dillər əzbəri.

Vaqif qoşmasından ilham almışam,
Şirin xəyallara, fikrə dalmışam.
Şeirin bu növünə meylimi saldım,
Qoşmalar yazmağı qərara aldım.
Vaqif qoşmasını bağımda axtar,
Orda dərdə dərman hər cür meyvə var.
Qoşmalar həsr etdim gözəlliyə mən,
Qoy yadigar qalsın xalqıma məndən...





**İVAN ANDREYEVİÇ KRILOV**

*(13. 02. 1768, Moskva - 21.11.1844, Peterburq)*



Sənət köhlənimi dördnala çapdım,
Təmsildə hikmətli bir dünya tapdım.
Ölməz yazarlardan dərsimi aldım,
Meylimi mənalı təmsilə saldım.
Təmsildə hər sözün öz eyhamı var,
Hər durlü kəlamın bir ehkamı var.
Onları tərpətsən, ordan od çıxar,
Saxta insanları, yandırıb - yaxar.
Hərə öz payını alar, götürər,
Təmsildə köpəklər ulduza hürər.
Sıçan qəbir qazar bir böyük filə,
Çaqqal qurd önündə tez gələr dilə.
Tülkü sorğu edər məğrur pələngdən,
Qarğalar dəm vurar göydə fələkdən.
Qarışqa torpağın altını oyar,
Zürafə gül üstə yatar, uyuyar.
Sərçələr dərs verər dağda qartala,
Damla dəniz olar birdən az qala.
İnsan şeytan kimi gözə görünməz,
Əfi ilan olar, düzdə sürünməz.
Təmsil təhlil edər bu sərt həyatı,
Təmsildə bilinər qatırın zatı.
Eşşəyin qulağı, atın şortamı,
Təmsildən payını götürər hamı.

Təmsil az söz ilə çox məna verir,
Tikanlı söz ilə sinələr dəlir.
Bədii sənətdə təmsil növü var,
Bundan bəhrələnər mahir sənətkar.
Həyat qiymətini təmsildə alır,
Dövran təbilini burada çalır.
Öyrəndim zamanın fəzilətini,
Dərk etdim təmsilin mahiyyətini.
Odur ki, meylimi təmsilə saldım,
İblisə təmsillə qələbə çaldım.
Dövrü qamcıladım təmsillərimlə,
Xalqa xeyir verdim əməllərimlə.
Nəzm ilə, nəsrlə yazdım onları,
Hədəfə götürdüm qansoranları.
Bu da hikmətlərdən yoğrulmuşdur, bil.
Dərk etsən, görərsən mənasız deyil.
Canlı təbiətin vurğunuyam mən,
Bunu dərk edərsən təmsillərimdən.
Təmsillər yazmağa saldım meylimi,
Sınadım təmsildə öz qələmimi.
Aldım qisasımı qansız fələkdən.
Mən də təmsilləri yazdım ürəkdən.
Orada min cürə dərin hikmət var,
Oxuyub dərk edən olar bəxtiyar.
Həyat yollarına təmsil nur salır,
İnsan oğlu bundan fərəh, güc alır.
Zirvədir Krılov təmsil janrında.





O, öz şöhrətini tapmışdır onda.
Moskva olmuşdur vətəni onun,
Yazıçı, təmsilçi İvan Krılovun.
Kəşməkəşli həyat yaşamışdır o,
“Dahi Vanya” adı daşımışdır o.
Müstəqil öyrənmiş ədəbiyyatı,
Xarici dilləri, riyaziyyatı.
Gənclik illərindən yazıb- yaratmış,
Özün “Qəhvədan”la sənətə atmış.
Bu komik opera qəlblər fəth etdi,
Krılov tutduğu yol ilə getdi.
Yazdı komediya- “Quduz ailə”,
Az zamanda düşdü o dildən- dilə.
“Yazıçı dəhlizdə”, ”Dəcəllər” yazdı,
Onlarla dövrana bir qəbir qazdı.
Oxucular sevdi bu jurnalisti,
Çıxdı qələmindən “Qaib” povesti.
“Trumf” faciəsi düşdü dillərə,
Yayıldı həm yaxın, uzaq ellərə.
Onun əsərləri gəzdi hər yanı,-
“Qızlara nəsihət”, “Moda dükanı”
Opera janrında qələm sınadı,
“İlya Muromets”in yaşadı adı.
Böyük şöhrət tapdı bu əsərləri,
Oldu öz dövrünün dillər əzbəri.
Yazdığı təmsillər bir atəş səsi,
Rus təmsilinin oldu zirvəsi.

Kitabları çıxdı az bir zamanda,-
Hücumlara məruz qaldığı anda.
Nankor qarşısında heç əyilmədi,
Alçaqlıq, yaltaqlıq əsla bilmədi.
Mərdlik nümunəsi vardı qanında,
Təmsil yuva qurdu onun canında.
Dövrü qamçıladı təmsillərilə,
Onlar Krılovu sevdirdi elə.
Çarın təqibindən əsla qorxmadı,
Əyilməz insantək yaşadı adı.
Qoymadı qələmi əlindən yerə,
Yazdıqları düşdü bütün dillərə.

Oxudum mən onun təmsillərini,
Dərdim bağçasından tər güllərini.
Təmsildə nə böyük hikmətlər varmış,
Təmsil yaradana Tanrım da yarmış.
Yazdım ki, oxucum ibrət götürsün.
O da nəsillərə bunu ötürsün.
Nəsihət, tövsiyə sözlərimi sən
Axtarsan taparsan təmsillərimdən,
Mən də ilham aldım öz ustadımdan,
“Təmsilli dünyam”ı yazdım o andan.
Yazıb təmsilləri yaratdım ki, mən,
Qalsın nəsillərə yadigar məndən...





**ABBASQULU AĞA BAKIXANOV**
(Bakıxanov Abbasqulu Mirzə Məhəmməd oğlu Qüdsi)
*(21.06. 1794, Xilə, Əmircan - 1847,*
*Məkkə, Vadiyi- Fatimə)*



Böyük sülalədir Bakıxanovlar,
Tarixdə onların özgə yeri var.
Xaıqına örnəkdir bu əziz nəsil,
Hörmətli oxucum, bunu sən də bil.
Bu nəslin layiqli övladı çoxdur,
Biri - Abbasqulu Bakıxanovdur.
Doğuldu Xilədə - o, Əmircanda,
Xan oğlu xan idi Azərbaycanda.
Təlimini almış üləmalardan,
Elmi mənimsəmiş hər gün, onlardan.
Çoxlu elmlərdən o, hali oldu,
Dünyanı dərk edib, o, yaşa doldu.
Şöhrəti bürüdü Azərbaycanı
Sonra da yayılıb tutdu hər yanı..
General Yermolov eşidib bunu,
Tiflisə çağırdı Abbasqulunu.
Onu öz yanında götürdü işə,
Diqqətlə yanaşdı ona həmişə.
Bütün etimadı doğrultdu özü,
Canişin yanında keçirdi sözü.
“Qüdsi” götürmüşdü təxəllüsünü,
Bununla deyirdi o, hər sözünü.

Ərəb, fars dilində yazdı şeirlər.
Onlar oxucuya çox şey deyirlər.
“Qanuni-Qüdsi”ni yazıb - yaratdı,
Özünü ustadtək meydana atdı.
Üç fəslə ayırdı bu əsərini,
“Hərflər”, “Kəlmələr”, “Cümlə” fəslini,
Əsərləri ona şöhrət gətirdi,
Müxtəlif məzmunlu mövzu yetirdi.
“Əsrarül- məlaküt”, “Eynül-mizan”ı,
Dünyaya tanıtdı Azərbaycanı.
Polşada yazdığı “Meraci- xəyal”,
Hər bir oxucuda yaradır sual.
“Firəng məclisi”nin ibrəti çoxdur,
Belə əsərlərin qiyməti yoxdur.
“Gülüstani-İrəm” - tarixi əsər,
Burada sözümü deyim müxtəsər:
Yurdun tarixinə o, verdi dəstək,-
İslamdan başlayıb “Gülüstan[1]”adək.
Minillik bir tarix verilib orda,
Əsər həsr olunub bu doğma yurda.
Ötən əsrləri o, ələyibdir,
Hər dövrə bir fəsil həsr eləyibdir.
Əsəri yazıbdır uzun müddətə,
Ərməğan edibdir bəşəriyyətə.
Mənalı təmsillər yaratdı şair,-
Tülküyə, qoyuna, ilbizə dair.

[1] 1813-cü ildə bağlanmış “Gülüstan” müqaviləsi nəzərdə tutulur.





“Təhzibül- əxlaq”i bəşərə töhfə.
Etik normalara yeni səhifə.
“Nəsihətnamə”si böyük məktəbdir,
İnsan övladını tərbiyə edir.
Oxuyub bunları, düşündüm dərin,
İsindim qoynunda düşüncələrin.
Sevdim millətimin böyük oğlunu,-
Məkkəni dolaşan ölməz ruhunu.
Mən onun ruhunu səcdəgah sandım,
Həmişə, hər yerdə adını andım.
Ondan da alaraq həyat dərsimi,
Xalqıma bəxş etdim mən öz irsimi.
Bir tarix yaratdım əməllərimdən.
“Tarixə qovuşan illərim”də mən.
Burda da çox tarix tapıb əksini,
Gələcək nəsillər alar dərsini.
Burda söz açılır Laçın qayadan,
Min illər olmamış onu oyadan.
Murovdağ, Dəlidağ yollarını mən,
Xalqı xilas üçün çəkdirdim qəlbən.
Yüz min əhalini xilas eylədim,
Xalqıma xilasın yolun söylədim.
Bunlar tarix oldu doğma yurduma,
Həm də kömək oldu məğrur orduma.

Sözün ümmanına yolumu saldım,
Hikmət, nəsihətlər qələmə aldım.
“Hikmətli dünyam”ı yaratdım ki, mən,
Qoy yadigar qalsın xalqıma məndən...

## ALEKSANDR SERGEYEVİÇ PUŞKİN

*(6 iyun 1799, Moskva - 10 fevral 1837, Peterburq)*



Rus xalqı bəşərə vermiş dahilər,
Onlar dünya üçün etməmiş nələr?..
Bunlar öz dövrünü qabaqlayıblar,
Həyatı müqəddəs varlıq sayıblar.
Gələcək nəsilə olublar mayak,
Tarixə, həm elmə durublar dayaq .
Onlardan biri də olubdur Puşkin,
Tarixdə əbədi qalıbdır Puşkin.
O idi xalqının söz hökmdarı,
Ölməz şeirləri dövləti, varı.
Böyük rus xalqının ölməz dühası,
Oldu söz mülkünüm heyrət dünyası?
Moskva şəhrində gəldi dünyaya,
Yer salam göndərdi Günəşə, Aya.
Dvoryan nəslində açdı gözünü,
Elə uşaqlıqdan dedi sözünü.
Puşkin qədim boyar nəslindən idi,
Ulu Hannibalın[2] nəticəsiydi.

---

2 ***Hannibal İbrahim (Avraam) Petroviç*** (1697-1781) - rus hərbi-mühəndisi, general - anşef (1759), efiop knyazı ailəsində doğulub, 7 yaşında türklər onu girov kimi İstambula aparıblar. 1706-cı ildə rus səfiri S.Raşizski onu Moskvaya gətirib və çara bağışlayıb. I Pyotr onu 11 il öz yanında kamerdiner və katib kimi saxlayıb. 1717-ci ildə hərbi – mühəndislik işini öyrənmək üçün onu Fransaya göndərib; 1723-cü ildə Rusiyaya qayıdıb, mühəndis işləyib, müəllimlik edib. 1762-ci ildə istefaya çıxıb. Hərbi – mühəndislik haqqında kitab yazıb (1762). Hannibal A.S. Puşkinin ulu babasıdır. ”Böyük Pyotrun ərəbi” povestində (eyni adlı bədii film də çəkilib). A.S.Puşkin Hannibalın obrazını əbədiləşdirib.





Çox gənc yaşlarından yazıb - yaratdı,
Özünü ədəbi aləmə atdı.
Həyatı, dünyanı düşündü erkən,
Dərk etdi bunları o, uşaq ikən.
Gəncikən o, azadfikirli oldu.
Bu amal ilə də o, yaşa doldu.
Dövrü qamçıladı şeirlərilə,
Olan haqsızlığı gətirdi dilə.
Gördülər məcraya sığmayan dildi,
Odur ki, Qafqaza sürgün edildi.
Çar boğmaq istədi onun səsini,
Puşkin şeirinin gül nəfəsini.
Qafqaz təbiəti ruh verdi ona,
Şimalın bu ölməz şair oğluna.
Qafqazda şairin coşdu ilhamı,
Onun şeirinə vuruldu hamı.
Burda da qələmi qoymadı yerə,
Coşqun ilham ilə bağlandı şeirə.
“Boris Qodunov”u başladı burda,
İlhamla o, yazdı olsa da harda.
Xalqlar bu əsərdən yararlandılar,
Əsəri ən yaxşı dram sandılar...
O, sakit durmadı, “yolunu azdı”,
Buradan “Sibirə məktub”u yazdı.
Puşkin Çaadayevlə dostluq eylədi,
Fikrini şəst ilə ona söylədi.
Sonralar yazışdı o, Çaadayevlə,
Yazdığı şeir də tez düşdü ələ.
Yaratdı “Yevgeni Onegin” kimi,

Gözəl "Poltava"nı, qəlbən, səmimi.
Coşdu damarında çağlayan qanı,
Yazdı "Tunc atlı"ni, o, "Anjela"nı.
Yeni tarix verdi o, "Don Juan"a,
Əsərin şöhrəti düşdü hər yana.
Yazdı sürət ilə "Qış axşamı"nı,
Sözlə damızdırdı həyat tamını.
Tarixə səs salan poemaları,
Sayılır Puşkinin dövləti, varı.
Roman, povestləri-dillər əzbəri,
Səs salıb dünyaya əzəldən bəri.
Yazdı " Daş qonaq"ı, "Dubrovski"ni,
"Xəsis zadəgan"ı, "Su pərisi"ni.
"Kapitan qızı"nı aldı qələmə,
Gur səsi yayıldı bütün aləmə.
Tarixi dramlar yazıb-yaratdı,
Müqəddəs arzuya beləcə çatdı.

Həyatın qəribə təzadları var,
Bundan baş açanlar olur bəxtiyar.
Puşkin də təzadlı həyat yaşadı,
Sürgündə, sarayda hallandı adı.
Dünən düşmən olan, bu gün oldu dost,
Saray əhli kimi, orda tutdu post.
Bu da düşmənlərin qəlbini yedi,
Namərdlər sözünü duellə dedi.
Dünya dahi kimi tanıdı onu,
Faciəli oldu ömrünün sonu.
Dahilər dünyadan köçdüyü zaman,





Tarix matəm tutur, don geyir haman.
Parladı ulduztək, məşələ döndü,
Çaxdı şimşək kimi, heyf, tez söndü.
Fələk öz hökmünü eylədi diqtə,
Dueldə ömrünə qoyuldu nöqtə.
Şeirin Günəşi köçdü dünyadan,
Ona necə qıydı Ulu Yaradan?..
Ağır itki oldu bəşəriyyətə,
Adını yazdırdı əbədiyyətə.
Onun ölümünə ellər ağladı,
Yazarlar başına qara bağladı.
Düşmənlər qızındı onun oduna,
Əsərlər yazıldı ölməz adına.
"Şərq poeması"nı yazdı Fətəli,
Bu dərdə güc ilə dözdü Fətəli...

Puşkin tərcümədə gəzir hər yanı,
O, fəth eyləyibdir bütün dünyanı.
Bütün bəşər ona beləcə dedi:
"O, rus şeirinin günəşi idi".
"Günəşi söndürmək - ən böyük günah",
Onu törədənlər çəkəcəkdir ah.
Oxuyub mən onun əsərlərini,
Anladım Puşkinin dərdi - sərini.
Yazdım poemalar, yazdım şeirlər,
Pyeslər, qəzəllər, ta nələr... nələr...

**MİRZƏ FƏTƏLİ AXUNDZADƏ**
(Mirzə Fətəli Məhəmmədtağı oğlu Axundzadə)
*(30.06.1812, Şəki (Nuxa) - 19.03.1878, Tiflis)*



O, qədim Nuxada gəldi dünyaya,
Az sonra köçdülər Təbriz - Xamnəyə.
Əziyyətli keçdi uşaq illəri,
Bu, narahat etdi doğma elləri.
Qayıtdı Nuxaya anası ilə,
Oxumaq fikrini gətirdi dilə.
Etiraz etmədi Nanə anası,
O, idi oğluna candan yanası.
Nanə əmisinə fikrini dedi,
Dul qadın olmağı qəlbini yedi.
Axund Ələsgərlə gəldi Gəncəyə,
Burada bir elmə o, olsun yiyə.
Dövrün tələbini nəzərə aldı,
Meylini ruhani elminə saldı.
Burda dərsin aldı Mirzə Şəfidən,
Məntiq, fəlsəfəni öyrəndi qəlbən.
Olmadı Gəncədə bir rahatlığı,
Vazehdən öyrəndi o, xəttatlığı.
Gənc ikən bir neçə dillər öyrəndi,
Yüksək mənsəb üçün işlətdi fəndi.
Buna nail oldu cavan Fətəli,
Ona arxa durdu Yaradan əli.





Ömrünü həsr etdi şeirə, sənətə,
Axırda o, gəldi bu qənaətə.
Tiflis Fətəlini aldı qoynuna,
Doğmalıq, məhəbbət göstərdi ona.
“Səbuhi” adıyla şeirlər yazdı,
Puşkin qatilinə bir qəbir qazdı.
Puşkinin ölümü təsir eylədi,
Ona bir poema həsr eylədi.
O, Şərqdə yaratdı ilk komediya,
Müsəlman Şərqinə bəxş etdi ziya.
Birnəfəsə yazdı altı əsəri,
Sənət dünyasında qaldı əsəri.
Bu ölməz əsərlər yaranan gündən,
İki əsrdir ki, düşmür səhnədən.
Onlar səhnəmizə daim nur saçır,
Sənət aləminə qapılar açır.
Onlar bir məktəbdir yetişən nəslə,
Baxır xalq onlara daim həvəslə.

Oxucum, özün də bir xəyala dal,
Bu şah əsərləri sən də yada sal.
Hər an at oynadır “Molla kimyagər”,
“Müsyö Jordan” kimi var gözəl əsər?
“Sərgüzəşti Vəziri-Xani Lənkəran”,
Bir də“ Hekayəti Xırs –Quldurbasan”.
Mərd Hacı Qaranın sərgüzəştləri,

Olmuş Qarabağda dillər əzbəri.
Mərdlər xəsis olmaz, bunu bildim mən,-
“Hakim vəkilinin hekayəti”ndən.
Mirzə Fətəlinin yaratdıqları
Əritdi qəlblərdə buz olmuş qarı.
Aldatdı “Aldanmış kəvakib”ləri.
O, məhşərə çəkdi alçaq tipləri.
“Tənqid risaləsi” ibrət öyrədir,
İnsanı yenidən tərbiyə edir.
Yazdı “...Məktublar”ı, dərs verdi bizə,
Onlar nur çilədi gözlərimizə.
“Əkinçi”dən bizə tam məlumdur o,
“Vəkili-Millləti-Naməlum”dur o.
Tiflisdə yetişdi ömrünün sonu,
Millətim heç zaman unutmaz onu...

Ürəklə oxudum onun irsini,
Mən ondan almışam səhnə dərsimi.
Səhnə yaratmağı öyrəndim ondan,
Mirzə Fətəliyə bağlandım candan.
Mən də hamı kimi sevirəm onu,
Yurdumun bu ölməz, dahi oğlunu.
Səhnə əsərləri yaratdım ki, mən,
Xalqıma yadigar qoy qalsın məndən...





**SEYİD ƏZİM ŞİRVANİ**
(Seyid Məhəmməd oğlu Şirvan)
*(09.07.1835, Şamaxı - 01.06.1888, Şamaxı)*



İsti yay günündə, dağlar qoynunda,-
Şamaxı alışıb yanırdı onda.
Seyid Məhəmmədin ailəsində,
Molla Hüseynin dar hücrəsində.
Bir oğul gözünü dünyaya açdı,
Günəştək aləmə nurunu saçdı.
Uşağın adını Əzim qoydular,
Sanki, təbiətdə duruldu sular.
Babası çox sevdi öz nəvəsini.
Aldı babasından o, ilk dərsini.
İstedadı vardı yaranışından,
Şeirlər yazırdı on üç yaşından.
O, təhsil dalınca İraqa getdi,
Bağdadı, Nəcəfi ziyarət etdi.
Dünyəvi elmlər öyrəndi orda,
O, hörmət qazandı oldusa harda.
Gəldi Şamaxıya, bir məktəb açdı,
Xalqa elm öyrətdi, gözünü açdı.
Çoxlu istedadlı gənclər yetirdi,
Onun məktəbini çoxu bitirdi.
Böyük Soltan Məcid oxumuş orda,
Ələkbər Sabir də dərs almış burda...
Böyük irsi vardır Seyid Əzimin,-
Qəzəllər, qitələr yaradıb min-min.
Füzuliyə yazmış neçə nəzirə,
Onu bənzətmişdir müqəddəs pirə.

Füzulitək könül verdi qəzələ,
Qəzəl bayrağını o, aldı ələ.
Dəyərli, mənalı qəzəl yaratdı,
Qarşıya qoyduğu məqsədə çatdı.
Dildə əzbər olan satiraları,
Dolaşdı, dolandı el-obaları.
Dövrün nöqsanını qələmə aldı,
"Əkinçi" tərəfə meylini saldı.
Orda satiralar çap elətdirdi,
Zülmü, istibdadı tənqid etdirdi.
Qəzetin şöhrəti qalxdı göylərə,
Sevdirdi qəzeti doğma ellərə.
"Köpəyə ehsan"ı, " Məkri- zənan"ı,
"Elmsiz alim"i, " Dəli şeytan"ı
Yazıb insanların açdı gözünü,
Satira yoluyla dedi sözünü.
"Alim oğlu ilə avam ata"sı,
Bəlkə satiranın odur atası?..
Yazdı rübailər, müxəmməslər o,
Tərkibənd, müstəzad, müsəddəslər o.
Zəngin irs qoymuşdur Şirvani bizə,
Qələmi nur vermiş gözlərimizə.
Seyid Əzimdən də dərsimi aldım,
Tərcübənd, tərkibbənd qələmə aldım.
Onun qəzəlləri oldu amalım,
Oxudum onları, artdı kamalım.
Özüm də qələmi alaraq ələ,
Meylimi, könlümü saldım qəzələ.
"Muğamlı dünyam"ı yaratdım ki, mən,
Xalqıma yadigar qoy qalsın məndən....





**MİRZƏ ƏLƏKBƏR SABİR**

*(Ələkbər Zeynalabdin oğlu Tahirzadə)*
*(30. 05.1862, Şamaxı- 12 .07.1911, Şamaxı)*



Sabir şeirimizdə bir kəhkəşandı,
O da Günəş kimi parladı, yandı.
Onun şeirləri xalqıma namə,
Yazıb - yaratdığı o "Hophopnamə"
Sənət dünyamıza bir mehrab oldu,
Ölməz şeirləri inqilab oldu.
Bu haqsız dünyaya lağ etdi Sabir,
Dərdini sabuntək dağ etdi Sabir.
Şeirin çox növündə qələm sınadı,
Tarixdə hər zaman qalacaq adı.
Onun qələmilə zaman laxladı,
Dövranı hədəfə alıb oxladı.
Güclü satiralar yazıb-yaratdı,
Qəflət yuxusundan xalqı oyatdı.
Pulsuz əməkçini qaldırdı göyə,
Dinsiz varlıları o, söyə-söyə.
Tənqid atəşinə tutdu onları:
İnsana bənzəyən o "insanları".
Varlı hampaların "ağlını yedi",
Sözünü onlara ikrahla dedi.
"Molla Nəsrəddin"də dedi sözünü,
Min bir təhlükəyə atdı özünü.

Zalım ağaları hədəfə aldı,
Yaltaq ruhanini yumorla çaldı.
Əməkçi xalqının bu sənətkarı
Tutdu satiraya qansoranları.
Qorxmadı bircə an ölümdən, qandan,
Ağır işgəncədən, zülmət zindandan.
Dedi öz sözünü şəst ilə üzə.
Hədələr, təhqirlər çıxsa da dizə.
O, əzəl pedaqoq, müəllim idi,
Sözünü həm qələm, həm dərslə dedi.
Milləti qeyrətə çağırdı Sabir.
Qəlbinin hökmülə bağırdı Sabir.
Həmişə sözünün üstündə durdu,
Satqın ziyalıya zərbələr vurdu.
Millətçün canını o, fəda etdi,
Zülmün üzərinə nifrətlə getdi.
Sabir qamçıladı zəmanəsini,
Zülmə sipər etdi öz sinəsini.
Azəri xalqının gur səsidir o,
Satira şeirinin zirvəsidir o.
O zirvə Sabirə məxsusdur hələ,
Şöhrəti dolaşır ellərdən- elə.
Dərs alıb Sabirin satirasından,
Satira yazmağı öyrəndim ondan!
Şeirimdə yer tutur satira hərdən.
Qoy yadigar qalsın xalqıma məndən...





**HÜSEYN CAVİD**
(Hüseyn Abdulla oğlu Rasizadə)
*(24 oktyabr 1882-ci il, Naxçıvan MR, Kəngərli rayonu, Şahtaxtı kəndi - 5 dekabr 1941-ci il, Rusiya Federasiyası, İrkutsk vilayəti, Tayşet rayonu, Şevçenko kəndi)*



***"Ölüm var ki, həyat qədər dəyərli,***
***Həyat var ki, ölümdən də zəhərli".***
*Hüseyn Cavid*
***Dəyərli ölü var - diridən diri,***
***Dəyərsiz diri var - ölünün biri.***
*İnqilab Nadirli*

Möcüzələr yurdu olan Naxçıvan,
Dahilər yetirmiş o, hər bir zaman.
Şöhrəti bürümüş bütün aləmi,
Dünyaya göz açmış burda Əcəmi.
Naxçıvan - yurdudur Atabəylərin,
Cahan Pəhləvantək igid ərlərin.
Orda at oynatmış Qızıl Arslanlar,
Tarixdə onların özgə yeri var.
Burda Heyran xanım[3] demiş sözünü,
Cəlil[4], Məmməd Səid[5] açmış gözünü.

---

[3] **Heyran xanım**- klassik Azərbaycan şairi;
[4] **Cəlil**- yazıçı, dramaturq, publisist Cəlil Məmmədquluzadə;
[5] **Məmməd Səid**- yazıçı Məmməd Səid Ordubadi;

Bəhruz[6] fırçasıyla yaratmış lövhə,
Onları bəşərə eyləmiş töhfə.
Bununla sənətin çatmış fövqünə,
Bir sığal çəkmişdir xalqın zövqünə.
Çoxlu generallar yetişmiş burda,
Onlar şöhrət olmuş bu doğma yurda.
Cəmşidin şöhrəti ellər dolaşır,
Doğma vətənimin hüdudun aşır.
Nəğmə həsr olunmuş Neftçi Qurbana,
Zəhməti abidə qoymuşdur ona.
Alimləri ilə fəxr edir hər an,
Yusifi[7], Eldarı[8] verən Naxçıvan.
Tarixi şəxslər vermiş bu diyar,
Burda doğulanlar olmuş bəxtiyar.
Ulu Öndərimiz göz açmış burda,
Şöhrət gətirmişdir bu doğma yurda...

Oxucum, bu yerdə deyim, sən də bil,
Onları saymaqla qurtaran deyil.
Dahi Cavidi də bu yurd yetirmiş,
Sənət dünyasına düha gətirmiş.
Şahtaxtı kəndində gəldi dünyaya,
Onu bənzətdilər Günəşə, Aya.
Molla məktəbində oxumuş öncə,
İslamın təsiri olmuş bu gəncə.

---

[6] **Bəhruz**- Bəhruz Kəngərli (rəssam);
[7] **Yusif**- Yusif Məmmədəliyev (akademik);
[8] **Eldar**- Eldar Salayev (akademik);





Təhsil arxasınca getmiş Təbrizə,
Sarılmış qələmə, vurulmuş sözə.
Burada mədrəsə təhsili almış,
Yolunu İstambul şəhrinə salmış.
Ali təhsilini almış burada,
İstedadı çatmış tezliklə dada.
Yazmış bir-birindən gözəl şeirlər,
Ona qiymət vermiş əyilməz ərlər.

Gəlmiş Naxçıvana müəllim kimi,
Gərilmiş qəlbinin çağlayan simi.
Böyümüş, yaratmış, o, dolmuş yaşa,
Şeirilə müəllim yaşamış qoşa.
Bir müddət Gəncədə işləmiş müəllim,
Ürək yanğısıyla o, vermiş təlim.
Taleyin hökmilə getmiş Tiflisə,
Qəlbiylə o, beyət etmiş Tiflisə.
Nəhayət, oradan gəlmiş Bakıya,
Qəlbinin sevinci dönmüş bir çaya.
Ürəkdən bağlanmış bu doğma yurda,
Bir pedaqoq kimi sevilmiş burda.
O, yazıb-yaratmış ömrün hər anı,
İlk mənzum faciə-“Şeyx Sənan”ı.
Onun ideyası ümumbəşəri,
Cavidi sevdirdi bu ilk əsəri.
“Maral” faciəsi düşdü dillərə,
Cavidi tanıtdı bütün ellərə.

Həyat məktəbidir "Kor Neyzən", "Azər",
Asan əzbərlənər, dillərdə gəzər.
"Telli saz" dramı ayrı dünyadır,
Oxuyub görərsən həyat röyadır.
Yazmış "İblis" kimi böyük bir əsər,
Bütün dövrlərə eyləyir əsər.
Dövrü, haqsızlığı o, qamçılamış,
Bununla tarixə adı yazılmış.
İblisin dililə demiş sözünü,
Zərbələr altında qoymuş özünü.
Yaratmış şeytanın əlifbasını,
Göstərmiş İblisin iç simasını.
Tarixi pyeslər yaratmış burda,
Olmuş tarixləri gətirmiş yurda.
"Peyğəmbər" dramı bir salnamədir,
Onu öz məzmunu qiymətli edir.
"Uçurum", "Knyaz"ı almış qələmə,
Qəlblərdə son qoymuş müdhiş ələmə.
Vəsf etmiş şeirlə Əmir Teymuru,
Yazmış həvəs ilə "Topal Teymur"u.
Yazmış "Səyavuş"u, yazmış "Xəyyam"ı.
Onlardan ibrətlər, dərs alır hamı.
Onun yaratdığı poemaları,
Olmuşdur Hüseynin dövləti, varı.
O, "Cavid" sözünü ləqəb götürmüş,
Bu "ölməz" mənanı şeirə gətirmiş.
Bilirdi sınsa da qolu, qanadı,
Əbədi qalacaq tarixdə adı.





"Ellər atası"nı o, vəsf etməmiş,
Odur ki, irəli əsla getməmiş.
Milləti vəsf etdi nurlu kamalı,
Türkçülük olmuşdur onun amalı.
Cavid yadigarı Ərtoğrul idi,
Əfsus tez həyata əlvida dedi.
Onun bəstələri dillər əzbəri,
İllərdir dolaşıb gəzir elləri.
Xəstəlik üstünə qanadın gərdi,
Cavidə dərd oldu Ərtoğrul dərdi...

Casuslar gəzirdi həndəvərində,
Qulağı var imiş demə yerin də.
Saxta ittihamlar oxundu ona,-
Vətənin bu məğrur şair oğluna.
Uzaq Maqadana sürgün edildi.
Beləcə şaxtalı Sibirə gəldi.
Orda da rast gəldi məşəqqətlərə,
Yenə sadiq qaldı həqiqətlərə.
Əzab, işgəncələr əymədi onu,
Odlar diyarının məğrur oğlunu.
Düzgün əqidəsi sevdirdi onu,
Sən demə çatırmış ömrünün sonu.
Tayşetdə Cavidə məzar qazıldı,
Onun taleyi də belə yazıldı.
Aldı öz qoynuna Şevçenko kəndi,
Ruhu seyr eylədi bərəni, bəndi.
Vətəni saxladı onun yasını,
Ürəklər geyindi qəm libasını.

Qəlbim vəcdə gəldi soruşdu məndən,
Niyə ayrı düşdü Cavid vətəndən?..
Ayrıca hökmü var ötən hər anın,
Ey məğrur şairim, bu imiş sonun?..
“Nə idi Cavidin, nəydi günahı?..”
Ərşə bülənd oldu qəlbimin ahı?..
Bir xoş gün görmədi həyatda Cavid,
Zülmə, istibdada o, oldu şahid.
Bütün ömrü boyu xalq dərdi çəkdi,
Qəlbində millətin dərdini əkdi.

Ötdü yarım əsr həmin o andan,
Nəşi gətirməkçün Naxçıvanından
Bir heyət yol aldı Sibirə sarı,
Gəldi doğma yurda Şair məzarı.
Cavid məqbərəsi tikildi burda,
Ziyarətgah oldu bu doğma yurda.
Oğlu Ərtoğrulla burda qoşadır,
Tarix ruhlarını qoşa yaşadır.
Ailə məqbərəsi deyərdim ona,-
Yanında yer verdi qızı Turana.

Cavid ölməyibdir, o, bizimlədir,
Bizimlə işıqlı sabaha gedir.
O, şöhrət gətirmiş Azərbaycana,
Qəlbimdə abidə qoymuşam ona.
Oxudum Cavidi, xəyala daldım,
Mənzum dramları qələmə aldım.





**ÜZEYİR HACIBƏYLİ**

*(Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli)*
*(18.09.1885, Ağcabədi - 23.11.1948, Bakı)*



Üzeyir haqqında fikrim budur,
O, Azərbaycanın dahi oğludur.
Qədim Qarabağda doğulan dahi,
Mat qoyub dünyanı, inan, vallahi.
Mənim eloğlumdur bu ər sənətkar,
Onun dünya böyda adı, sanı var.
Özünə o, neçə ləqəb götürmüş,
Onları sənətə, sözə gətirmiş.
Gah “ Qatilov” olmuş, gah da “Filankəs”,
Gah “ Bızbıza” olmuş, gah da “Behmənkəs”,
Gah “Çoban” olub o, gah da “ Tısbağa”.
Gah “Cin”, “Əqrəb”, gah da “Anaş Qurbağa”.
Hansı ləqəbindən deyək, danışaq?
Gah “Lal Uşaq olub, gah “Bala Uşaq”,
Gah “Beş”, “Gendən baxan”, gah “Ordan- Burdan”
Gah “U”, gah “Yalançı”, gah “ Oyan, bu yan”.
Bir deyil, beş deyil, təxəllüsləri,
Tənqid etmiş daim namərd kəsləri.
Yoğrulmuşdur onun mayası Haqdan,
Ayrı düşməmişdir bir an da xalqdan.
Qoridə almışdır təhsilini o,
Vermiş xalqa beyin məhsulunu o.

Nələr etməmişdir bu ər oğlu ər?
Yoxdur əsla ona bir tay, bərabər.
Hələ gəncliyimdən sevmişəm onu,
Düşünüb bilmişəm kim olduğunu.

Deyim qəlb sözümü, qoy bilsin hamı,
Muğam üstə çalmış anam laylamı.
Göz açdım dünyaya muğam ilə mən,
Böyüdüm, muğamı duydum dərindən.
Onu dərk etdikcə düşdüm sehrinə,
Bildim həyat nədir, ovsun, sehr nə.
Gördüm muğam ilə nəfəs alır el,
Gəlir ehtizaza qəlbimdəki tel.
Hopmuş millətimin qanına muğam,
Ruhuna, qəlbinə, canına muğam...

Bir gün Qarabağdan Bakıya gəldim,
Bu gözəl şəhəri möcüzə bildim.
Baxdım operada "Leyli-Məcnun"a,
Bütün varlığımla vuruldum ona.
Bu əsər huşumu başımdan aldı,
Muğam dünyasına yolumu saldı.
Baş vurdum əlçatmaz o ənginliyə,
Muğam dünyasında bu zənginliyə.
Aldı ağuşuna bu əsər məni.
Unuda bilmirəm mən o səhnəni.





Gördüm Üzeyirin böyüklüyünü,
Qaldı hafizəmdə Məcnunun ünü.
Bir daha dərk etdim muğamat nədir?
O incəsənətdə bir əfsanədir.
Mən bir qürur hissi keçirdiyim dəm,-
Ürək dilə gəlib dedi yemə qəm,
Eloğlun yaradıb bu şah əsəri,
Yerindən oynadır ağıllı səri.
Dahi Füzuliyə meylini salıb,
O, "Leyli- Məcnun"u qələmə alıb.
Orta əsrlərə bir səhnə qurdu,
Üzeyir əsərə möhrünü vurdu.
Aradan keçsə də çox illər belə,
Gəzir bu əsəri dillərdən-dilə.
İlhamını alıb "Leyli- Məcnun"dan,
O, "Şeyx Sənan"a verdiribdir can.
Yaratdı "Şah Abbas və Xurşudbanı",-
"Rüstəm və Zöhrab"ı, " Harun-Leyla"nı.
Yazdı məhəbbətlə "Əsli-Kərəm"i,
Yandırdı muğamla Aşıq Kərəmi.
Üz tutdu "Koroğlu" dastanına o,
Daş atdı zülmkar bostanına o.
"Üvertura" ilə başlayır əsər,-
Zülmün, zülmkarın yolunu kəsər.

Dinlədikcə coşur damarlarda qan,
Hay salır, hayqırır, eyləyir üsyan.
“Üvertura” ilə gedir döyüşə,-
İgidlər zalımı çəkirlər şişə.
Döyüş meydanıdır əsərdə “Cəngi”,
Onunla əzilir düşmənin əngi.
Köklənsə “Cəngi”yə əgər ki, millət,
Ona yaxın düşməz heç zaman zillət.
“Koroğlu” - xalqımın zəfər marşıdır,
Üzeyir yurduna səfər marşıdır.
Onun yaratdığı komediyalar,
Dolaşır dünyanı diyarbadiyar.
Dünya səhnəsini lərzəyə salan,-
“Ər və arvad” ilə “Arşın mal alan”,
“Məşədi-İbad”tək ölməz bir əsər,
Zirvədə dayanır şəksiz, müxtəsər.
Üzeyir yaratdı ölməz romanslar,
Tarixdə qalacaq daima onlar.
Yaratdı o, “Sənsiz”, “Sevgili canan”,
Nizami ruhuna verdi yeni can.
O, himnini, yazmış Azərbaycanın,
Odur bu dünyada şöhrətim, şanım.
Üzeyir - pedaqoq, alim, bəstəkar,
Hər yerdə şöhrəti, ölməz adı var,
Publisist, dramaturq, peşəkardır o,
Millidir, ustaddır, sənətkardır o.





Mən necə ad verim, bilmirəm ona.
Xalqımın bəstəkar, alim oğluna.
Dahilər dahisi deyirəm ona,
O, bir şan-şöhrətdir Azərbaycana!
Üzeyir sənəti güc verdi mənə,
Onuntək bağlandım mən də vətənə.
Ondan ilham alıb yazıb - yaratdım,
“Sınaq”ı yazaraq arzuma çatdım.
O da bir məhəbbət dastanıdır, bil,
Üzeyir ruhundan uzaqda deyil.
Böyük Üzeyirin təsiri ilə,
“Muğamlı dünyam”ı gətirdim dilə.
Yazıb-yaratdım ki, bu əsəri mən,-
Xalqıma yadigar qoy qalsın məndən...

**ƏLİAĞA VAHİD**
(Əliağa Məmmədqulu oğlu İsgəndərov)
*(18.02.1894, Bakı - 01. 10.1965, Bakı)*



Ey Vahid, yurdumun vahid oğlusan,
Dünənsən, bugünsən, daim ulusan.
Böyük Füzulinin yadigarısan,
Qəzəl dünyasının iftixarısan.
Adınla fəxr edir Masazır əhli,
Qəzəl aləminə oldun gərəkli.
Sən Əlağa kimi gəldin dünyaya,
Böyük Vahid kimi yüksəldin Aya.
Sənət dünyasında yazıb-yaratdın,
Qarşına qoyduğun məqsədə çatdın.
Şöhrətin dolandı eli, obanı,
Tanıtdın hər yerdə Azərbaycanı.
Kasıb ailədə doğulsan da sən,
Ehtiyac içində boğulsan da sən,
Bir an əyilmədin namərd- nakəsə,
Nifrəti bildirdin onlara kəsə.
Tamahsız yaşamaq amalın oldu,
“Tamah nəticəsi” kamalın oldu.
Səni ilk kitabın tanıtdı elə.
Şöhrətin dolaşdı dillərdən-dilə.
Dedin öz sözünü “Kupletlər”lə sən.
Bundan qürur duydu anamız vətən.
Yazdın “Mollaxana”- elə bir əsər,-





Oxuyan hər kəsə eylədi əsər.
“Döyüş qəzəlləri”n - döyüşən silah,
Düşmənə meydanda çəkdirdi min ah.
Sənin qəzəllərin düşdü dillərə,
Hərarət gətirdi saf könüllərə.
Qəzəlsiz muğam yox, muğamsız qəzəl,
Sənin qəzəlindən nur alır gözəl.
Səni öz qoynuna aldı Xiyaban,
Əbədi səninlə qaldı Xiyaban...

Bir an fikirləşib xəyala daldım,
Muğam dünyasına yolumu saldım.
Vahid qəzəlləri muğamlardadır,
Harda muğam varsa o da ordadır.
Qəzəl yaratmağa sərf etdi əmək,
Nə qədər muğam var, Vahid var demək.
Düşündüm, düşüncə məni apardı,-
Vahidsiz muğamat necə olardı?..
Vahid qəzəlləri hər bir “Məqam”da,
Oxunur, yaşayır hər bir muğamda.
Sehrli aləmdir Vahid qəzəli,
Vəsf edir rəssamtək türfə gözəli.
“Oxu məni”- deyir hər xanəndəyə,
“Məni çatdır”-deyir hər bir bəndəyə.

Muğam beşiyidir yurdum Qarabağ,
Muğamla gül açır orda çəmən, bağ.

Muğamla çalıbdır anam laylamı,
Mən ondan almışam coşğun ilhamı.
O, mənim damarda axan qanımdır,
Yerimdir, göyümdür, asimanımdır.
Muğamsız ömrümü mən puç sanıram,
Muğamın odunda daim yanıram.
Vahid qəzəlindən dərsimi aldım,
"Muğamlı dünyam"a yolumu saldım.
Ölməz, qəzəlləri yaratdım ki, mən,
Xalqıma yadigar qoy qalsın məndən...





**CƏFƏR CABBARLI**
(Cəfər Qafar oğlu Cabbarlı)
*(20. 03. 1899, Xızı – 31.12.1934, Bakı)*



Oxudum Cəfəri, gəldim heyrətə,
Baş əydim ondakı məğrur qeyrətə.
Odur səhnəmizin söz xiridarı,
Sənəti millətin mənəvi varı.
Oddan yoğrulubdur mənim Cəfərim,
Odlar yurdumuzda sənət zəfərim.
Yaratdı solmayan "Solğun çiçəklər",
Bu əsər fəth etdi milyon ürəklər.
Onun hər əsəri solmaz bir çiçək,
Əsrlər ötdükcə ətri gələcək.
"Vəfalı Səriyyə..." vəfa bağladı,
Xəbis ürəkləri söküb dağladı.
"Sevil" qəh-qəh çəkdi, Balaş ağladı,
"Aydın" dərya kimi coşdu, çağladı.
Həm "Aydın", həm " Bakı müharibəsi",
Oldular Cəfərin tam qələbəsi.
Yazdı " Nəsrəddin şah", " Ədirnə fəthi",
Yazdığı hər şeyə baxmadı səthi.
Qoydu məqsədini ortaya qəti,-
Ağır istibdadı, mütləqiyyəti.
Tarixi əsərlər yaradan Cəfər,
Etdi keşmişlərə uğurlu səfər

"Od gəlini" yazdı Odlar yurduna,
Zərbələr vurdular xainlər ona.
Başı min bəlalar çəkdi Cəfərin,
Qaldı girdabında düşüncələrin.
Ali bir hökm var onun səsində,
Həqiqət yaşayır gur nəfəsində.
Eşq olsun Cəfəri doğan anaya!
O, ana bənzəyir Günəşə, Aya.
Əbədi yaşatdı öz "Ana"sını,-
Günəşə bənzəyən qəlb dünyasını.
Həm "Oqtay Eloğlu", həm "Qız qalası",
Oldu hər bir kəsin doğma balası.
Yazdı "Almaz", "Dönüş", yazdı o, "Yaşar",
Yazdıqları oldu əbədiyaşar.

Heyif, böyük ustad çox az yaşadı,
İndi dahi kimi çəkilir adı.
Cəfərdən nəsillər dərs alacaqdır,
Qəlblərdə heykəli yurd salacaqdır.
Onun pyesləri ibrət dərsidir,
Yanan hər ürəyin nalə səsidir.
Gözəl hekayələr yaratmış Cəfər,
Onlara nümunə "Dilarə", " Dilbər".
"Mənsur və Sitarə", "Aslan və Fərhad",
Cəfər Cabbarlıya qazandırdı ad.
Yazdığı əsərlər şah əsərlərdir,
Hər biri həyatı saf- çürük edir.





Əlçatmaz zirvədir- Cəfər zirvəsi,
Oradan əbədi gələcək səsi.
Mənzum dramları həyatım bildim,
Yazaraq həyatda sevindim, güldüm.

Yazdım üç dramı birnəfəsə mən,
Üçü də yadigar qalacaq məndən.
Süzüldü başımdan "Sınaq", "Çənlibel",
Oxuyub bunları alqışladı el.
Ölkəm, qalmış idi yol ayrıcında,
Bunlar əks olunub "Yol ayrıcında".
Səhnədən obrazlar salama gəldi,
Məni özlərinə bir örnək bildi.
Qəlbim hökm eləyir, yenə yaz deyir,
Qələmim başını vərəqə əyir.
Səhnə əsərləri yaratdım ki, mən,
Qoy yadigar qalsın xalqıma məndən...

**SÜLEYMAN RÜSTƏM**
(Süleyman Əlabbas oğlu Rüstəmzadə)
*(12 mart 1906, Bakı, Novxanı - 10 iyun 1989, Bakı)*



Bir bahar günündə dünyaya gəlmiş,
Novxanı camaatı xoş müjdə bilmiş.
Atası Əlabbas dəmirçi olmuş,
Sevincdən atanın gözləri dolmuş.
Böyüdü Süleyman aylar ötdükcə,
İllər bir- birini əvəz etdikcə.
Uşaqkən öyrəşdi çətin əməyə,
Tez-tez atasına yetdi köməyə.
Gənc ikən təhsilə maraq göstərdi,
Ən böyük arzusu- oxumaq dərdi.
Oxuyub məktəbi o, başa vurdu.
Elmin keşiyində gənc ikən durdu.
Üz tutdu sənaye texnikumuna,
Bu məktəb yaxşıca dərs verdi ona.
Darülmüəllimə gəldi sonradan,
Burda kömək oldu ona Yaradan.
Universitetə qəbul olundu,
Tələbəlik quşu başına qondu.
Seçildi burada başqalarından,
Dövlət xoş gələcək gözlədi ondan.
Sonra göndərildi o, Moskvaya,
Orda da oxudu, salındı saya.





Burada öyrəndi ədəbiyyatı,
Əsərlər yaratdı, sevdi həyatı.
Yazdı bir- birindən gözəl qəzəllər,
Orda vəsf olundu türfə gözəllər.
Oxucular sevir onları qəlbən,-
Çünki ibrət alır əsərlərindən.
Yazdı dramalar, komediyalar,
Bu əsərlər daim tarixdə qalar.
Yazdı ”Cimnaz xanım yuxudadır”ı.
“Unudulmuş gənc”i –o bahadırı.
“Ələmdən- nəşəyə”- ilk kitabıdır,
Hələ gəncliyindən onu tanıdır.
Yazdı “Addımlar”ı, yazdı “Atəş”i,
Qəlbinin gözüylə gördü Günəşi.
“Təbriz şeirləri”, “Səs”i sevildi,
Zaman da şairin üzünə güldü.
Özünə yar bildi o, zəmanəni,
Tərənnüm eylədi doğma vətəni.
Yazdı döyüşlərdən, müharibədən,
Düşmənə vurulan ağır zərbədən.
“Ana və poçtalyon”, “Partizan Əli”,
Hər yerdə sevilən “İki sahil”i,
“And” ,“Qolsuz qəhrəman”,” Addımlar”ını,
Şairin bu ölməz könül varını.
Daim yaşadacaq qəlbində illər,
Onu oxuyacaq gələn nəsillər.
“Cənub” həsrətilə yazdı, yaratdı,

“Araz” dərdlərini ortaya atdı.
Onun şeirləri dillər əzbəri,
Hər yerdə məşhurdur əzəldən bəri.
Yazdı “Komsomol”u, “Yaxşı yoldaş”ı,
“Bakı misraları” - bir üzük qaşı.
Nəzmlə, nəsrlə pyeslər yazdı,
Onun əsərləri sədəfli sazdı.
“Yanğın”ı, “Durna”nı, “Qaçaq Nəbi”ni,
Yazaraq sevdirdi o, hər birini.
O, dövrün nəbzini tutdu hər zaman,
Əzab, işgəncədən qoparsın aman.
Dövrana köklındi onun qələmi,
Yaratmaq eşqiydi onun aləmi.
Onun yaratdığı cəvahir, dürdü,
“Ağılsız köpəktək ulduza hürdü”.
Yarım əsrdən çox deputat oldu,
Şairin beyninə siyasət doldu.
Başçılıq eylədi Ali Sovetə,
Halal xidmət etdi xalqa, millətə.
“Əmək Qəhrəmanı” adını aldı,
Ulduzlu cərgəyə adını saldı.
İlhamla yaşadı, yazdı, yaratdı,
Sənət dünyasında zirvəyə çatdı.
Süleyman Rüstəmi oxuduqca mən,
Dram əsərləri yaratdım qəlbən...





**SƏMƏD VURĞUN**

(Səməd Yusif oğlu Vəkilov)

*(21 mart 1906, Qazax rayonu, Yuxarı Salahlı kəndi,*
*- 27 may 1956, Bakı şəhəri)*



Yenə də qələmlə təkbətəkəm mən,
Nələr yazmağımı soruşur məndən.
Həyatı düşünüb xəyala daldım,
Sənət dünyasına yolumu saldım.
Mənalı hər ömür- ən gözəl əsər,
Gərəksiz ömürdən qalmaz bir əsər.
Millətin yolunda can qoyanlardan,
Əsərlər yazılır hər zaman, hər an.
Xalq üçün yaşayan qalacaq yadda,-
Canını yandıran alovda, odda...
Vurğun -şeirimizin uca zirvəsi,
Hər yerə yayılır şeirinin səsi.
Onun hər kəlməsi bir inci, zərdir,
Sözü mirvaritək sapa düzərdi.
Sənət dünyasında oldu bahadır,
Sözü bir aləmdir, özü dünyadır.
“Cavanlara xitab”- ilk çap əsəri,
Artdı bu şeirlə sözün kəsəri.
İlk kitabı oldu – “Şairin andı”,
Sonra yeni- yeni kitab yarandı.
Çap oldu, sevildi “ Könül dəftəri”,
Bir il sonra çıxdı gül “Şeirlər”i.
“Azərbaycan” şeiri dillərdə əzbər,
Onu ölkəmizdə hər bir kəs bilər.

Nələr yaratmadı, nələr yazmadı?
Daim ürəklərdə yaşayır adı.
Heyif ki, o, vaxtsız köçdü dünyadan,
Ona necə qıydı Böyük Yaradan?
Onun hər əsəri əlçatmaz dağdır,
Bu dünya durduqca yaşayacaqdır.
Ana döyüş vaxtı qəm- qüssə yedi,
“Ana öyüdü”ndə Səməd söz dedi.
Bu insan həyatda çox işlər görüb.
Sevincdən, kədərdən çələnglər hörüb.
Çıxıb qarşısına yaxşı, yaman da,
Haqqı tapdalanıb onun hər anda.
Onun hər əsəri canlı bir həyat,
Qəlbi hökm eylədi: -Sən dram yarat.
Obrazlar çəkdilər onu suala,
Dramlar yazmağa oldu mübtəla.
Həyatda yaşanan canlı bir büsat,
Dram səhnəsində tapacaq həyat.
O, əsrlər boyu yaşayacaqdır,
Zamanın yükünü daşıyacaqdır.
Oxudum “Vaqif”i, həm də “İnsan”ı,
Dedim:- Vurğun kimi sənətkar hanı?..
“Fərhad və Şirin”i, həm də “Xanlar”ı,
Yaradan şairin sınmaz vüqarı, -
Düşmən qarşısında əyilməmişdir,
Zəif şair kimi söyülməmişdir.
Bu dəm bir səs gəldi sanki qeybdən:
Vurğun tək şairi yetirən vətən, -
Dünyanın şeiriyyət səltənətidir,
Tanrının millətə mərhəmətidir,





Fəqət əyilməmiş onun vüqarı,
Şair dünyasının sənət baharı.
O, ilham alaraq söz adlı yardan,
Salnamə yaratdı poemalardan.
“Aygün”ü, “Bəsti”si, “Muğan”ı ləldir,
Vurğun şeirləri beynəlmiləldir.
Sənət dünyasında çələnglər hörmüş,
Ömrün mənasını şeirdə görmüş.
Onun hər misrası bir ilk bahardır,
Hər sözü, kəlməsi, qəlbimə yardır.
İlk xalq şairidir Azərbaycanın,
Səməd zirvəsi var poeziyanın.
Qibləgah sanmışam onun adını,
Sənətdən yoğrulan istedadını!

Sən ey şeirimizin qızıl köhləni,
Mən də şirin-şirin oxudum səni.
Qarşımda canlandı sonsuz bir ümman,
Gördüm ki, ölməzdir yazıb- yaradan
Bu ümman içində dürrü aradım,
İstədim özüm də yazıb- yaradım.
Mənalar duymuşam hər misrasından,
Öz ilham pərimi almışam ondan.
Odur şeirimizin parlaq ulduzu,
Sevir onu xalqın hər oğlu, qızı.
Bəli, mən Vurğundan aldım dərsimi,
Şeirindən titrədi qəlbimin simi.
Mənzum dramları yaratdım ki, mən,
Qoy yadigar qalsın xalqıma məndən...

**RƏSUL RZA**

*(Rəsul Mirzə İbrahim Məmmədxanlı oğlu Rzayev)*

*(19 may 1910, Göyçay – 1 aprel 1981, Bakı)*



Bir may səhərində gəldi dünyaya,
Bu xəbər yayıldı bütün Göyçaya.
Bir çinar ömrünü yaşadı şair,
Çinarın adını daşıdı şair.
İyirmi yaşında Bakıya gəldi,
Burda gördüyünü bir xəyal bildi.
Bakı gənc şairi aldı qoynuna,
Necə yaşamağı öyrətdi ona.
Müşfiqi, Vurğunu gördü burada,
Danışdı onlardan oldu harada.
"*Bolşevik yazı*"nı yazdı, tanındı,
İlk qələm işini məhz bunu sandı.
Qələmi külüngə çevirib qazdı, -
"*Günəş içənlərin türküsü*"n yazdı.
İlk mahnı yazıldı sözünə onun, -
Cavan sənətkarın – Rəsul Rzanın.
Mahnı adlanırdı "*Sərhəd bəkçisi*",
Oldu gənc Rəsulun o, köməkçisi.
Yazdı musiqini Zeynallı Asəf,
Süzülüb düzülmüş sözləri səf-səf...





Oldu vaxt ötdükcə məhsuldar şair,
Yazdı çoxlu şeir hər şeyə dair...
Yazdı "*Çapay*", "*Hilal*", "*Qardaşlar*", "*Qanun*",
Bütün Şərqi, Qərbi dolaşdı "*Lenin*".
"*Çinar*"dan sevmişik çölü, çəməni,
"*Vətən*" kitabından sevdik Vətəni.
"*Qəzəb və məhəbbət*", "*Üzü küləyə*"
Çoxunu azdırıb saldı "tələyə".
"*Damğa*" damğaladı rüşvətxorları,
Binamus xislətli gözü korları.
Qəlblərə yol aldı "*Vəfa*", "*Bəxtiyar*",
Onlar müəllifi etdi bəxtiyar.
Qəlbini qələmlə odlara atdı,
Əbədi yaşayan "*İnsan*" yaratdı.
O, yazdı "*Ömürdən səhifələr*"i,
Dilə düşdü "*Krım xatirələri*".
Böyük Nizamiyə səcdəyə getdi,-
"*Xosrov və Şirin*"i tərcümə etdi.
"*Rənglər*" şeirimizə rəngini qatdı,
Öz müəllifini zirvəyə atdı.
Sabirə həsr etdi "*Xalq şairi*"ni,
Yazdı Sabiranə öz şeirini.
"*Ölümdən güclülər*", "*Rekviyem*", "*Dözüm*",
Rəsulu vəsf etsəm, qurtarmaz sözüm.
Rəsul xalq şairi adını aldı,
Yazdığı əsərlər əbədi qaldı.

Məhsuldar qələmi var idi onun,
Yurdumun bu ölməz şair oğlunun.
Yenilik gətirdi poeziyaya,
“Sərbəst” şeir janrın saldırdı saya.
Sonra bir təltif də, bir ad da aldı,
O, yetmiş yaşında “Qəhrəman” oldu...

Rəsul xalq şairi, el şairiydi,
Bəxtəvər ürəkli dil şairiydi...
Nigar Rəfibəyli - həyat yoldaşı,
Həm qələm ortağı, həm qəlb sirdaşı.
Nigarı - Rəsulun qəlb ulduzuydu,
Əsilli, nəsilli elin qızıydı.
Sevgi nəğməsini birgə çaldılar,
Başqa məzarlara qismət oldular.
Eyni ildə köçdü bu iki aşiq,
Biri-birlərinə onlar yaraşıq.
Səksən birinci il – ölüm illəri,
Matəmə qərq etdi bütün elləri.
Nə yaxşı onlardan qaldı yadigar, -
Rəsul Rza oğlu Rzayev Anar.
Anar bir çıraqdır Rəsul yurdunda,
Rəsulun özünü görürəm onda...
Oxudum Rəsulun şeirlərindən,
Təcrübə məktəbi sandım onu mən...





**BƏXTİYAR VAHABZADƏ**

*(Bəxtiyar Mahmud oğlu Vahabzadə)*

*(16 avqust 1925, Şəki – 13 fevral 2009, Bakı)*



Dünyaya gəldi o, qədim Şəkidə,
Onun gəlişindən güldü Şəki də.
On yaşı olanda Bakıya köçdü,
Şeir badəsini burada içdi.
Məktəbi bitirib ADU-ya girdi,
“*Ana və şəkil*”i çap elətdirdi.
Ürəkdən sevirdi Səməd Vurğunu,
Araşdırıb tədqiq eylədi onu.
“*Mənim dostlarım*”dır ilkin kitabı,
Daim “*Vətən*” olmuş ilkin xitabı.
Erkən gəncliyində çap oldu “*Bahar*”,
“*Ədəbi heykəl*”ə döndü Bəxtiyar.
Otuz üç yaşında yazdı “*Gülüstan*”,
Ürəklər fəth etdi bu gözəl dastan.
Sevdirdi şairi “*Köklər-budaqlar*”,
Fırlanan dünyanı köklər budaqlar.
Böyük fəlsəfədir, eşqdir “*Vətəndaş*”, -
Ondan bəhrələndi hər bir vətəndaş.
“*Vicdan*” vicdansıza vicdan gətirdi, -
Onu oxuyanlar özün itirdi.
Yazdı “*Rəqabət*”i, “*İkinci səs*”i,
Aləmə yayıldı şairin səsi.
“*Yollara iz düşür*”, “*Cəzasız günah*”,
“*Muğam*”, “*Dar ağacı*” çəkdilər min ah...

Hərdən “*Özümüzü kəsən qılınc*”lar
“*Fəryad*” qopararaq bizi qılınclar...
Görən “*Hara gedir bu dünya*” belə?..
Adam az qalır ki, əcəlsiz ölə...
Əqidə şairi, məslək şairi,
Ləyaqət şairi, ürək şairi.
Hər gecə Tanrının yanına uçdu, -
Gündüz insanlara “açıq danışdı”.
Təbini Tanrıdan aldı Bəxtiyar,
Ədəbi aləmdə qaldı Bəxtiyar.
Ədəbiyyatşünas, dramaturq, şair,
Millətin vəkili, alim və sair...
“İstiqlal” ordenli şairim mənim,
Onu unudarmı bir an Vətənim?..

Mənim dostum olmuş o gözəl insan,
Onunla öyündüm, fəxr etdim hər an.
Xalqımın sevilən xalq şairidir,
Hər kəs ona böyük ehtiram edir.
Hər kəsin qəlbində yeri var onun,
Bu ölməz, yenilməz Vətən oğlunun.
Bu gün də həyatda o, mənimlədir,
Hara gedirəmsə, mənimlə gedir.
Səhvimi göstərir səhvim olanda,
Məsləhət eyləyir ən çətin anda.
Bəxtiyar şeirinin oduna yandım,
Onun keşiyində möhkəm dayandım.
Öyrənib şairin fəlsəfəsindən,-
Arabir hikmətlər uydururam mən.





**OZAN DÜNYASINA SƏYAHƏT**

Baxdım xalqın ozan tarixinə mən,
İncilər götürdüm o xəzinədən.
Ozan sənətinin oldum vurğunu,
Qəlbimə bir həmdəm sandım mən onu.
Böyük xəzinədir aşıq sənəti.
Göylərə qaldırır incəsənəti.
Bu sənətin səsi gəlir min ildən,
Xalqımın canına hopmuş əzəldən.
Yurdumda çox olmuş aşıq- ozanlar,
Onların haqqında azdır yazanlar.
Onların hər biri söz xiridarı,
Mən də xatırlayım bir – bir onları.

Dirili Qurbani sənətdə azdı,
Onbeşinci əsri tarixə yazdı.
Doğuldu Cəbrayıl məmləkətində,
Araz qırağında, Diri kəndində
Doğma Qarabağda yazdı, yaratdı,
Sənət dünyasında zirvəyə çatdı.
Oldu qoşmaları dillər əzbəri,
Təcnisi mat qoydu neçə elləri.
Xətai dövrünün ozanı idi,
Aşıq şeirinin sultanı idi.
O, şah babamıza şeirlər yazmış,
Heyif ki, bizlərə çatanı azmış.

Məşhur Sarı Aşıq dərin iz saldı,
Doğma Güləbirddə xəyala daldı.
Laçın mahalında yazdı, yaratdı,
Aşıq sənətində zirvəyə çatdı.
Şeirləri gəzdi dillərdən-dilə.
Doğma Güləbirdi tanıtdı elə.
Öncə Qarabağda tanındı aşıq,
Sonra Qoca Şərqə oldu yaraşıq.
Bu gün də əzbərdir adı dillərdə
Sevirlər həmişə doğma ellərdə.

Maralyan kəndində gəldi dünyaya,-
Pərinin şöhrəti ucaldı Aya.
Tarixə həkk etdi aşıq adını,
Aləmə göstərdi istedadını.
Daim qalib gəldi deyişmələrdə,
Tanındı, yüksəldi deyişmələrdə.
Şöhrəti sənətdə tapdı varını,
Aşdı Qarabağın hüdudlarını.

Valeh valeh oldu ülvi sənətə,
Qaldırdı sənəti yüksək hörmətə.
Abdal-Gülablıda doğuldu aşıq,
Bütün Qarabağa oldu yaraşıq.
Dastanlar söylədi o, bədahətən,
Yüz ildir fəxr edir onunla vətən.
Xalqımın ruhudur aşıq sənəti,
Özünə əxz edib əbədiyyəti.





Orada at çapıb Dədə Ələsgər,
Aşıq Alı olub ona xilaskar.
Onlar şöhrət tapıb obada, eldə,
Adları dolaşıb dodaqda, dildə.
Bəxş etdi onları Göyçə cahana.
Şöhrət gətirdilər Azərbaycana.

Oxudum Abbası, xəyala daldım,
Təbriz mahalını yadıma saldım.
Tufarqan elləri düşdü yadıma,
Abbas şeirləri çatdı dadıma.

Tanıdım Musanı, duydum Əsədi,
Onlara ürəkdən etdim həsədi.
Dərk etdim aşıqlıq sənətini mən,
Bağlandım mən ona ürəkdən, qəlbən.
Xalqın yaratdığı oldu mənə yar,
Öyrəndim, özümü sandım bəxtiyar.
Kəhkəşan yaradıb nəsillər orda,
Bir örnək olublar bu doğma yurda.
Hikmətlər yaradıb, saray qurublar,
Sözün keşiyində məğrur durublar.
Tərcibənd, tərkibbənd, müstəzad, cinas,
Xalqın keçmişindən qalıbdır miras.
Gəraylı, bayatı - xalqın harayı,
Xalq tikmiş onlardan hikmət sarayı.
Xalqdan ilham aldım, xalq üçün yazdım,
Daim xalq dərdinə köklənən sazdım!

Muğam dünyasından “yolumu azdım”,
Ozanlar üçün də şeirlər yazdım.
Aşıq sənətinin oldum vurğunu,
Duydum bu sənətin nə olduğunu.
Ozan sənətində möcüzədir saz,
Folklor dünyasında o, edir pərvaz.
Sevərək baş vurdum bu ümmana mən,
Zövq aldım ordakı söz incisindən.
Onlar aldı məni öz ağuşuna,
Özüm də vuruldum ürəkdən buna.
Ozan dünyasından incilər dərdim,
Mən də bu sənətə töhfəmi verdim.
Özüm də anlayıb, duyub həyatı,
Yaratdım gəraylı, qoşma, bayatı.
Yazdım dodaqdəymaz, yazdım tərcibənd,
Müstəzad, müxəmməs, təcnis, tərkibbənd.
Xalq üçün yaşayıb, yaratmışam mən,
Qoy yadigar qalsın xalqıma məndən...

**Dirili Qurbani** (1477, Cəbrayıl, Dirili-1540, Dirili),
**Sarı Aşıq** (XVIII - XIX əsrlər)
**Aşıq Pəri** ( 1811-1850).
**Aşıq Valeh** (XVIII - XIX əsrlər)
**Aşıq Alı** - XIX əsr.
**Aşıq Ələsgər** (1821- 1926)
**Abbas Tufarqanlı**...





**DÜNYAYA BAXIŞ**

*(Klassiklər, dahilər)*

Vətən yazarları cəlb etdi məni,
Oxudum onları, sevdim vətəni.
Hər kəsin öz yolu, öz məramı var,
Nə çoxdur vətəndə yaxşı yazarlar...
Öyrəndim onları, mən duydum qürur,
Ürəyim yaratmaq eşqilə vurur.
Xalqın sərvətidir hər gözəl əsər,
Naqis vərdişlərin yolunu kəsər.
Vətən yazarların öyrən ki, öncə,
Nümunə olasan yetişən gəncə.
Vətəndən güc alıb uçmayan bir quş,
Göydə edə bilməz pərvazlı uçuş.
Bu yurdun Qövsisi, Bəhmənyarı var,
Saibi, Qətranı, həm Əssarı var.
Məhsəti, Nizami yaratmış burda,
Sözləri məlhəmdir çətində, darda.
Bu yurdda Həbibi dərdlər daşıyıb,
Vaqif, Vazeh, Sabir burda yaşayıb.
Sürurі bu yurdun suyundan içib,
Nəimi burada canından keçib.
Nəsimi fəxridir bütün cahanın,
Yüksəldib adını Azərbaycanın.

Füzuli hər yerdə sevilir indi,
Gözəl qəzəllər də Füzulinindir.
Urməvi yaşayıb, yaradıb burda,
Əvhədi bağlanıb bu gözəl yurda.
Burdan pərvazlanıb Vidadi şeiri,
Burdadır Vaqifin şeirinin sehri.
Xan qızı Natəvan, Qasım bəy Zakir,
Burda yaşayıbdır Baba bəy Şakir.
Cavidi, Müşfiqi yetirən millət,
Gərəkdir heç zaman çəkməsin zillət.
Burda Səməd, Rəsul yazıb- yaratmış,
Şeiri, sənəti göyə ucaltmış.
Bu yurdun Cəfəri, Bəxtiyarı var,
Hadisi, Cavadı, Şəhriyarı var.
Çoxdur bu yurdumun söz sərrafları,
Sevmişik, sevirik daim onları.
Elimin, yurdumun çoxdur ustadı,
Bir şeirə sığışmır onların adı...

Oxudum Drayzeri, xəyala daldım,
Onun qələmindən mən ilham aldım.
Gəncliyimdə sevdim Viktor Hüqonu,
“Səfillər”i mənə sevdirdi onu.
“Don Kixot” çox şeylər öyrətdi mənə,
Servantes bununla girdi qəlbimə.





Mayn Rid könlümü əlinə aldı,
Dünya məxəzinə yolumu saldı.
Pəşad Güntəkinlə Nazim Hikmət Ran,
Onlardır qəlbimi çəkib aparan.
Onlarla fəxr edir böyük türk eli,
Ölməz əsərləri qijov dağ seli.
İnci söz eşqilə Şərqi dolandım,
Hər sözü ləl sandım, cəvahir sandım.
Şərqdə sönməz işıq Taqoru gördüm,
Konfutsi fikrindən bir çələng hördüm.

Karamzin - ilk nübar, şeir atəşi,
Odur rus şeirinin ilkin günəşi.
Çexov, Lev Tolstoy, Dostayevski,
Yesenin, Şoloxov, Çernışevski,
Qoqol, Musa Cəlil, Tvardovski.
Nekrasov. Turgenyev, Mayakovski...
Sənət dünyasının xiridarları,
Tarix yaşadacaq daim onları.

Orta Asiyaya mən nəzər saldım,
Könül istəyimi oradan aldım.
Oxudum Muxtarın mən “Abay”ını,
Tarixə çevrilən inci payını.
Mərkəzi Asiya şeirin quludur,-

Əlişir Nəvai, Məhdimquludur,
Onları özümə örnək sanmışam,
Həmin bulaqlardan qidalanmışam.
Bu ölməz dahilər oldu amalım,
Oxudum onları, artdı kamalım.
Oxu sən onları, öyrən dərindən,
İncilər, hikmətlər süzsün sərindən.
Millətə, dövlətə, bəşərə yara,
Çalış vurmayasan bəşərə yara.
İstəsən dünyada kamil olasan,
Qəlblərdə yurd salıb, orda qalasan,
Bir daha deyirəm:-Onları oxu,
Özünə onlardan zər libas toxu.
Onların irsinə mən nəzər saldım.
Müxtəlif əsərlər qələmə aldım.
Onları ürəkdən yaratdım ki, mən.
Bəşərə yadigar qoy qalsın məndən.





**PUBLİSİSTİKA**

Məqalə, oçerklər yazdım ilk anlar,
Qələm sahibləri məni düz anlar.
Topladım onları, oldu bir kitab,
"Tarixə qovuşan illər"ə xitab.
«Qızıl Qələm» oldu ilk mükafatım,
Publisistikada yer aldı adım.
Məxəzə üz tutdum yaxşı söz üçün,
Aləmə car çəkdi qəlbimdəki ün.
Heç kim əvəz etmir biri digərin,
Söz də məhsuludur şair-dülgərin.
İnsansız cəmiyyət yoxdur həyatda,
Sözlərsiz yaşamaz ədəbiyyat da.
Söz ilə insanın çoxdur oxşarı,
Söz də insan kimi dünyanın varı.
Publisist yazılar, şeir yazsam da,
Namərdə, nakəsə "qəbir qazsam" da,
Sənət köhlənimi minmişəm daha,
Baxıram eşq ilə aydın sabaha.
Düşünmə özümə fəxriyyə yazdım,
Gördüyüm işlərdən hələ az yazdım.
Məqalə, oçerklər yazıram hərdən,
Xalqıma yadigar qoy qalsın məndən...

## EPİLOQ

Ustadları bəxş eləmiş zaman- zaman Tanrım bizə,
Günəş kimi nur çiləyir daim bizim qəlbimizə.
Əzəl gündən məktəb olub bəşər üçün özü ustad,
O məktəbdən dərs alanlar el içində çıxarıb ad.
Ustadlardan dərsin alan kamil insan ustad olar,
Çıxar dövrün sınağından, tarixlərdə məskən salar.
Ustad olmaq istəsən sən, ustadlardan dərsini al,
Çalış ona əməl eylə, tarixlərdə şərəflə qal.
Ustadları hər bir zaman başım üstə Tanrım sandım,
Mən onları xoş məramla, ehtiramla daim andım.
Bəşər üçün örnək olan ustadlardan dərs almışam,
Yaradaraq söz mülkümü könüllərdə yurd salmışam.
Güc alıram Tanrı vəhyi Söz adlı bir gözəl yardan,
Qorxum yoxdur, nə tufandan, nə çovğundan, nə də qardan.
Ustadına kəm baxanın gözlərinə al qan damar,
Qədirbilməz insanların gözlərini Tanrım yumar.
Qürur ilə mən anıram ötən ömrün hər anını,
İncilərlə bəzəmişəm söz mülkümün ümmanını.
Bəşər üçün örnək olan kəlamların hərisiyəm,
Hikmətlərin tacidarı Nizaminin varisiyəm...





## ÖMRÜMÜN BİR GÜNÜ...

*(Poema-monoloq)*

Səhərdir, oyanıb qalxdım yerimdən,
Belə acı səhər görməmişdim mən.
Sanki dəyişmişdi Bakı şəhəri,
Qara buludluydu bu yaz səhəri.
Mənə elə gəldl təklənəcəyəm,
Qorxunc ovqat üstə köklənəcəyəm.

Bu gecə dəhşətli yuxu görmüşəm,
Ömrümü məhv edən “yox”u görmüşəm.
Gördüyüm yuxunu yadıma saldım,
Həyəcan içində xəyala daldım.
Gördü birtəhərəm həyat yoldaşım,
Yaman ağrıyırdı fikirdən başım.
Adətən çox yuxu görən deyiləm,
Ona inanmıram, heç çəkmirəm qəm.
Gördüm dağlar özün yiyəsiz sanır,
Meşələr od tutub, alışıb - yanır.
Quşlar təlaş ilə baxırlar ona,-
Yuvasın yandırıb od vuranlara.
Həyat yoldaşıma danışdığım an,
Telin zəngi məni çaşdırdı yaman.
“Telfonçu Sona”ydı zəng edən mənə,
Nifrətlər söylədi yağı düşmənə.
“Kəlbəcərə mərmi düşübdür”, - dedi,
Axıtdı göz yaşı, qəm- qüssə yedi.

Dedi ki: “ Kəlbəcər ta əldən gedir,
Düşmən doğma yurdu tarımar edir.
Yoxdur səsimizə əsla səs verən,
Bizə kömək edən, bir tədbir görən.
Yaman qaçhaqaçdır, heç kəs qalmayıb,
Hələ ki, şəhəri düşmən almayıb.
Kəlbəcər görməyib bu boyda kədər,-
Əhali yerindən olub dərbədər.
Namərdlər ordunu çəkib aparıb,
Ürəyi bədəndən sanki qoparıb.
Qoyublar düşmənlə xalqı üz-üzə,
Namərd gözlərilə baxırlar bizə.
Yurdu hədəf seçdi düşmən həmləsi,-
Güllələr məhv etdi günahsız kəsi.
Elin imdadına yoxdur bir çatan ,
Özünü döyüşə kökləyib atan.
Burda yurd talanır, mərkəzsə yatır,-
Elin ah-naləsi göylərə çatır.
Əlimiz üzülüb bu iqtidardan,
Çünki, xilas etmir milləti dardan.
Bircə gümanımız qalıbdır Sizə,
Axı, daim arxa olmusuz bizə.
Hər bir kəlbəcərli düşünür bunu,
Güman yerimizin siz olduğunu.
Sizsiniz bu yurdun yenə gümanı,
Verməyin düşmənə əsla amanı...”
Məni yaman üzdü bu acı xəbər,
Gözümdə zülmətə döndü al səhər.





Ayağım altından sanki yer qaçdı,
Göylər elə bil ki, başıma uçdu.
Bilmədim dünyanın harasındayam,
Sandım Yerlə göyün arasındayam.
Fikirlər, xəyallar bağrımı yardı,
Bu nə ağır yazdır, bu nə bahardır?..
İlahi!.. Dəhşətə, vəhşətə bir bax,
Aslanlar yurdunda qurd ulayacaq?..
Çaqqallar içəcək buz bulaqlardan?..
Onlar baxacaqlar göy yaylaqlardan?..
Düşmənin əlinə keçər bu diyar?
Bu dərd ürəyimi yandırar, oyar.
Bizlərə meydanmı sulayacaqlar,
Qudurmuş it kimi dalayacaqlar?..
Qafqazın Uralı indi dardadır,
Bağrı qanlı qalıb, intizardadır.
Yağlı tikə oldun, ey vətənim, sən,
Odur ki, çaqqallar pay umur səndən.
Gözləyir bizləri- xilaskarını,
Ona doğma olan fədakarını.

Bu xəbər önündə mən aciz qaldım,
Ötən günlərimi yadıma saldım.
Bahar qədəm basır indi dağlara,
Ceyranlı, cüyürlü göy yaylaqlara.
Təbiət geyinir yaşıl donunu,-
İnsanlar ecazkar görsünlər onu.

Bunları düşünüb qəm yeyən zaman,
Keçdi ürəyimdən bir ağrı haman.
Məni dara çəkdi, boğdu qəm-kədər,
Deməli, zəhmətim oldu heç, hədər.
Nə etmək, almadı Kəlbəcər kömək,
Verildi düşmənə o diyar demək.
Düşmən Kəlbəcəri çapıb- talayar,
Bütün Qarabağı oda qalayar.
Yağı məhv olmasa əgər bu yerdə,
Xalqı salacaqlar çıxılmaz dərdə…

Gəlmişdi Bakıya bahar səhəri,
İçirdi həmin gün mənə zəhəri.
Uşaqlar ayıldı bizim səs-küyə,
Onlar da qoşuldu bu hönkürtüyə.
Görməsinlər deyə ağladığımı,
Gözümdə yaşımı saxladığımı,-
O biri otağa keçib hönkürdüm,
Bu haldan çıxışı mən belə gördüm.
Ailəm sarsıldı bu bəd xəbərdən,
Döndülər məzluma bu dərdi-sərdən.
Boğazım qurudu, su da içmədim,
Nə edəcəyimi ölçüb- biçmədim…

Birbaşa yollandım Milli Məclisə,
Məqsədim bu idu, edək nə isə.





Yolda gah boşaldım, gah da ki, doldum,
Fikir dəryasında qəmə qərq oldum…
Kəlbəcər qalıbdır sahibsiz, yetim,
Ayaqlar altına düşür millətim…
Kömək etməliyik köməksiz elə,
Dadına çatmasaq, yaş dönər selə.
Haraya zəng etdim, cavab almadım,
Bu mövcud durumdan razı qalmadım.
Qəflət yuxusunda yatmışdı Bakı,
Sanki dərdə, qəmə batmışdı Bakı.

Əlaqə saxladım mən rayon ilə,
Dağ-daş nalə çəkib gəlirdi dilə.
Yusif oğlu Tahır* tez cavab verdi,
Çarəsiz insanın açıldı dərdi.
Dedi ki:-Millətə verilir əzab.
Nifrətdən qəlbimdə yoğrulub qəzəb.
Kəlbəcərim gedir, yox yetən dada,
Biveclər yurdumu verirlər yada.
Mən son adamam ki, qalmışam burda,
El- oba məhv olur, qalmışıq darda.
Vətəni tərk edib gedə bilmirəm,
Bu dərdə bir əlac edə bilmirəm.
Belə namərdliyə dözmək olarmı?
Vətəndən də əli üzmək olarmı?
Çarəsiz qalmışam, mən də gedirəm,
Məcburam əlacsız bunu edirəm… ”

Vücudum sarsıldı bu bəd xəbərdən,
Belə iqtidara ta nə deyim mən?
Üz tutdum yenə də çox ünvanlara,
Bəlkə kömək etdim bağrı qanlara.
Kimsədən bir cavab ala bilmədim,
Bu hala biganə qala bilmədim.
Yenə də zəng etdim Kəlbəcərə mən,
Bir cavab almadım, sarsıldım qəlbən...
Üzüldü hər yerdən mənim əllərim,
Düşmənlə üz-üzə qaldı ellərim...
Daha xəbər yoxdur bu doğma eldən,
Demək Kəlbəcər də çıxıbdır əldən...

Əllərim titrədi, əsdi ürəyim,
Çökdüm, yerə dəydi məğrur kürəyim.
Mən çox çətinliklə özümə gəldim,
Bütün olmuşları sonradan bildim.
Gördüm qulluq edir mənə həkimlər,
Buna qiymət versin gərək hakimlər.
Baxdım Xanların* da dolub gözləri,
Qulağımda qaldı onun sözləri:
"Yəqin ki, düşmənlər cavabın alar,
Arxasız millətim qələbə çalar."
Ağlaya-ağlaya təskinlik verir,
Sakit olmağımı məsləhət görür.
Onun da qəlbində var idi yara,
O da çox acıdı bu iqtidara.





Milli Məclisdə mən fəryad elədim,
Rəhbər işçilərdən imdad dilədim.
Mən çıxış eylədim başı alovlu,
Üsyankar, inadkar, həm dəli-dolu.
Sədr dərk eylədi bu vəziyyəti.
İclası qurtarmaq oldu niyyəti.
Məni məcbur edən dərddi, təlaşdı,
Məclisin iclası tez yekunlaşdı.
İsa bəy* tutmuşdu qəlbim deyəni,
Bir azdan yanına çağırdı məni.
Dedi ki. Bilirəm, ağırdır sənə,
Yanırsan övlad tək ana vətənə".
Mən ona dedim: "Heç bilirsənmi sən,
Yeni bir Kəlbəcər saldırmışdım mən?..
Yollar çəkdirmişdim, ev tikdirmişdim,
Orda min əziyyət, zillət çəkmişdim.
Bütün həyatımı qoymuşam ora,
Qoymayın zəhmətim qalsın yadlara?..
Sevirəm o yurdu varlığım qədər,
İndi üzür məni qüssə, qəm, kədər.
Sizin iqtidardır günahkar ancaq,
Tarix bunu daim xatırlayacaq..."

Yamanca sarsıldı o, bu söhbətdən,
Bunları bir daha yəqin etdim mən.
Məni kəlbəcərli bilirdi o an,
"Ağcabədidənəm"- dediyim zaman

Yamanca duruxdu, allandı üzü,
Sonra onun mənə bu oldu sözü:
“Təcili tədbirlər görəcəyik biz,
Tezliklə qurtular dardan bölgəmiz.
Sizsə darıxmayın, söz verirəm mən,
Geri qayıdacaq Kəlbəcər hökmən”.

Titrəyib əsirdim həyəcanımdan,
Elə bil donmuşdu damarımda qan.
Eşitdim toplaşıb kəlbəcərlilər,
Onlar səhər tezdən orda idilər.
Mən Azərnəşrə gəldim birbaşa,
Kədərim gözümdə dönmüşdü yaşa.
Kimlər de, yox idi burada, kimlər?..
Bakıda yaşayan kəlbəcərlilər...
Əyilməz görmüşdüm mən ki, onları,
O dağlar qoynunda yaşayanları.
Üzlərində kədər, qəlblərində qəm,
Bürümüş onların içini matəm.
Onları nə günə salıbdır zaman,
Qartalı yem edir tülküyə dövran...
Belə haqsızlığa dözmək olarmı?
İnsan da vətənsiz, yurdsuz qalarmı?..
Gördüm Əlövsəti* otağında mən,
Kədər süzülürdü onun gözündən.
Burda qarşılandım çox ehtiramla,
Məclisdə olanı dedim aramla.





Mənə dedilər ki, nazir burdadır,-
Həmidov* redaktor otağındadır.
Məni otağına dəvət eylədi,
Kəlbəcər haqqında söhbət eylədi.
Belə ağır gündə gəldiyim üçün,
Kəlbəcəri doğma bildiyim üçün,
Təşəkkür eylədi mənə ürəkdən,
“Bu, mənim borcumdur”,- dedim ona mən.
Birlikdə bu dərdə axtardıq çara,-
Qəlbimizdə məskən salmasın yara.
Qadınlar dedilər: “Cəbhəyə gedək,
Yağı düşmənləri tarımar edək.
Azəri qızların tanısın onlar,-
Tülkü tək yurduma o soxulanlar”.

Qəm- kədər içində mən evə gəldim,
Yeni xəbərləri eşidib-bildim.
Gördüm ailəm də sarsılıb yaman,
Evdə uşaqlar da edir and-aman.
Həmin gün evimə olubdur zənglər,
Deyiblər-kəndlərdə edilir cənglər.
Düşmən qəlbimizi çəkdirir dara,
Onlar qan udurrur doğma diyara.
Soxulub kəndlərə talan edirlər,
Hər cür alçaqlığa onlar gedirlər.
Uşağa, qocaya vermirlər aman,
Kəlbəcər sınağa çəkilir yaman.

Haylar orda yaman at oynadırlar,
Qarşıya çıxana güllə atırlar.
Namuslu, qeyrətli Vətən qızları,
Ər tək qoruyurlar isməti, arı.
Onlara bir kimsə çıxmayır yiyə,
Düşmənin əlinə keçməsin deyə,-
Qız-gəlinlər qəsd edirlər cana,
Yayılır xəbərlər Azərbaycana...
Başlıbel kəndində Aygün adlı qız,
Düşmənin əlində qalmasın yalqız
Qardaşı Çingizdən xahiş eyləyib:
"Məni özün öldür..." Belə söyləyib.
Qardaş güllələdi nakam Aygünü,
Aləmə yayıldı onun ah-ünü.
Özü düşmən ilə girdi döyüşə,
Ölsə də düşməni o "çəkdi şişə".

Millidən Zərnişan təslim olmadı,
Atdı özün çaya, yaşadı adı.
Nümunə göstərdi onlar elinə,
Özünü vermədi düşmən əlinə.
Qeyrəti dağlardan aldı o qızlar,
Onlara baş əydi göydə ulduzlar.
Görsünlər haylarda belə qızmı var?
Namusun qorudu, oldu qəbrə yar.
Adları nəğmə tək düşər dillərə,
Şan-şöhrət gətirər doğma ellərə.





"Min əhsən!" Deyirəm o qızlara mən,
Səsləri gələcək qərinələrdən.

Qara Quliyevlər məhv oldu o gün,
Körpə - Azər, Yaşar, Nəsibə, Aygün...
Eşitdim bunları, heyrətə gəldim,
Onları dunyanin qeyrəti bildim.
Şəhidlik dağını onlar fəth etdi,
Müqəddəs ruhları cənnətə getdi.
Heç yerdə tapmazsan belə mərdləri,
Mərdliklə daşıyan ağır dərdləri...
Ötəcək fəsillər, keçəcək illər,
İbrət götürəcək bundan nəsillər.
Belə alçaqlığa heç kəs getməmiş,
Qocaya, uşağa sitəm etməmiş.
Türkü qırmaq Hayın xislətindədir.
Bu soyqırım deyil, onda bəs nədir?
Hər yerdə məşəqqət, müsibət, dəhşət,
Bütün Kəlbəcəri bürüdü vəhşət.
Qisas qiyamətə qalmaz heç zaman,
Allah niyə verir zalıma aman?..
Nə ad vermək olar belə gərdişə?..
Tanrı da mat qalıb özü bu işə...
Dağlar da dəhşətə gəlib ağladı,
Qara buludlardan çətir bağladı.
Təbiət heyrətə gəlmişdi bundan,
Sanki bulaqlardan axırdı al qan.

O gündən bəridir deyib-gülmürəm,
Qəlbimdən kədəri silə bilmirəm.
Ermənipərəstlər gördü işini,
Həyata keçirdi pis vərdişini.
Erməni xofunu yaratdı onlar,
Xalqın al qanını qaraltdı onlar.
Yığıldı əllərdən ov silahları,
Göylərə yüksəldi xalqın ahları.
Köçməkdə gördülər çıxış yolunu,
Göstərən olmadı savaş yolunu.
Xalqım arxasızdı, yoxdur pənahı,
Bu biçarə xalqın nədir günahı?..

Səhəri kədərlə sən açsan əgər,
Həmin gün qəlbini qəm- qüssə sökər.
Günün də il kimi fəsilləri var,
Həmin gün mən qışa oldum giriftar.
Daha xəbər yoxdur bu doğma eldən,
Deməli, Kəlbəcər çıxıbdır əldən.
Eh!..Mən gəncliyimi qoymuşdum orda,
Odur ki, bağlıyam bu doğma yurda.
Bütün varlığımla qurub-yaratdım,
Yeni şəhər salıb, arzuma çatdım.
Düşmənə pay oldu mənim zəfərim,
Şah əsər saydığım gözəl şəhərim.
Kəlbəcər yolunda qoymuşuq canı,
Onu verənlərin yoxmuş vicdanı.





Verildi, qəlbimə vuruldu yara,
Elə bil bir anda çəkildim dara.

Mən ordan gedəndən dövran dəyişdi,
İnsanlar dəyişdi, yaman dəyişdi...
Dəyişdi diyarın abı-havası,
Sevinci yox oldu, çoxaldı yası.
Fərsizlər əlində qaldı bu diyar,
“Ağası gül olan olmaz bəxtiyar!”

Orada olsaydım, inanın, mənə,
Qoymazdım o yurdun çırağı sönə.
Heç səkə bilməzdi bir quş da ora,
Vallah, göndərərdik düşməni gora.
Bunu mən demirəm, bütün el deyir,
O məğrur insanlar qara don geyir.
Bax beləcə hədər getdi zəhmətim,
Heç oldu əməyim, arzum, niyyətim.
Təlaşlar içində çırpınarkən mən,
Təsəlli tapırdım etdiklərimdən.
“Sümüklü Dərə”ni vaxtında andım,
Onu soyqırımın simvolu sandım.
İç üzünü açdı ermənilərin,
Nifrətin qazandı bütün ellərin.
Göyçə türklərini yığdılar ora,
Onları atdılar kəfənsiz gora.

Dərədə heç bir türk tapmamış nicat,
Belə vəhşiliyə daha nə hacət.
“Sümüklü Dərə”ni gördüyüm zaman,
Odlandım, sarsıldım yerimdə haman.
Əsrin əvvəlində zalım erməni,
Sümüklə doldurmuş həmin dərəni.
Yüz ildir ağlayır “Sümüklü Dərə,”
Göz yaşı bəxş edir o Kəlbəcərə.

Mən sual verirəm özüm- özümə,
Hissim qulaq asır ürək sözümə:
Çəkilməsə idi o yollar əgər,
Görən nə edərdi onda Kəlbəcər?
“Murovdağ”, “Dəlidağ” yollarını mən.
O zaman çəkdirdim ürəkdən, qəlbən.
Düşündüm xalqımın dadına çatar,
Kədəri sevincə burada qatar.
Xalqın imdadına çatacaq hökmən,
Təsəlli tapıram bununla da mən.
Əmək itirənin əməyi itsin!
Onun da zəhməti güdaza getsin!

Ürək lazımdır ki, dözsün bu dərdə,
Yaşasın, ölməsin belə kədərdə.
Doxsan üçüncü il- otuz mart günü,
Elin matəm günü, həsrət, dərd günü.





Kəlbəcər od tutub alışdı, yandı,
Xalqın ah-naləsi ərşə dayandı.
Dağlara səs saldı sədası, ünü,
Matəmə çevrildi toyu, düyünü.
Yazılsın ömrümə bu tarix qara,
Kəlbəcər verildi mənfur haylara.
Unuda bilmərəm o qara günü,-
Köksümə çəkilən dağı, düyünü.
O günü bir qurtum su da içmədim,
Gecəni gündüzdən əsla seçmədim.
Ömrü əritmişəm xalqın yolunda,
Onun mənasını tapmışam bunda.
Bir insan xalqına yanmasa əgər,
Onun yaşaması de nəyə dəyər?..

O həftə ailəm matəm keçirdi,
Tale onlara da qəhər içirdi.
Kəlbəcər doğmadır ailəmizə,
Bununçün həmişə əzizdir bizə.
Uşaqlarım orda ayaq açıblar,
Məktəbə gediblər, kitab açıblar.
Mən nə gözləyirdim, fələk neylədi,
Çəkdiyim zəhməti o, puç eylədi.
Bir oğul istərəm qələmə alsın,
Bu matəm gününü tarixə salsın.
Car çəksin dünyaya, yaysın aləmə,
O gündən sevincim döndü ələmə...

Tanrı mənə belə bir ömür verib,
Şam kimi yanmağı məsləhət görüb.
Ötən günlərimi yadıma saldım,
Onun bir gününü qələmə aldım.
Çox olub ömrümün belə günləri,
Acılı, şirinli qəlbin ünləri...

Kəlbəcər düşmənə satıldı, getdi,
Təlaşdan qəlbimdə qəm, qüssə bitdi,
Çox heyf! Çəkdiyim zəhmətim itdi,
Zəhmət itirənə Haqq qənim olsun!
Bu yurda kəc baxan saralıb, solsun!..

***"Nəzər nöqtəsi" qəzeti***
***№ 3. 17-31 mart 2011-ci il***
***24.04.1993***





# Müxtəlif şeirlər

## MƏZARIN BAŞINA DOLANDIM, ANA!

Gəldim ziyarətə məzarıstana,
Məzarın başına dolandım, ana.
Qəbrinə baxanda od düşdü cana,
Elə bil məzara salındım, ana!

Əksin mənə baxdı, qəlbim dağlandı,
Məni ümidgahı- bir yurdçu sandı.
Sənli çağımızı bir daha andı,
Axı, onda əziz balandım, ana!

Səni zalım fələk məndən qopardı,
Qaranlıq mənzilə alıb apardı,
Ah-naləmiz güclü tufan qopardı,
Qəmin alovunda hey yandım, ana!

Bir canım var, o da sənə qurbandı,
Oğlun məzarını qibləgah sandı,
Həmişə oduna alışıb, yandı,
Sənsiz ocaq kimi qalandım, ana!

Sənsiz gecə- gündüz gəlləm fəğana,
Gözümdə zinətsən bütün cahana.
Sənsən səcdəgahım həyatda, ana,
Sən mənim yer andım, göy andım, ana!

Əgər olmasaydın həyatda, ana,
İnqilab gəlməzdi əsla cahana.
Baxdım məzarına hey yana-yana,
Ruhuna ömrümlə calandım, ana!

## MİSİLSİZ BİR KİTAB

*Görkəmli şair Nizami Zöhrabinin "Məkkədən doğan günəş"i kitabını oxuyarkən*

Oxudum «Məkkədən doğan günəş»i,
Rəsuli-Əkrəmə olunub xitab.
Alacaq qiymətin, bilirəm şəksiz,
İslamdan söz açan dəyərli kitab.
Bu kitab yoğrulub incidən, zərdən,
Ağıllı gözündə düşməz nəzərdən.
Kitabın mənası dərindən, dərin,
Dərk etsən, yox olar dərdin-kədərin.
Ulu Peyqəmbərdir əsas qəhrəman,
O, ülvi-bəşərdir bizimçün hər an.
Odur ümmətinin tək xilaskarı,
Hikmətdən yoğrulub dövləti, varı.
O, Tanrı rəsulu elçi rolunda,
Ömrün fəda etdi Haqqın yolunda.





Bu ali müqəddəs insan oğluna,
Hücumlar olsa da, tab etdi ona.
Dönmədi əqidə yolundan bir an,
Onu dərk eylədi çox bəni insan.
Bütpərəst xalqlara inam gətirdi,
Onlardan Allaha iman yetirdi.
İslamı vəhy ilə o tək yaratdı,
Bununla arzuya, murada çatdı.
İslam yaşayacaq min illər boyu,
Onu yaşadacaq müsəlman soyu.
Düşmən başa düşdü – o müqəddəsdir,
Səsi də Tanrıdan gələn bir səsdir.
O səsə səs verib birləşdi xalqlar,
Gördülər, həyatda bir möcüzə var.
Torpaqdan yaranıb günəştək tək saçdı,
Ürəklər fəth edir müqəddəs adı.
O ad müsəlmanın şöhrət-şanıdır,
Tanrıya sevgisi, din-imanıdır.
Düşsə də borana, düşsə də qara,
Ömrünü həsr etdi yarananlara.

Ədalət üstündə qurulan dünya,
Dünyamız durduqca yaşayacaqdır.
Adı yüksələcək Günəşə, Aya,
Bəşərin dərd yükün daşıyacaqdır.
«Misilsiz bir kitab» - ad verdim buna,
Çün ithaf olunub bəşər oğluna.
Bu kitab vəhy ilə yazılıb əlbət,
Yazanı tapacaq mütləq səadət.

## QAN YADDAŞI

*Tədqiqatçı Nazim Tapdıqoğlunun "Faciələrimizin təqvim izləri" kitabını oxuyarkən*

Oxudum kitabı, dəhşətə gəldim,
Qəmin dəryasında vəhşətə gəldim.
Fikirlər, xəyallar başımdan aşdı,
Dağları, daşları, yurdu dolaşdı.
Qovrulub oxudum bu kitabı mən,
Yoğrulub tarixim faciələrdən.
Bu məzlum millətin yoxmu pənahı?
Sülhsevər millətin olmur günahı...
Bu, adi təqvim yox, bir salnamədir.
Yanında onlarca kitab de nədir?
Hər rəqəm altında qanlı tarix var,
Hər oxuyan ondan bir ibrət alar.
Burada hər bir fakt gözə ox sancır,
Adamın qəlbini eyləyir qançır.
Min əhsən deyirəm kitab yazana,
Dərdləri nəql edən qəmli ozana.
Tərcümə olunsun bütün dillərə,
Həqiqət car olsun bütün ellərə.
Kitab müəllifi qarabağlıdır,
Ünvanı Xocalı, Qaradağlıdır.
Tuğda, Cəmillidə ölüb-dirilib,
Hər işğal yurdunu öz yurdu bilib.
Başının papağı Ağdamda qalıb,
Onun ürəyində kədər yurd salıb.





Hər gün neçə dəfə Sırxavənd deyir,
Zəngilan, Qubadlı, Xocavənd deyir.
Cəbrayıl, Füzulu,- Qarabağ dərdi,
Onun ürəyində bitdi, göyərdi.
Yuxusu Şuşadır, Malıbəylidir,
Hər səhər uzaqdan ona əl edir.
Laçın, Kəlbəcərdir sözü, söhbəti,
Köçkünlük olubdur tale qisməti.
Dərdi Meşəlisi, Veysəllisidir,
Yazdığı bu kitab təsəllisidir...

Çıxarsaydı bundan nəticə millət,
Çəkməzdi, əlbəttə, bu qədər zillət.
Bu kitab hayların iç üzün açır,
İnsanın beyninə o, işıq saçır.
Oxudum kitabı xeyli düşündüm,
Xəyal dünyasında yumağa döndüm.
Nədən bostanıma daş atanlar çox,
Amma heç birinin bir cəzası yox?..
"Soyqırım" sözünü kimlər işlədir,-
Bilsinlər haqq nədir, ədalət nədir?
Tərsalar xalqıma kəsilib qənim.
Qəzəbə tuş gəlib millətim mənim.
Qəsblər kiçildib vətənimizi,-
"Kürəkçay", "Gülüstan", "Türkmənçay"* bizi.
Bölünə- bölünə xırdalanmışıq,
Kiçik bir quzeydə daldalanmışıq.

---

*"Kürəkçay", "Gülüstan", "Türkmənçay" - müqavilələri

Türkün türkdən başqa yaxın dostu yox,
Amma ki, naxələf düşmənləri çox.
Sığınacaq verdik o nankorlara,
Onlar sinəmizə vurdu min yara.
Qətillər törətdi hər addımbaşı,
Qurumaq bilməyir türkün göz yaşı.
Ar olsun bu qətli törədənlərə!
Onları himayə lap edənlərə!
Erməniyə qulluq eyləyənlərə,
Haylara "baş üstə" söyləyənlərə
Qəlbimin nidası min lənət deyir,
İçimi ağrılar, qəm- qüssə yeyir...
Qatillər cəzasın hökmən alacaq,
Tarix səhnəsində ifşa olacaq.

Bizə "Qan yaddaşı" olsun bu kitab!
Şəhid olanlara edilmiş xitab!
Stolüstü kitab olsun hər kəsə,
Monolit birləşib verək səs- səsə!
Biz dostu, düşməni tanıyaq gərək,
Keçmişdən dərs alıb, sabahı görək.
Arxa durmalıyıq bir- birimizə,
Çarə tapmalıyıq kədərimizə.
Bu kitab bir sual doğurdu məndə,-
Qurbanlıq olmuşuq niyə hər fəndə?
Nə qədər əziyyət, zillət çəkmişik,
Dərddən qəlbimizdə kədər əkmişik.
Nədən başımıza bəlalar gəlir,
Niyə fəryadımız göyə yüksəlir?





Bu qədər qurbanlar bəs deyilmidir?
Dumanlı fikirlər qəlbimi didir.
Nəticə çıxarıb durulmalıyıq,
Bir daha yenidən qurulmalıyıq.
Qəflət yuxusundan ayıl, millətim!
Çıxsın ürəyimdən ahım, zillətim!
Vətən övladları çevrilsin nərə!
Son qoyaq dözülməz məşəqqətlərə!
Kitabdan nəticə çıxarmayan Türk,
Qoyun libasında qoy geyinsin kürk...
Uğurlar dilərəm bu kitaba mən,
Sədası gələcək qərinələrdən!..

**MEHMƏT NİZAMƏDDİN COŞQUNA**

*Türkiyənin Çıldırlı aşıq Şənliyin divanını toplayıb çap etdirməsi münasibətilə*

Şənlik divanını buraxdırmısan,
Ürəkdən təşəkkür edirəm sizə.
Kitabın nəşrini nəcib bir iş san,
Böyük iş görmüsən millətimizə,
Ürəkdən təşəkkür edirəm sizə.

Oxudum Şənliyin "Divan"ını mən,
Məftun oldum ona, inanın qəlbən,
Min rəhmət dilədim ona ürəkdən,
Vurğunam mən sizin saf qəlbinizə,
Ürəkdən təşəkkür edirəm sizə.

Vurğunam mən sizin saf qəlbinizə,
Ürəkdən təşəkkür edirəm sizə.
Namərdin qəddini əyib atalar,
Qeyrət libasını geyib atalar,
"Yaşadan yaşayar"- deyib atalar,
Əhsən dedim sizin xidmətinizə,
Ürəkdən təşəkkür edirəm sizə.

Azadlıq yolunda çox çəkdik zəhmət,
Bir millət, cüt dövlət, a qardaş Mehmət,
Məqsədə yetişdik, qazandıq hörmət,
Bələd oldum sizin qeyrətinizə,
Ürəkdən təşəkkür edirəm sizə.

Bu işdə Sizlərə uğur dilərəm,
Xeyirxah işinlə deyib- gülərəm,
Sizinlə görüşü şərəf bilərəm.
Görüşüb qardaş tək duraq üz-üzə,
İnqilab təşəkkür eyləyir sizə.





## ƏN SEVİNCLİ ANIM

*Dostum, görkəmli oftalmoloq- alim,*
*tibb elmləri doktoru, prof. Çingiz Cərullazadəyə*

Çingiz həkim!
Yetmiş illik bir dostumu itirmişəm,
Bu dostluğu yarı yolda bitirmişəm.
Sən ey gözüm!
Varid olduq bu dünyaya eyni anda,
Bülbül ötən, güllər açan bir zamanda.
Vədimizə sadiq qalıb dost olmuşuq,
Bu münvalla yetmiş yaşa biz dolmuşuq.
Bu dünyada nələr gördük sənin ilə,
Çoxusunu gətirmirəm əsla dilə…
Gözəlliyə vurulmuşuq, zövq almışıq,
Sevinc ilə dərin fikrə çox dalmışıq.
Sevgilimi sən tapmısan mənə, gözüm,
Sən vermisən dar ayaqda mənə dözüm.
Qəlbin sevinc, kədər yaşı səndən axıb,
O axdıqca qəlbimizi oda yaxıb.
"Bir gözümü qurban dedim sənə, ey yar",
Deyən aşiq sandı özün çox bəxtiyar.
Mən ki, səni heç bir kəsə qıymamışam,
Səndən yaxşı mən heç kəsi duymamışam.
Kirpik olub qorumuşam səni oddan,
Bəd nəzərdən, əsən yeldən, namərd yaddan.
Sadiq oldum ömrüm boyu bil ki, sənə,
Bəs nə oldu?- Dönük çıxdın sən də mənə?..

Axı niyə?.. Sən də məndən üz döndərdin?..
Məni zülmət qaranlığa sən göndərdin...
Partla, ürək! Dostun sənə xilaf çıxdı,
O şəkərli ürəyimi yaman sıxdı.
Dar ayaqda məni yaman atdın oda,
Gözüm, sənə dedim bu gün mən «Əlvida!»
Ey insanlar! Başım üstdən yazıb asın:
“Bu gün mənim ömrümə heç yazılmasın!”
Çingiz həkim! Əlac qalıb ancaq sizə,
Nur bəxş edən, şəfa verən əlinizə...

Gözlərimdə əməliyyat olunanda,
Bu gözlərim bağlı olan həmin anda,
Düşündüm ki, görməm daha başa çatdı,
Heyhat, sanki vuran qəlbim sönüb yatdı.
Tanrım! Gözsüz bu həyatı mən duymadım,
Həmin günü mən ömrümdən heç saymadım.
Gözdən məhrum olanlara arzum budur,
Tanrım Sizə şəfa versin! Arzum odur.
Hər qaranlıq bir gecənin sabahı var,
Hər sabahda gecələrin günahı var.
Nələr çəkdim, çox düşündüm həmin gecə?..
Allahıma çox yalvardım mən gizlicə.
Yalvarırdım gözümdən lent açılarkən,
Bu həyatı görüm bir də yenidən mən.
Lent açıldı, hər bir şeyi olduğutək,
Gördü gözüm, hey çırpındı, vurdu ürək.





Fikirlərin qucağında yata- yata,
Elə bil ki, yenə gəldim bu həyata.
Həmin anı ən sevincli anım sandım,
Zənn etdim ki, elə bu an mən yarandım.

Əhsən sizin o şəfalı, məlhəm olan mərd əllərə,
Qəlb oxşayan, xəstələrə ümid verən xoş dillərə.
İnsanlara şəfa vermək bu dünyada savab işdir,
Bu kəlamı ta qədimdən üləmalar düz demişdir.
İnsanlara gözəlliyi bəxş eləmək müqəddəs iş,-
Bundan yaxşı hələ heç kəs bir müqəddəs iş görməmiş.
İnsanlara şəfa üçün sən gəlmisən bu cahana,
Sən onlara şəfa verib, örnək oldun bu zamana.
Gözdən əziz heç nə yoxdur bu dünyada, hamı bilir,
Adın gələn məclislərdə gözlər gülür, qəlblər gülür.
Bəxş edirsən insanlara həyat nuru, gözəlliyi,
Təbiətdə Haqqdan gələn əsrarəngiz özəlliyi.
Loğman əlin gözümüzə şəfa verdi, nur çilədi,
Ürəyin xoş niyyət ilə aydın səma, gün dilədi.
Köhnə dostum! Qəlbim heç vaxt qəbul etməz dönükləri,
Nadanları, zaman qulu, qab yalayan ənikləri.
İndi daha aydın görrəm xəbislərin iç üzünü,
Hər addımda dona girən murdarların bic üzünü.
Sən göstərdin iblisləri mələk donda, mən inandım,
Nəmrudları, padoşları, qaloşları bir “ər” sandım.
Söylə məni kim aldadıb? Sənmi, yoxsa ürəyimmi?
Varlığımla inandığım saf əqidəm, diləyimmi?
Cahangirlər qılınc vurur, azadlığın xatirinə,

Minillərdir, nurlu işıq zülmətlərə gərir sinə.
Zəncirlənmiş Prometey də nərə çəkib daş qəfəsdə,
Milyonlara qürur verdi, mərdlik vardı o nəfəsdə.
Zalım namərd, nadanların başlarına od ələdi,
Hünərilə od gətirdi, qaranlığa nur çilədi.
Sən ey həkim! Əllərinlə gözümüzə şəfa verdin,
Qəlbimizdə yuva qurdun, dərdimizə sinə gərdin.
Həyat eşqin- insanlara həmdəm olmaq çətin anda,
Xeyirxahlıq amalıyla ömr edirsən bu cahanda.
Şəfa verən o əllərin ürəyinlə qoy var olsun,
Nicat tapan insanların sevinc ilə gözü dolsun!..

## ƏLİ NURİYEVƏ

*Azərbaycan MEA-nın müxbir üzvü,*
*i.e.d., prof., əməkdar elm xadimi*

Günəş öz nurunu salanda Aya,
Horadiz kəndində gəldin dünyaya.
Qohum- əqrəbalar gəldi bu haya.
Gənclikdən olmusan imdada yetən,
Sizinlə fəxr edir bu doğma vətən.

İmamın adını daşıyırsınız,
İmamı, inamı haqq sayırsınız.
Halal zəhmət ilə yaşayırsınız,
Bunları dərk etməz hər yoldan ötən.
Sizinlə fəxr edir bu doğma vətən.





İqtisad elminin özü bir ümman,
Bağlandın bu elmə qəlbən, hər zaman.
Yolunda can qoydun onun hər bir an,
Tutmusan bu elmi həyatınla tən,
Sizinlə fəxr edir bu doğma vətən.

Elmdir həyatda ən qiymətli zər,
Onun qüdrətilə ucalır bəşər.
Burda sözlərimi deyim müxtəsər:
Cəfakeş alimsən, sən, həqiqətən,
Sizinlə fəxr edir bu doğma vətən.

Müqəddəs sanırdın sən öz ananı,
Sənə varlığılə candan yananı.
Aldın qələminə sən bu "İnsan"ı,
Ona həsr eylədin əsərini sən,
Sizinlə fəxr edir bu doğma vətən.

Elminlə gül açıb hər dağın, daşın,
Fəxr edir səninlə qohum- qardaşın,
Çox mübarək olsun yetmiş beş yaşın,
Bütün varlığımla deyirəm ki, mən:
-Sizinlə fəxr edir bu doğma vətən.

## ELÇİN İSGƏNDƏRZADƏYƏ

*Texnika e.d. və f.e.d.prof.,*
*bir çox Beynəlxalq Eimlər*
*Akademiyalarının akademiki*

Turana bir arxa gətirib səni,
Azdır sənin kimi sevən vətəni.
Əllini ər kimi, məğrur yaşadın,
Qürurla çəkilir hər yerdə adın.

Elmin göylərində şimşəktək çaxdın,
Alimtək canını odlara yaxdın,
Halaldır elmdən yoğrulan taxtın,
Alimlik adından heç vaxt doymadın,
Qürurla çəkilir hər yerdə adın.

Sən mühəndis kimi kəşflər etdin,
Neçə imkansızın dadına yetdin,
Haqqın dərgahına səcdəyə getdin,
Naşirtək, rəssamtək xalqa yaradın,
Qürurla çəkilir hər yerdə adın.

Ərinmək, yorulmaq bilmirsən bir an,
Namərdə, nakəsə vermirsən aman.
Əsil qiymətini verəcək zaman,
Nadanı, xəbisi əsla saymadın,
Qürurla çəkilir hər yerdə adın.





Türkçülük olubdur amalın sənin,
Ellərə örnəkdir kamalın sənin,
Haqdan nur alıbdır camalın sənin,
Həmişə, hər yerdə haqqı aradın,
Qürurla çəkilir hər yerdə adın.

Harda zəhmət varsa, orda zəfər var,
Qeyrət zəfərində hünər, təpər var,
Sənin həyatında min bir səfər var,
Şairtək ölkələr gəzdin, parladın,
Qürurla çəkilir hər yerdə adın.

Ayşənin, Aydanın, Əlin var olsun!
Görüm daim onlar bəxtiyar olsun!
Yaradan həmişə sizə yar olsun!
Səninlə fəxr edir hər bir övladın,
Səni qəlbən sevir qohumun, yadın,
Qürurla çəkilir hər yerdə adın.

## BAHAR GƏLİR

Xalqımın sevinci dönübdür selə-
Gözəl bahar gəlir obaya, elə,
Yazın su çilləsi müjdədir gülə,
Güllərə can verən novbahar gəlir,
Gözlərdən həsrəti, kədəri silir.

Yazı, od çilləsi həkk edir yada,
Gedir zimistanlar, çevrilir yada.
Ümid bəslənilir alova, oda,
İllərə can verən novbahar gəlir,
Günəşdən nur alır zülməti dəlir.

İnsana küləklər xoş xəbər verdi,
Gül açdı arzusu, yox oldu dərdi,
Könül bağçasından gül-çiçək dərdi,
Sellərə can verən novbahar gəlir,
Bunu Tanrı özü xoş dilək bilir.

Torpaq çilləsi də bir vüsət aldı,
Suyu, odu, yeli qoynuna aldı,
Baxdı sabahına xəyala daldı,
Çöllərə can verən novbahar gəlir,
Torpağa gül-çiçək, şirin bar gəlir.

İnqilab, vətənin zimistan olmaz,
Yurdun bir bağdır ki, gülləri solmaz.
Qarabağ düyünü sabaha qalmaz,
Ellərə can verən novbahar gəlir,
Təbiət oyanır, könüllər gülür.





## VAR

Ömür payın bənzəri var bir ilə,
Yazı, yayı, payızı var, qışı var.
Uşaq, gənclik, orta, ahıl dəmiylə,
Dörd fəsli yaşayan, olar bəxtiyar,
Hər dövrün özünün, öz naxışı var.

Yaz gələndə həyat özü oyanar,
Yay olanda yaşıl dona boyanar.
Barın yığan payız özün şah sanar,
Qış fəslinin sevinc, kədər yaşı var.
Dörd fəsilin bir il ömür yaşı var.

Uşaq özü bahar kimi gül açar,
Gənclik yaydır tikər, qurar, nur saçar.
Payız ömrü orta yaşdır, barlaşar,
Qışda qocalığın can təlaşı var,
İnqilab anılar söz yaddaşı var.

## ŞAMAXI

Qoynunda boy atdın uca dağların,
Cənnət məkanıdır bağça-bağların,
Xəstəyə dərmandır buz bulaqların,
Tanrı xilqətindən yarandın, axı,
Şənindən söz açır dillər, Şamaxı.

Bir vaxt sən olmusan ölkə paytaxtı,
Köksündə yer tutdu Şirvanşah taxtı,
Zəfərin düşməni odlara yaxdı,
Uğurun susdurdu zülmükar şahı,
Şənindən söz açır dillər, Şamaxı.

Sabir, Seyid Əzim səndə boy atdı,
Yeni poeziya, məktəb yaratdı,
Ürək arzusuna, kamına çatdı,
Ötdü Mirzə Hüseyn Motsartı, Baxı
Şənindən söz açır dillər, Şamaxı.

Alimlər beşiyi oldun əzəldən,
Şairlər söz açdı min bir gözəldən,
Adın nəğmə kimi düşməyir dildən,
Səninlə fəxr edir ellər, Şamaxı,
Şənindən söz açır dillər, Şamaxı.

İnqilab adından güc, ilham aldı,
Pirlər diyarına yolunu saldı,
Pirqulu dağında xəyala daldı,
Hüsnünü bəzəyir güllər, Şamaxı,
Şənindən söz açır dillər, Şamaxı.





## T U R A C

Üz tutub günəşə, ulduza, aya,
Ox kimi millənib qalxıb havaya,
Boylanıb ormana, dənizə, çaya
Səmada qol-qanad açırsan, turac,
İnsafsız ovçudan qaçırsan, turac.

Sənsən təbiətin gözəllik tacı,
Qırqovula bacı, bülbülə bacı,
Dərdli ürəklərin oldun əlacı,
Özünə vurğunuq, səsinə möhtac,
Sən başdan ayağa aləmsən, turac.

Təbiət hər şeyi yaradır qoşa,
Qu quşu sizlərə örnək, tamaşa,
Dayanıb üz- üzə gəlirsiz cuşa,
Nəğmənlə könüllər açırsan, turac,
Qəlblərə nur, şəfəq saçırsan turac.

Nəğməniz köklənir muğamat üstə,
Bəzən zildən gəlir, bəzən ahəstə,
Tərif etsələr də bülbülü səsdə,
Şirin avazınla carsan, ay turac,
Nə yaxşı həyatda varsan, ay turac.

Səninlə təbiət fəxr edir hər an,
Üstündə yar olsun daim Yaradan,
İnqilab adına yazar min dastan,
Düzlərə, çəmənə sən zərli bir tac,
Çölə yaraşıqsan turac, ay turac.

## DÜNYADA

Yaz, yay arxasınca gəlir payız, qış,
Qışda çovğun olur, yazda da yağış.
Qurub yaradana deyirlər alqış,
Xeyirxah insanlar çatar imdada,
Onların əməli yaşar dünyada.

Dağsız aran olmaz, aransız da dağ,
Qoyma kötük üstə doğrana budaq,
Sındırıb qəlbləri eyləmə dustaq,
Xəyanət edənlər düşürlər oda,
Onlar ləkə kimi qalır dünyada.

Dünyaya hökm edib Süleyman özü,
Gəzib dodaqlarda hikmətli sözü,
Aləmə nur saçıb şəfalı gözü,
Xilaskar layiqdir şərəfli ada,
Onların adları qalar dünyada.

Dünyaya gəl baxma varın gözüylə,
Evləri uçurma namərd sözüylə,
İşini düz apar Haqqın özüylə,
Vəfasız olanlar çevrilər yada,
Bu da bir qaydadır bəli, dünyada.





Əhdə sadiq olsan, xoşbəxt olarsan,
Yaddaşda silinməz xoş iz salarsan,
Haqqın dərgahında daim qalarsan,
Əhdinə sadiqlər yetişər dada,
Onlar uca olur hər an dünyada.

İnqilab əbədi heç kəs qalmayır,
Dünyada daimi məskən salmayır,
Heç kim sona qədər zəfər çalmayır,-
Comərdlər ömrünü verməyir bada.
Onlarla fəxr edir ulu dünya da.

## ƏKSİNİ GÖZÜMƏ KÖCÜRMÜŞƏM, MƏN!

*Bacım Dilbərin əziz xatirəsinə*

Sənin solğun çöhrən sarsıtdı məni,
Zənn etdim, son dəfə görürəm səni.
Gəldi göz önümə bağçalı bağlar,
Sənin bülbül kimi ötdüyün çağlar.
Hamı həsrət ilə baxardı sənə,
Aləmə nur saçan gözəl hüsnünə.
Tanrı bəxş etmişdi sənə qaməti,
Elə təskin olan gül təravəti.
Bənzərin var idi bağçada gülə,
Sən ilham verərdin şeyda bülbülə.
Gözəllər gözəli deyiblər sənə,
Oxşarın var idi Gözəl nənənə.

Həmişə danışıb gülərdin, bacı,
Gülüşün olardı dərdlər əlacı.
Bu günsə dinmirsən, gülmürsən, bacı?!
Mən səni sanıram başımın tacı
Başını şah qaldır əvvəlki kimi,
Mənimlə söhbət et qəlbən, səmimi.
Hiss etdim ağrı var xəstə canında.
Bir xeyli oturdum sənin yanında,
Tanrı hər insana bir ömür yazır,
Onun tale yolun O, özü cızır.
Ayrıldım mən səndən dərd-qəm içində,
Demədin dərdini, çəkdin içində.
... Tel açdım, səninlə danışdım yenə,
Hər sözün təsəlli olurdu mənə.
Sən axı deyirdin hələ yaxşıyam,
Övladlar yanımda sönməyən bir şam.
Onlar qulluq edir gündüz və gecə,
Razıyam onlardan, bilirsən necə?!
Övladlar yazını poza bilmədi,
Onların üzünə tale gülmədi.
Sən mənə həm ana, həm bacı oldun,
Dərdimə bələndin, saralıb soldun.
Anamın tamını alırdım səndən,
Bu gün əsirgədin sən onu məndən.
Bu həyat mənə də düşmən kəsilmiş,
Mənə bu kədəri o, qismət bilmiş.
Necə də amansız olurmuş həyat,
Bu yanda matəmdir, o yanda büsat.
Ərinlə yaşadın düz altmış bir il,





Bunun özü də heç az ömür deyil.
Son nəfəs anında vəsiyyət etdin,
Oğlun Allahyarın yanına getdin.
Dedin ki, dünyadan o, nakam köçüb,
Ayrılıq şərbətin o, nakam içib.
Orda da qayğısın çəkəcəm özüm,
Üstündə olacaq həmişə gözüm.
Qəhrəman anaydın sən bu dünyada,
Heç vaxt əyilmədin naqisə, yada.
Hamıya dərs oldu arzu, diləyin,
Belini sən qırdın zalım fələyin.
Yenə də dərs verdin analara sən,
Onlar ibrət alar sənin irsindən.
Atam, anam getdi, qardaşlar getdi,
Bacım can evimi viranə etdi.
Yoxluğun qəlbimi yaman dağladı,
El-oba başına qara bağladı.

Gözüm axtaracaq həyatda səni,
Əziz tutacağam vida kəlməni.
«Özünə qulaq as!»,- son anda dedin,
Sonra da nə qədər qəm-qüssə yedin.
Şərəfli ad qoydun sən bu həyatda,
Son gedişin məni salsa da oda.
Ruhun qarşısında baş əyirəm mən,
Qohumlar dərs alar əməllərindən.
Ruhunu qəlbimə içirmişəm mən,
Əksini gözümə köçürmüşəm mən!

Vətən nəğmə idi dil- dodağında,
Vardı lalə rəngi al yanağında,
Bağa yol salardın bahar çağında,
Dünyadan köçəndə güllər ağladı.

Dinləyən doymazdı söz, söhbətindən,
Elə sevgi dolu məhəbbətindən,
Qəlbləri ovudan səxavətindən,
Şənindən söz açan dillər ağladı.

Ağbircək, qəhrəman anaydın, ana!
Qayğını xoş məlhəm sanardın cana,
Ömrünü həsr etdin elə, obana,
Səni övlad sanan ellər ağladı,
Qəlbimin sazında tellər ağladı.

*12 avqust 2008-ci il,*
*Ağcabədi rayonu, Hüsülü kəndi*

## NƏVƏM ƏLİYƏ

Yeganə oğlumun tər gül balası,
Olasan elimin ümid qalası,
Millətin əzəmət, qeyrət qalası,
Həmişə qələbə çalasan, Əli,
Qürürum, şöhrətim olasan, Əli.





Uşaqlıq adımla çağırdım səni,
Qovuşdur ağ günə doğma vətəni,
Şad etsin hər zaman uğurun məni,
Düşməndən qisası alasan, Əli,
Xoş arzum, niyyətim olasan, Əli.

Tanrım çox görməsin səni babana,
Arxa ol elinə, doğma obana,
Sən güvənc yeri ol, ata-anana,
Baban tək şəhərlər salasan, Əli,
Tükənməz dövlətim olasan, Əli.

Sənin toyunu da görəydim barı,
Sən oğlum Faiqin əzəl madarı,
Nənənin sevinçi, əzmi, vüqarı,
Ahıllar yaşına dolasan, Əli,
Şərəfim, izzətim olasan Əli.

Özün ləl, cəvahir, sözün bir inci,
Qələbə çalmaqda sən ol birinçi,
Əlində parlasın Əli qılıncı,
İnqilab babanın əziz sevinşi,
Tarixdə əbədi qalasan, Əli,
Fəxrim, qətiyyətim olasan, Əli.

# Təcnislər

## A T A

Üç müqəddəs varlıq vardır həyatda,-
Bir vətəndir, bir anadır, bir ata.
Hər üçünə beyət edir həyat da,
Çalış qoyma, nadan ona şər ata.

Yaşamışam, eyləmişəm mən üz ağ,
Çıxdım neçə döyüşlərdən mən üz ağ.
Düşdü düşmən vətənimdən çox uzaq
Məni qəlbdən inanmıram xalq ata.

Müqəddəsdir, ana torpaq, qalandı,
Vətən üçün qəlbim oda qalandı,
Millət dərdi ürəyimdə qalandı
Qayğı çəkən olar xalqa bir ata.

Sakit otur, danış aram, yaz aram,
Yar eşqini bu qəlbimə yazaram,
Ürəkləri fəth eyləyən yazaram,
Qoymaram ki, qələm kimə şər ata.





Ay İnqilab, mərdlər ilə cörək kəs,
Sənə pislik edə bilməz özgə kəs,
Düşməninlə hesabını özün kəs,
Nərə çəkib Koroğlutək min ata.

## YARANDI

Yarın gözü mənə baxdı, süzüldü,
Məftun oldum, bir əfsanə yarandı.
Eşqi axıb ürəyimə süzüldü,
Məcnun etdi mən yazığı, yar andı.

Gül bağında tər gül üzən Güləndam,
Tanrım verib sən gözələ gül əndam,
Sən gedən ev olacaqdır gülən dam,
Məni görüb xoşbəxt günü yar andı.

Ziyarətə hava yolu «Azal»dı,
Yarla uçduq vaxtımızı az aldı.
Əhdə çatdıq, dərdi-sərim azaldı,
Aləm mənə qibtə etdi, yarındı.

Məhəbbətin mənası çox dərindi,
Sevdamızın çiçəyini dər indi,
İnsaf elə, nəfəsini dər indi,
Cəllad olub eşqin qəlbi yarandı.

Payız gəldi, hava daha sərindi,
Yığ gülləri sinəm üstə sər indii.
Gülüm, sanma, eşqim sənə sərindi,
İnqilabam, qəlbimdəki yarandı.

## SARI

Yar gəlmədi, qanım yaman qaraldı,
Yaşıl meşə dərddən geydi tül sarı.[9]
Eşq evimi boran aldı, qar aldı,
Gördü məni, nalə çəkdi bil, sarı.[10]

Yollarımı dağ- arandan salmışam,
Dağ qoynunda gözəl şəhər salmışam.
Dəryalarda əriməyən salmışam[11],
Nigaranam anam sarı, el sarı[12].

Eşqin ilə bu dağları yararam,
Gözəl pərim, hər dərdinə yararam,
Eşq eylədi mən yazığı yara ram,
Nəzmə çəkdi bu aşiqi tel sarı[13].

---

[9] *rəng*
[10] *bülbül*
[11] *buz*
[12] *ötəriü*
[13] *sarı sim*





Dağ döşündə yenə gördüm Şahnazı,
Qul eylədi mən yazığı şah nazı,
Onun üçün mən oxudum «Şahnaz»ı,
İnsaf eylə, öz yarına dön sarı[14].

Dağ döşündə lalə kimi gözəlsən,
Ürəkləri fəth eləyən göz-əlsən[15],
Bir rəhm eylə İnqilaba, gözəl, sən,
Ürəyinin yarasını gəl sarı[16].

## MAYA

Tanrı səni tək yaradıb cahanda,
Billür buxaq, alma yanaq, ağ maya.
Gül hüsnünə səcdə edir cahan da,
Gəl hazır ol, toy-düyünlü «Bir May»a.

Birgə olsaq, həsrətimi ataram,
Ziyarətdə şeytana daş ataram,
Etmə məni, ay insafsız, ata ram,
Sevgi üçün gözəl sənsən, ağ maya.

---

[14] *tərəf*
[15] *sehrli əl (Tofiq Dadaşov)*
[16] *sarğı*

Bir şöhrətsən bu obaya, bu elə,
Bu könlümə çarə elə, gəl, elə.
Boşboğazlar danışarlar hey elə,
Təmiz eşqə qoyma düşə pis maya.

Payız gəldi, yaşıl bağlar saraldı,
Qəlb evimi qurd- quş aldı, sar aldı.
Dərd əlindən gülər üzüm saraldı,
İnqilaba qəsd eləmə, sən, Maya.

## AĞARDI

Eşqə düşdüm, yar vədinə inandım,
Hey gözlədim, sübhün yeri ağardı.
Bütün gecə, yar vədini mən andım,
Yar gözləmək necə çətin, ağırdı.

Məcnun oldum mən eşqimin bağında,
Səbri bitdi gözlədiyim bağın da,
Gözüm qaldı tül donunun bağında
Yar gəlmədi, al yanağım ağardı.

Vəfa qılsa eşqə sadiq qalaram,
Ürəyimi eşq oduna qalaram,
Bir qul olub, yar yanında qalaram,
Kəsilməsin ağ günlərin ağ ardı.





Yarın qaşı kaman kimi çatmadı,
Gözləməyə bəlkə ömrü çatmadı,
İnqilabın, əli yara çatmadı,
Dərd əlindən, saç-saqqalı ağardı.

## YARADI

Məftun oldum qələm qaşa, gül üzə,
Mənim sözüm heç kəsə yox, yaradı.
Danışanda insaf eylə, gül üzə,
Bir mələkdir ismi - pünhan yar adı.

Yar gəlmədi, qanım yaman qaraldı,
Bu qəlbimi duman aldı, qar aldı,
Axşam oldu, hava yaman qaraldı,
O göndərən libas bizə yaradı.

Gözüm yarı aram-aram aradı,
Gözdən qəlbə ölcü bilməz aradı.
İnqilabam, məni sıxır ar adı,
Pünhan sevdim, artıq qəlbim yaradı.

## ÜZÜM

Ermənilər Qarabağa gəlmədi,
Onlar gəldi, yoxa çıxdı nar, üzüm,
Doğma yurddan xoş xəbərlər gəlmədi,
Tanrım! Qoyma, qəm gölündə mən üzüm.

Düşmən gəldi, gül bağımı budadı,
Elə bildim fələk məni budadı.
Zəhər oldu ağzımızın bu dadı,
Vicdan qoymaz Qarabağdan əl üzüm.

Döyüşlərdə at belinə yataram,
Zəfər çalıb el qəlbinə yataram,
O dünyada mən rahatça yataram,
İnqilabam, ağ olubdur ağ üzüm.

## YERİ

Bir cənnətdir bu meşələr, bu dağlar,
Tanrı bizə bəxş eləyib bu yeri.
Bu torpaqlar düşmənləri budaxlar,
Sən bu yerdə düz addımla, düz yeri.

Qarabağın çəmənləri çalmadı,
O yerlərdə düşmən zəfər çalmadı,
Yağı ora bir mıxça da çalmadı,
Qoymadılar dar günə bir üz yeri.





Türk övladı bu yerlərə gərəkdi,
Toxum səpdi, gül becərdi, gər[17*] əkdi,
Yaxşı işə qiymət vermək gərəkdi,
İnqilabın bilinəçək öz yeri.

## Ç A L A R A M

Mənim kimi eşq oduna qalansan,
Əğyarımı ilan kimi çalaram.
Ürəyimi bir alınmaz qalan, san,
Düşmənimə tez qələbə çalaram.

Vəfa qıldı, gül camallım Qaratel,
Gül üzünə çox yaraşır qara tel.
O, eylədi bu qəlbimi qarət el,
Telli sazım, asta danış, çal aram.

O da mənim eşq oduma qalandı,
Dedim, gözəl, bu qəlbim bir qalandı.
Xoş sevdamız dünyamızda qalandı,
İnqilabam, qəlb sazımı çalaram.

---

[17] *gər* - ağac

# Mahnılar

## MAHNI NƏDİR?

Şair anasıdır hər gözəl şeirin,
Orda izhar edir sevinc- kədərin.
Bəstəkar oxuyub bəyənir onu,
Geydirir əyninə "musiqi donu".
Müğənnilər üçün onu yar edir,
Haqqın dərgahına səcdəyə gedir.
Dirijor onlara xoş layla çalır,
Qayınana kimi qeydinə qalır.
Mahnılar yaranır həmişə belə,
Şan- şöhrət gətirir doğmaca elə.
Ürəklər fəth edir obada, eldə,
Dolanır elləri dodaqda, dildə.
Dalğalar qoynunda qol- qanad açır,
Sevən könüllərə nur, şəfəq saçır.
Gözəl mahnıları könüllər sevir.
Millətlər, ölkələr, bölgələr sevir.
Ona baxmayırlar əsla yad kimi,
Qoruyurlar onu bir övlad kimi.
Mahnısız bir ömür, heç ömür deyil,
Adı insanlığa bir ləkədir, bil.





## MƏNİM ÜÇRƏNGLİ BAYRAĞIM

*Musiqisi Mətanət Dadaşovanındır*
*İlk dəfə ifa edib: Respublikanın əməkdar*
*artisti Təyyar Bayramov*

Vətənimin qürurusan,-
Mənim üçrəngli bayrağım.
Xalqım kimi sən ulusan
Mənim üçrəngli bayrağım.

Türkçülüyə sadiq qaldın,
Din - İslamdan ilham aldın.
Azadlıqda məskən saldın,
Mənim üçrəngli bayrağım

Hilalından nur çilənir,
Ulduzundan bəxt dilənir.
Hər rəngindən gül ələnir,
Mənim üçrəngli bayrağım

Bayraqlardan ən ucasan,
Tarix qədər sən qocasan.
Sən əbədi olacaqsan,
Mənim üçrəngli bayrağım.

Xalqım səndən ilham alır,
Qələbəyə yollar salır.
Xəzər sənə lay-lay çalır,
Mənim üçrəngli bayrağım

Başım üstə daim varsan,
Zülmətləri qopararsan,
Gələcəyə apararsa
Mənim üçrəngli bayrağım

**ƏKİZ QARDAŞ:**
**AZƏRBAYCAN- TÜRKİYƏ!**

(Mahnı – Marş)

Bir atadan, bir anadan doğulduz,
Əkiz qardaş: Azərbaycan- Türkiyə!
Fırtınadan, od- alovdan yoğrulduz,
Əkiz qardaş: Azərbaycan- Türkiyə!

İki dövlət, bir millətsiz əzəldən,
Tanrım sizi hifz eləsin nəzərdən!
Bakım sizə salam verir Xəzərdən,
Əkiz qardaş: Azərbaycan- Türkiyə!

*Nəqarət*

Ulu türküm, de sözünü, zamandır,
Başın üstün bulud alıb, dumandır.
Ömür boyu ayrılmayın, amandır,
Əkiz qardaş: Azərbaycan- Türkiyə!





Tanrım sizə bəxş eləyib hər nə var,
Özü olub üstünüzdə daim yar.
Övladların ömür sürür bəxtiyar,
Əkiz qardaş: Azərbaycan- Türkiyə!

Çox quzğunlar həmlə çəkdi üstünə,
Gecə- gündüz onlar durdu qəsdinə.
İstədilər isinsinlər tüstünə,-
Əkiz qardaş: Azərbaycan- Türkiyə!

Ərənlərin tarixlərə örnəkdir.
Sülh quşutək bu dünyaya gərəkdir.
Azərbaycan- Türkiyə bir ürəkdir
Əkiz qardaş: Azərbaycan- Türkiyə!
Əkiz qardaş: Azərbaycan- Türkiyə!

## Q I Z I L  K Ə M Ə R

(Bakı-Ceyhan)
Mahnı

*Musiqisi prof., Azərbaycanin xalq artisti*
*Nəriman Məmmədovundur*
*İlk dəfə ifa edib: görkəmli müğənni*
*Tağı Salehoğlu*

Memarındır Ulu Öndər,
Nemətimi dosta göndər,
Qardaş eli gülə döndər,
Dünya aləm olub heyran,-
Alqış sənə Bakı-Ceyhan!

*Nəqarət:*

Əhsən mahir memarına!
Minnətdardır hamı ona
Elin xilaskar oğluna!
Fəxr edirik adı ilə,
Adı artıq düşüb dilə.

Üç qardaşı dost elədin,
Qəlblərinə nur çilədin,
Aləmə xoş gün dilədin,
Adın olub dildə dastan,-
Alqış sənə Bakı-Ceyhan!





*Nəqarət:*

Bizə oldun şöhrət, ad, san,
Ölkələrə verirsən can,
Qiymətini verir zaman,
Səni təbrik edir cahan,-
Alqış sənə Bakı – Ceyhan!

*Nəqarət:*

*8 may 2006-cı il*

## QƏHRƏMAN OĞLUSAN AZƏRBAYCANIN

*Azərbaycanın Milli Qəhrəmanı Çingiz*
*Mustafayevə həsr olunub.*

*Musuqisi prof. xalq artisti Nəriman*
*Məmmədovundur.*

Döyüş meydanında atıldın oda,
Qənim kəsilmişdin qaniçən yada,
Adın igid kimi qaldı dünyada,
Xalqım əhsən dedi cəsarətinə,
Sənin qeyrətinə, sücaətinə.

*Nəqarət:*

*Nakam getdin, izin qaldı,*
*Könüllərdə sözün qaldı,*
*Çalınmamış sazın qaldı,*
*Ağ olubdur eldə üzün,*
*Fəxrimizsən, Çingiz, özün.*

Oldun cəbhələrdə mətin, qəhrəman,
Silahın kamera - çiynində hər an,
Millətdə yaratdın zəfərə inam,
Xalqım əhsən dedi cəsarətinə,
Sənin qeyrətinə, sücaətinə.

*Nəqarət*

Dar gündə vətənin karına gəldin,
Gözlərdən qəm-qüssə yaşını sildin,
Ölkəmdə həmişə sevib- sevildin,
Xalqım əhsən dedi cəsarətinə,
Sənin qeyrətinə, sücaətinə.

*Nəqarət*

Dildə nəğmələşdi şöhrətin, şanın,
Qələbə eşqilə çağladı qanın,
Qəhrəman oğlusan Azərbaycanın!
Xalqım əhsən dedi cəsarətinə,
Sənin qeyrətinə, sücayətinə.

*Nəqarət*





**A BÜLBÜL**

*İlk dəfə Respublikanın xalq aristi*
*Gülyaz Məmmədova ifa edib*

Bu gün səni gördüm dağlar başında,
Lütfün sehri vardı qələm qaşında
Məni qərq elədin həsrət yaşında.
Eşqinlə dönmüşəm şikara, bülbül,
İnsaf et, yenə də oxu, a bülbül!

Camalın Günəşdən sanki pay alır,
Sevən aşiqləri min dərdə salır,
Könül rübabını eşqinlə çalır,
Səsinlə qoy çatım kamala , bülbül,
İnsaf et, yenə də oxu, a bülbül!

Dağlar diyarının sənsən maralı,
Mənim gözlərimdən olma aralı,
Divanə könlümü etmə yaralı,
Səninlə çatacam cəlala, bülbül,
İnsaf et, yenə də oxu, a bülbül!

Kəmər çox yaraşır incə belinə,
Vuruldum mən sənin şəkər dilinə,
Maral duruşuna, şəhvə telinə
Nə gözəl yaraşır bədəninə tül,
İnsaf et, yenə də oxu, a bülbül!

Sən gələn yollara güllər düzərəm,
Sənin hər cəfana bil ki, dözərəm,
Dəli Məcnun kimi səni süzərəm,
Gəl məni sən çatdır amala, bülbül,
İnsaf et, yenə də oxu, a bülbül!

Cəh- cəhin can alır, ay el gözəli,
Gülüşün şəkərdir, sözün məzəli,
Müqəddəs eşqimin sənsən əzəli,
Çatdır İnqilabı vüsala, bülbül,
İnsaf et, yenə də oxu, a bülbül!

## OXU, BÜLBÜL, MUĞAMLARDAN GÜC ALIM

*Musiqisi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru SəadətTəhmirazqızınındır*
*İlk dəfə ifa edib: müğənni Təhmiraz Şirinov*

Muğam adlı möcüzəyə vuruldum,
Dərk eylədim hikmətini, duruldum,
Bir alınmaz qala kimi quruldum.
Oxu, bülbül, muğamlardan güc alım,
Şəfa tapsın ürəyimdə məlalım.

Müqəddəsdir muğam adlı abidə,
Döndüm onun qarşısında abidə,
Bildim nədir inam, məslək, əqidə,
Oxu bülbül, muğamlardan güc alım,
Haqqın ulu dərgahına ucalım.





Yeddi qardaş, beş bacıdır əzəldən,
Həm də nazlı «Nəva» kimi gözəldən,
Doqquz zərbi birləşdirən «Göz əl»dən,
Oxu, bülbül, muğamlardan güc alım,
Həm bəmində, həm zilində yurd salım.

Qəvvas kimi baş vurdum o ümmana,
Məlhəm olub qida verdi bu cana,
O, çevrildi damarımda al qana,
Oxu, bülbül, muğamlardan güc alım,
Muğam qoymaz heç bir zaman qocalım.

Odur mənim xoş diləyim, həyatım,
Eşq evimi nurlandıran büsatım,
Muğamatdır bu həyatda nicatım,
Oxu, bülbül, muğamlardan güc alım,
Ən müqəddəs xəyallara qoy dalım.

Muğam olub xoş dəqiqəm, xoş anım,
Ayrı düşsəm ərşə qalxar amanım,
İlham alır avazından bu canım,
Oxu, bülbül, muğamlardan güc alım,
Ayaq eylə, «Azərbaycan»[18] mən çalım.

İnqilabam, varlığımdır muğamat,
Odur mənə verən ilham, qol- qanad.
Onsuz mənə zindan olar bu həyat,
Oxu, bülbül, muğamlardan güc alım,
«Muğam» adlı o behiştdə mən qalım...

---

[18]* ”gözəl əl”- sehirli əl. “Azərbaycan”- muğamda guşə

## TÜRKÜN GÖZƏLİ

*Türk qızı Məltəm Hakarar gözəllik müsabiqəsində dünya gözəli tituluna layiq görülməsi münasibətilə*

Dünya gözəlləri səf-səf düzüldü,
Baxdıq gül hüsnünə könüllər güldü.
Qəlbin çeşməsindən zəm-zəm süzüldü,
Yarışda, qalibsən, el deyir əhsən!
Gözəllik tacını qoy başına sən.

*Nəqarət:*

Türk dünyası özü güldür,
Gözəlləri inçi, dürdür,
Gəl sevdalı qəlbi güldür,
Türk elinin, fəxrisən sən,
Bu dünyanın gözəlisən.

Tanrı xilqətindən yaratdı səni,
Hüsnün heyran etdi gülü, çəməni,
Təbrik eylədilər sənin ölkəni,
Dünya gözəlləri dərs aldı səndən,
Gözəllik tacını qoy başına sən.

*Nəqarət:*





Gözəllər gözəli dedilər sana,
Şöhrət gətirmisən elə, obana,
Qəlbimin sevinci döndü ümmana,
Nəğməm töhfə olsun Məltəmə məndən!
Gözəllik tacını qoy başına sən!

## TEZ GƏL, BAHAR

Bahar gəlir bizim yurda,
Qalmış idik boran, qarda.
Bizi qurtar, qoyma darda,
Doğma yurda tez gəl, bahar,
Vətən olsun axar-baxar.

*Nəqarət:*

Bahar gəlir, el dəyişir,
Fəsil ötür, il dəyişir,
Nəğmə deyən dil dəyişir,
Fəsillərin gözəlisən,
Sən onların əzəlisən.

Sən gəlməsən bülbül ağlar,
Çiçək açmaz bağça- bağlar,
Başı qarlı uca dağlar,
Tələs, bahar, tez gəl, bahar.
Vətən olsun axar-baxar.

*Nəqarət*

Bahar gəldi, güllər açdı,
Günəş nurun yerə saçdı,
Bülbül gülə qəlbin açdı,
Gəldin bahar, var ol, bahar,
Vətən oldu axar-baxar.

*Nəqarət*

Gəlməsəydin, gül açmazdı,
Günəş yerə nur saçmazdı,
Bülbül gülə qəlb açmazdı,
İnqilab der: var ol, bahar,
Vətən oldu axar-baxar.

## QARABAĞ ŞİKƏSTƏSİ

*İlk dəfə ifa edib: Respublikanın əməkdar artisti Səbuhi İbayev*

Əzizinəm Qarabağ,
Toy- düyünlü Qarabağ,
Xarı bülbül yurdusan,
Cənnət idin Qarabağ.

Qarabağda talan var,
Düşmən əldə qalan var,
Yoxdur arxa, köməyi
Ona balta çalan var.





Əzizinəm aran var,
Həm dağ, həm də aran var,
Sən ey cənnət Qarabağ,
Sənə qəsdə duran var.

Qarabağı anıram,
Onu canım sanıram.
Qaldı yağı əlində,
Həsrətilə yanıram.

Qarabağı aldı yağı,
Sinəmizə çəkdi dağı,
Qalx ayağa Azərbaycan!
Xilas elə Qarabağı.

## KƏLBƏCƏR

(*Aşıq mahnısı)*

Kiçik Qafqaz dağları da,
Cənnət məkan bağları da,
Xoş növraqlı çağları da
Yaraşıqdır bu yerlərə,
Doğma, əziz Kəlbəcərə.

*Nəqarət*

Gözəllikdə yoxdur tayın,
İstisuyu Tanrı payın,
Tutquçayı, Tərtər çayın,
Lal lay çalır Kəlbəcərə,
İlham alar hər dağ, dərə.

Gəlin qaya dağlar qaşı,
Keyti, Meyti cüt qardaşı,
Ağcaqızla, həm Qoçdaşı,
Yaraşıqdır doğma yerə,
Doğma, əziz Kəlbəcərə.

*Nəqarət*

Tutqu dərə, Ayrım dərə,
Hər birisi bir mənzərə,
Qalx yamaca çıx minbərə,
Xoş söz söylə gələnlərə,
Doğma, əziz Kəlbəcərə.

*Nəqarət*

Çeşmələrin can dərmanı,
Dərdə dərman, bil havanı,
Yolunda qoymuşam canı,
Ona xoş gün dilər hərə,
Doğma, əziz Kəlbəcərə.

*Nəqarət*

Sən ey Dəli, Murov dağlar,
Ayrılığın sinə dağlar,
İnqilabın qəlbi ağlar,
Bir arxadır o dağ, dərə,
Doğma, əziz Kəlbəcərə.





# Çağlayan gəncliyim gerídə qaldı...

## SEVİRƏM SƏNİ

Çox cəfa çəkmişəm, özün bilirsən,
Qəlbimi yandırır közün bilirsən
Könlümün sözünü, sözün bilirsən.
Eşqinlə bəxtəvər gəl eylə məni
İnan saf eşqimə, sevirəm səni

Axtardım mən səni, sordum bağçanda,
Məhəbbət qalası qurdum bağçanda
Bülbül kimi cəh-cəh vurdum bağçanda,
Xoş sədam qərq etdi nura çəməni
İnan saf eşqimə, sevirəm səni

Dərələr keçmişəm, dağlar aşmışam,
Daim həsrətinlə qarşılaşmışam,
San ki, dar qəfəsə salınmış quşam,
İnsafsız, xoşbəxt et səni sevəni,
İnan saf eşqimə, sevirəm səni.

Eşqin alovunda yanan közmüşəm,
A zalım, cəfana mənki dözmüşəm,
İllərdir arxanca axı gəzmişəm.
Sevgi bağçamızın ol yasəməni,
İnan saf eşqimə, sevirəm səni.

İnqilab başına dolanar sənin,
Eşqinin oduna qalanar sənin,
Ömrünə ömürtək calanar sənin
Vüsalınla xoşbəxt gəl eylə məni.
İnan saf eşqimə, sevirəm səni.

*Gəncə, 1960*

## KAŞ Kİ, YUXUM ÇİN OLAYDI...

Gördüm səni mən bu gecə,
Kaş ki, yuxum çin olaydı...
Ovsunladın məni necə,-
Kaş ki, yuxum çin olaydı...

Nəqarət

Baharda al gülüm sənsən,
Nəğmə deyən dilim sənsən,
Yurdum, yuvam, elim sənsən ,
Kaş ki, yuxum çin olaydı...





Səhər oldu, güllər açdı,
Günəş yerə şəfaq saçdı,
O qız mənə könlün açdı,
Kaş ki, yuxum çin olaydı...

Nəqarət

Gül verdi gül öz əliylə,
Bihuş oldum yar gülüylə,
“Yarım”- dedi o, diliylə,
Kaş ki, yuxum çin olaydı...

Nəqarət

İlim, günüm yoxdur onsuz,
Dərdim, qəmim çoxdur onsuz,
Həyat mənə yoxdur onsuz,
Kaş ki, yuxum çin olaydı...

Nəqarət

İnqilaba könül verdi,
Eşq evinin gülün dərdi,
Dərd- qəmimə sinə gərdi,
Kaş ki, yuxum çin olaydı...

## MƏN O ANIMDAN

Baharın xoş çağı, gül açan vaxtı,
O dünya gözəli gözümə baxdı.
Sevgisi qəlbindən qəlbimə axdı.
Gizli bir sızıltı keçdi canımdan,
Ayrıla bilmirəm mən o anımdan.

Nəqarət

Sevgiyə qərq oldum, böyükdür dərdim,
Həsrətə, sevgiyə çox sinə gərdim,
Mən eşqin bağından qəm- kədər dərdim.
Mərhəmət umuram Yaradanımdan,
Ayrıla bilmirəm mən o anımdan.

Mən onun eşqindən alışdım, yandım,
Bu eşqi özümə səcdəgah sandım,
Eşqin mənasını mən onda andım.
İlahi sevgisi çıxmır canımdan,
Ayrıla bilmirəm mən o anımdan.

Nəqarət

Baxıb süzgün- süzgün o, uzaqlaşdı,
Başımda dünyanın dərdi dolaşdı.
İnqilıab eşqindən yandı, alışdı.
Bir Məcnun sayıldım o zamanımdan,
Ayrıla bilmirəm mən o anımdan.

Nəqarət





## BİL, MƏNƏM!

Almısan əlimdən səbri, qərarı,
Salmısan kəməndə biixtiyarı,
Döndərib şikara biçarə yarı,
Eşqindən gül kimi solan, bil, mənəm!

Düşübdür saf eşqim şirin dillərə,
Yaymısan qəlbimin sözün ellərə,
Döndərib Məcnuna, salıb çöllərə
Sorağını eldən alan, bil, mənəm!

Ömrümü səninlə kaş vuram başa,
Bu əhdim dönməyə gözümdə yaşa,
Gül hüsnün gətirib qəlbimi cuşa,
Könül rübabını çalan, bil, mənəm!

Divanən olmuşam yoxdur günahım,
Dönür bir zülmətə sənsiz sabahım,
Sonsuz asimana qalxıbdır ahım,
Həsrətdən bulud tək dolan, bil mənəm!

Çəkib İnqilabı həsrətin dara,
Sevən ürəyinə vurmusan yara,
Gəl, eylə dərdinə loğman tək çara
Sənsiz dərd əlində qalan, bil, mənəm!

## BÖL YARI

Gözlərinin qarası mən, ağı mən,
Ürəyinin dərdə dərman yağı mən,
Harayının zilə qalxan çağı mən,
İnsaf elə bir peymana gəl barı,
Eşqin ilə ürəyimi böl yarı.

Məftun oldum, bulaq kimi çağladım,
Məhəbbətdən sənə çələng bağladım,
Sən yox dedin, nalə çəkib ağladım.
Səni bildim ilk eşqimin nübarı,
Qılınc götür ürəyimi böl yarı.

Gül camalın gözlərimdə qalacaq,
Eşq evimdə isti yuva salacaq,
Qəlb sazımı o, əbədi çalacaq.
Yaşat məni, ol qəlbimin dildarı,
Nəğmən ilə ürəyimi böl yarı.

Qara zülfün ağ sinəndə darandı,
Qəlbimdəki nalə çəkən yarandı,
Eşqimizdən bir əfsanə yarandı,
Pənahımsan, ol eşqimin baharı,
Sevgin ilə ürəyimi böl yarı.

Sevdim səni, ayrı düşdüm özümdən,
Nalə çəkdim sellər axdı gözümdən,
Nə dedim ki. sən incidin sözümdən.
Gəl silginən bu qəlbimdən qübarı,
İnqilabam, ürəyimi böl yarı.





## A ZALIM

Sən gözəlin müjganına tuş oldum,
Şikar etdin mən yazığı, a zalım.
İnsaf eylə, bir peymana gəl barı,
Qoşa gəzim sənlə bağı, a zalım.

Nəqarət

Sən hə desən, bulaq kimi çağlaram,
Ümidimi təkcə sənə bağlaram,
Ürəyimi eşq odunda dağlaram,
Sənsən mənim gözüm yağı, a zalım.

Gözəl deyil, bir afəti –tüləksən,
Sən gözəllər gözəlisən, mələksən,
Canlar alıb canlar verən fələksən,
Yar yarına olmaz yağı, a zalım.

Nəqarət

Mən dözərəm sənin hər bir çəfana,
Qoyma aşiq eşq oduna qalana...
İnqilabı doydurmusan sən cana,
Çəkmə sinəsinə dağı, a zalım.

## GÖZ DƏYƏR

Min nazı - qəmzəylə gələn, ay gözəl,
Qəlbimi eşqilə dələn, ay gözəl,
Sənsən bu cahana özün, tay, gözəl.
Sən gözə gələrsən, sənə göz dəyər,
Dönük çıxsan eşqim, qəddimi əyər.

Maral duruşlusan, durna baxışlı,
Ceyran yerişlisən, tovuz naxışlı,
Bir ahu mələksən, ay qələm qaşlı
Baxsan sən əğyara mənə köz dəyər,
Dönük çıxsan eşqim, qəddimi əyər.

İncimə əzizim, mənim sözümdən,
İncisən küsərəm, özüm özümdən,
Bu şirin dünya da düşər gözümdən
Eşqin sərrafısan, sənə söz dəyər.
Dönük çıxsan eşqim, qəddimi əyər.

Hüsnü- camalına olmuşam heyran,
Bu canı etmişəm tək sənə qurban,
Könlüm ilk baxışdan eyləyir tüğyan,
Qəlbim intizarla səni gözləyər,
Dönük çıxsan eşqim, qəddimi əyər.

Baxma İnqilaba sən yad nəzərlə,
Dəyişik gəl salma özgə gəzərlə
Aşiq- məşuq olmaz, başqa gözəllə
Ahım oxa dönüb sənə tez dəyər,
Dönük çıxsan eşqim, qəddimi əyər.





## QƏLBİM AĞLADI

Camalını qibləgahım bilmişəm,
Məcnun kimi dərgahına gəlmişəm,
Göz yaşımı eşqin ilə silmişəm,
Tapmadım mən səni, qəlbim çağladı,
Ürəyim dözmədi, pünhan ağladı.

Həsrətinlə can otağım talandı,
Sevən könlüm eşq oduna qalandı,
Əhdi-peyman sənin üçün yalandı,
Qəm, qüssədən, qəlbim yara bağladı,
Ürəyim dözmədi, pünhan ağladı.

Duman getdi, çiskin getdi, çən getdi,
Bu ürəyim, daş ki, deyil, bil. ətdi,
Sənsiz qalmaq mənə yaman zülm etdi.
Olmadın eşqimin darda imdadı,
Ürəyim dözmədi, pünhan ağladı.

Gəl, mələyim mən aşiqə et kərəm,
Bilirsən ki, hər nazını çəkərəm,
Mən biçarə gül hüsnünə nökərəm,
Sənsiz ürəyimin qopdu fəryadı.
Ürəyim dözmədi, pünhan ağladı.

İnqilabam, gözüm səni aradı,
Dərd əlindən qəlbim para- paradı
Vüsalımız hər dərdimə çaradı.
Hüsnün yada düşdü məni dağladı,
Ürəyim dözmədi, pünhan ağladı.

## SƏNİNLƏ HƏR DƏFƏ GÖRUŞƏNDƏ MƏN

Sanıram könlümün sultanısan sən,
Səninlə hər dəfə göruşəndə mən.
Gözumdə göylərə yuksəlirsən sən,
Bir qurur, dəyanət alıram səndən,
Səninlə hər dəfə göruşəndə mən.

Mən səni ömrümə məlhəm bilirəm,
Punhan danışıram, punhan gülürəm,
Dərdimi səninlə yarı bölürəm.
Mən eşqi, ilhamı alıram səndən.
Səninlə hər dəfə göruşəndə mən.

Sənin eşq oduna yanıram, inan,
Eşqindir yaşadan məni hər bir an,
Başımın üstündən çəkilir duman.
Günəşdə nur alır təbəssümündən,-
Səninlə hər dəfə görüşəndə mən.

Məndə var dəyanət, məndə var dözüm,
Sənin hər cəfanı çəkərəm özüm,
Sevinc yaşlarını axıdır gözüm.
Aşiqlər söz açır gözəlliyindən,-
Səninlə hər dəfə görüşəndə mən.

İnqilab ah çəkib, qəm yeməz, gülüm,
Yolunda fəxr ilə o, çəkər zülüm.
Bircə an yorulub "uf" deməz gülüm,
Sanıram göylərdən yerə enirsən,
Səninlə hər dəfə görüşəndə mən. *Ağcabədi 1966*





## DÖNMƏDİN, NİYƏ?..

Əzizim, sən getdin, bağrım oldu qan,
Qəlbimi sızlatdı ayrılıq, hicran,
De, bu ayrılığa necə dözsün can?
Qalxdı ürəyimin naləsi göyə
Dönmədin geriyə, dönmədin, niyə?...

Sənin sorağını ellərdən aldım,
Dağlarda çağlayan sellərdən aldım.
Səhralardan aldım, çöllərdən aldım,
Bəlkə yar olmusan indi özgəyə?
Dönmədin geriyə, dönmədin, niyə?..

Ahımla dəryalar alışdı yandı,
Eşq əhli məni də bir Məcnun sandı,
Sənə məftun olan ürəkdi, candı,
Qoyma ki, həsrətin qəddimi əyə,
Dönmədin geriyə, dönmədin, niyə?..

Gedişin qəlbimə vurubdur yara,
Ürək bu ağrıdann çəkilib dara,-
Neyləsin binəva qalıb biçara.
Gəl qoyma aşiqin sənsiz qəm yeyə,
Dönmədin geriyə, dönmədin, niyə?..

Zalım fələk durub yaman qəsdimə,
Böhtan, şər yağdırır daim üstümə,

Yandım sən baxmadın mənim tüstümə,
Tanrım da gəlmədi mənə köməyə,
Dönmədin geriyə, dönmədin, niyə?..

Qəm- qüssə içində dalıb xəyala,
Həsrətlə baxıram sən gedən yola.
İnam ocağımı eşqinlə qala,
İnqilab qəlbinə daim ol yiyə,
Dönmədin geriyə, dönmədin niyə?..

## QORXURAM TƏK SƏNİ İTİRMƏYİMDƏN

*İlk dəfə ifa edib gənc müğənni*
*Oksana Aslanova*

Səni sevmək üçün cahana gəldim ,
Qəlbini müqəddəs qibləgah bildim,
Gözümün yaşını eşqinlə sildim,
Əzizim, ilhamı alıram səndən,
Qorxuram tək səni itirməyimdən.

Eşqinlə çeşmə tək çağlamışam mən,
Ümidimi sənə bağlamışam mən.
Sənsiz nalə çəkib ağlamışam mən,
Bütün varlığımsan, həyatımsan sən,
Qorxuram tək səni itirməyimdən.





Deyirlər bu dünya bir pənjərədir,
İnsanlar ümidlə baxıb tərk edir,
Biganə bilməyir məhəbbət nədir?
Aşiqlər sevməyi öyrənir məndən,
Qorxuram tək səni itirməyimdən.

Sənsiz bu dünyanı mən puç sanıram,
Eşqinin oduna pünhan yanıram,
Kükrəyən tufanam, alovlanıram,
Qorxum yox ölümdən, nədə ki, qəmdən,
Qorxuram tək səni itirməyimdən.

İnqilab bağının gül butasısan,
Gəl, məni özünə bir pərvanə san.
Mən yanan atəşə sən özün də yan,
Qorxmuram ömrümü bitirməyimdən,
Qorxuram tək səni itirməyimdən.

**Deyişmə**
*(Aşıq mahnısı-Şahsevəni)*

İfa etmişlər: **Aşıq Altay Məmmədov**
**Aşıq Aidə Gülzar**

**Oğlan**: - Gül bağında gəzən gözəl,
Güllərini üzən gözəl,
Məni altdan süzən gözəl,
Olsan mənə vəfalı yar
Bizi oba, el alqışlar.

**Qız**: - Pərvanə tək odda yansan,
Vuran qəlbin məni sansan,
Qibtə edər bizə cahan,
Olsan mənə vəfalı yar,
Bizi oba, el alqışlar.

**Oğlan**: - Sənsiz qəlbim dinclik bilməz,
Vəcdə gəlib deyib-gülməz,
Saf eşqini qəlbimdə gəz,
Olsan mənə vəfalı yar,
Bizi oba, el alqışlar.

**Qız**: - Bir vüqarlı dağa dönsən,
Ətir saçan bağa dönsən,
Bir nəğməli çağa dönsən,
Olsan mənə vəfalı yar,
Bizi oba, el alqışlar.





**Oğlan**: - Mən dönərəm nur dağına,
Könül açan növraqına,
Şölə saçan çıraqına,
Olsan mənə vəfalı yar,
Bizi oba, el alqışlar.

**Qız**: - Gəl sən məni gül bağı bil,
Könüllərin xoş çağı bil,
Eşqimizin bulağı bil,
Olsan mənə vəfalı yar,
Bizi oba, el alqışlar.

**Oğlan**: - Elçi gələr bu gün sizə,
Günəş dolar üstümüzə,
Tanrı da yar olar, bizə,
Olsan mənə vəfalı yar,
Bizi oba, el alqışlar.

**Qız**: - Sənin üçün doğulmuşam,
Məhəbbətdən yoğrulmuşam,
Vüqarına vurulmuşam,
Olarıq biz vəfalı yar,
Bizi oba, el alqışlar.

**MƏNİ TƏNHA QOYUB GETMƏ, AMANDIR!**

Sən ey saf eşqilə deyib-güldüyüm,
Canını canımdan əziz bildiyim,
Eşqinlə gözümün yaşın sildiyim,
Pərvanən olmuşam, halım yamandır,
Məni tənha qoyub getmə, amandır!

Dünyanı eşqinlə gəzdim, dolaşdım,
Dərələrdən keçdim, dağlardan aşdım,
Dərdindən sel kimi çağlayıb - daşdım.
Bil, cəfa çəkirəm xeyli zamandır,
Məni tənha qoyub getmə, amandır!

Eşqinin oduna alışdım, yandım,
Hər yerdə, hər zaman mən səni andım,
Səni bu dünyanın mələyi sandım.
Görənlər dedilər bu nə fəğandır,
Məni tənha qoyub getmə, amandır!

İlhamı həmişə almışam səndən,
Bülbül ayrı gəzməz öz çəmənindən,
Verərəm bu canı, istəsən məndən.
Sənə aşiq olan ismi - cahandır,
Məni tənha qoyub getmə, amandır!

İnqilab yolunu saldı bağçaya,
Hicrandan göz yaşı döndü bir çaya
Eşqinlə ucaldı Günəşə, Aya.
Eşqinin səması qatı dumandı,
Onu tənha qoyub getmə, amandır!
Məni tənha qoyub getmə, amandır!





# Haqqın yolçusuyam, çəkil yolumdan!..

**MƏNƏ ŞEİRLƏRİ TANRIM YAZDIRIR**

Bir köhnə tanışım, dostum var idi,
Başına bu genuş dünya dar idi.
Qəzetdə şerimi o görən zaman
Tələsik zəng edib o tələkək haman,
Məni çox səmimi təbrik edərdi,
Hətta tərifdə də zilə gedərdi.
Deyərdi, sənin tək yoxdur bir yazar,
Çox adlı, – sanlılar düzəldib bazar.
Atamın göruyçün yaxşı yazırsan,
Ən yüksək rütbəyə çoxdan hazırsan.
Qarşıma nagahan o namərd çıxdı,
Xainlik xisləti qəlbini, sıxdı.
“Verdiyin kitabı oxudum ! – dedi,
Qəzəbli qəlbini qəm, qüssə yedi.
Çox xəbis nəzərlə o məni süzdü,
Könlündən keçəni bir sapa düzdü...
Dedi: - o kitabı özün yazmısan?
Katiblik yolunu yaman azmısan.

Oxudum kitabı çəkildim dara,
De bu əsər hara, axı sən hara?
Şeirlər yazılır gənclik illəri,
Yazarın tutitək ötür dilləri.
Sən isə bu qədər yaşa dolmusan,
Təşkilati işdə mahir olmusan.
İnana bilmirəm axı mən neynim,
Qüvvətli əsərdi çox çaşdı beynim...
İnanmazdım ki, sən pyes yazasan
Özü də bu qədər oxuna asan!

Qəh-qəhə çəkərək mən baxdım ona,
Dedim öz səhvini bəlkə o qana.
Tuşlandı nəzərim onun gözünə,
Bülövtək sürtülmüş murdar üzünə.
“Maral əfsanəsi” düşdü yadıma,
Ötən xatirələr çatdı dadıma.
Dedim ömrün boyu paxıl olmusan,
Bu kaftar yaşına belə dolmusan.
Kimsədən bu sözü eşitməmişəm,
Əzəldən yazmaqdır mənim ki, peşəm.
Dərdini çəkirsən sən yazarların,
Haramdan yoğrulub dövlətin, varın.
İstedad adına səndə nə var ki!
Paxıllıq, xəbislik səni boğur ki!..
Tanrı vergisiylə yazıb, yaradan,
Yaradan yanında ucalar hər an.





Ucuz ölüm istə özünə Haqdan.
Mənə şər, böhtanlar düzmə nahaqdan.
Şairə deyirlər, Tanrı elçisi,
Haqqın dərgahında ucalır səsi.
Şeir bağçasından mən gül üzmüşəm,.
Ədəbi janrları sapa düzmüşəm.
Tanrının hökmünə tabedir hamı,
Odur insanlara verən ilhamı.
Tanrım ilham verdi mənə dedi: - “Yaz,
İlhamla yazılan faydasız olmaz”.
Sənin tək deyiləm gözlərə girəm,
Sənət dünyasında döyüşən nərəm.
Çəkil bir kənara çəkil yolumdan,
Nanəcib adamsan yox səndə vicdan.
Səni başa salmaq çətindən, çətin,
Qurulub xəbislik üstə xislətin.
And olsun atanın əziz goruna,
Müqəddəs sandığın cümlə varına,
Şeirləri mənə tanrım yazdırır,
Sənin tək axmağı şeytan azdırır.
Şeri başqası yox özüm yazıram,
Səni susdurmağa hər an hazıram.
Şerimə şəkk edən nanəcib kəsi,
Hecatək bölərəm heç çıxmaz səsi.
Qoyaram əruzun zər mizanına.
Cəhənnəm odunu göstərərm ona.
Burnun girməz yerə başını soxma,
İçi boş kəlləni qayaya çaxma.

## PULDAN QORXURAM

Sordular dağlardan:- "Nədən qorxursan?",
Dedi:- "Bu dünyada puldan qorxuram",
Pulludur qanıma susayan insan,
Dedi:- "Bu dünyada puldan qorxuram",

Böyük İsgəndər də yer kürəsində
Milyonlar topladı hər həmləsində,
Ölüm ayağında son nəfəsində
Dedi:- "Bu dünyada puldan qorxuram",

Təxti- Süleymana qalmayan dünya,
Kasıbı yadına salmayan dünya,
Varlını vecinə almayan dünya
Dedi:- "Bu dünyada puldan qorxuram",

Varlını yoxsula endirən da pul,
Yoxsulu ağaya döndərən da pul,
İnsanı kosmosa göndərən da pul
Dedi:- "Bu dünyada puldan qorxuram",

Milyonlar toplayan hər bir insan da,
Özünü dünyada xoşbəxt sanan da,
Vəfasız dünyaya meyil salan da
Dedi:- "Bu dünyada puldan qorxuram",





Evləri dağıdıb viran qoyan da,
Cəlladtək xalqını hər an soyan da,
Dünyanı beşəlli qucaqlayan da
Dedi:- "Bu dünyada puldan qorxuram",

Həyata baxmayan pulun gözüylə,
Evlər uçurmayan özgə sözüylə,
Cibgiri məhv edən haqqın özüylə
İnqilab da dedi:- Puldan qorxuram.

## ÇƏKİL YOLUMDAN

*Mənə şər- böhtanlar yazdıran kəsə,*
*Ayağım altını qazdıran kəsə*
*İthaf eyləyirəm bu şeirimi mən,-*
*Utanıb əl çəksin bəd əməlindən!..*

Mənim haqq işimə pəl vuran gəda,
Nankoru üzümə durduran gəda,
Hiyləyə əl atıb, tor quran gəda,
Utan əməlindən, çəkil yolumdan!

Üzün sürtülübdü çaylaq daşı tək,
Sən gözə çarpırsan quldurbaşı tək,
Durmusan qarşımda alçaq, naşı tək,
Utan əməlindən, çəkil yolumdan!

Pələngi tülküyə boğdurmaq çətin,
Ayaqlar altına düşüb qeyrətin,
El-oba yanında yoxdur hörmətin,
Utan əməlindən, çəkil yolumdan!

Namərd, nakəslərlə əlbir olmusan,
Mərdlər qarşısında hər vaxt dolmusan
Yaxşılar qəlbinə qələm çalmısan,-
Utan əməlindən, çəkil yolumdan!

Nəslin, nəcabətin, zatın bilinmir,
Örkənin bilinmir, çatın bilinmir,
Min cildə girirsən, adın bilinmir,
Utan əməlindən, çəkil yolumdan!

Dar gündə əllərdən tutan əlin yox,
Ürəklər ovudan şirin dilin yox,
Sənə oğul deyən oban, elin yox,
Utan əməlindən, çəkil yolumdan!

Şeytan xislətlisən, sanma mələksən,
Yaramaz varlıqtək gəbərəcəksən,
Niyə yaşayırsan, kimə gərəksən?
Utan əməlindən, çəkil yolumdan!

*Bakı şəhəri, 2002-ci il*





# Publisistika

## BÖYÜKŞOR GÖLÜ: YENİ HƏYATIN ASTANASINDA

***Araşdırıb, çarə tapdım müşkül olan bu dərdə,***
***Arzularım, əməllərim çiçək açdı bu yerdə.***




Möhtərəm Prezidentimiz İlham Əliyevin "Böyükşor gölünün bərpa edilməsi, mühafizəsi və istifadəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi" haqqında 26 dekabr 2013-cü il tarixdə imzaladığı fərmandan mən də hədsiz dərəcədə məmnun oldum. Uzun illər Böyükşor gölünün problemləri ilə məşğul olan bir ziyalı kimi sevinirəm ki, nəhayət, ölkə rəhbəri tərəfindən bu məsələnin həllinə də lazımi diqqət göstərildi.

1994-cü ilin may ayında- Binəqədi Rayon İcra Hakimiyyətinə başçı təyin ediləndən sonra bu problemin kəskinliyi mənə daha dərindən bəlli oldu. Yaxşı yadımdadı 1992-ci ilin payızında Novxanıdakı bağımdan " NİVA"



*Böyük Şor gölü. 1995-ci il*

markalı maşınımla ailə üzvlərimlə birlikdə evə, şəhərə qayıdarkən Binəqədi və Rəsulzadə qəsəbələri arasında yerləşən Böyükşor gölü ərazisində, mazutlu qamışlıqda şiddətli yanğının şahidi oldum. Bir an içərisində maşının qabaq şüşəsi yanğından qaçıb canını qurtarmaq istəyən çəyirtkələrin, həşəratların qanına boyandı. Dəhşətli bir vəziyyət yaranmışdı. Hətta ikidiferli “Niva” markalı maşınla belə küləkli havada, sulu qardan su basmış yolla getmək çox çətin idi. Ərazidəki vəziyyət, sanki müharibəni xatırladırdı: canlıların yaşamaq uğrunda mübarizəsi fəlakətlə üzləşmişdi. Təbii ki, bu mənzərə mənə çox pis təsir etmişdi...

Bu hadisədən sonra asudə vaxtlarımda bir ziyalı kimi bu problemlə yaxından maraqlanmağa başladım. Gördüm ki, Bakı şəhəri üçün çox böyük fəlakət yaranıb və bu, getdikcə geniş miqyas alır. Məni fikir götürdü





ki, Bakı şəhərinin mərkəzində bu cür ciddi və əhəmiyyətli bir məsələyə indiyə qədər belə laqeyd münasibət olmuşdur. Ürəyimdən belə bir fikir keçdi ki, kaş elə bir imkanım ola idi ki, Bakı sakinlərini belə dözülməz və acınacaqlı şəraitdən xilas edim...

Mən icra başçısı təyin olunan kimi böyük iqtisadi, ekoloji, dövlət əhəmiyyəti kəsb edən bu işlə dərindən, hərtərəfli məşğul olmağa başladım. Təbii ki, buna həm səlahiyyətim, həm də imkanım var idi. Müəyyən etdim ki, XX əsrin ikinci yarısından başlayaraq, şəhərətrafı ərazidə məhsuldar qüvvələrin kortəbii qaydada yerləşdirilməsi nəticəsində Adsız, Qırmızı, Hacıhəsən, Mirzaladı, Böyükşor və s. göllər, eləcə də onların ətrafında bir sıra bataqlıqlar, gölməçələr yaranmışdır. Təkcə Böyükşor gölündə suyun qalxması, daşması və çirklənməsi səbəbindən dövlətə külli miqdarda (köhnə məzənnə ilə təx-



*Böyük şorda əvvəlki vəziyyət*

minən bir trilyon manatadək) ziyan dəymişdi. 1988-ci ildə Binəqədi Neft və Qazçıxarma İdarəsinin 2 saylı sahəsində 250-dən çox quyu suyun altında qalmış, dövlətə milyardlarla manat ziyan dəymişdi. Quyuların bərpasına külli miqdarda dövlət vəsaiti xərclənmişdi. Həmin ərazidə 5 işlək vəziyyətdə olan nefttutma məntəqəsi də bütünlüklə suyun altında qalmışdı. Nəticədə 700 hektaradək sahə mazutlu suların altında qalaraq, yararsız vəziyyətə düşmüş, dövlətə külli miqdarda maddi zərər vurulmuşdu.

Burada suyun səviyyəsini aşağı salmaq məqsədilə keçən əsrin ikinci yarısında 4 güclü nasosdan ibarət stansiya qurulmuşdu. Böyükşordan suyun Mirzaladı gölməçəsinə vurulması yeni gölün yaranmasına və torpaq sahələrinin sıradan çıxmasına səbəb olmuşdu. Aydınlaşdırdıq ki, Böyükşor gölünə ətraf yaşayış məntəqələrindəki sənaye obyektlərindən ( Poladəritmə zavodu, D. Bünyadzadə adına Maşınqayırma zavodu, Ağac emalı zavodu, Gön- dəri fabrikası, Biləcəri Vaqon Deposu, Qalanteriya fabrikası və. s.), eləcə də ətrafda olan yaşayış məntəqələri ( M. Ə. Rəsulzadə qəsəbəsi, Dərnəgül qəsəbəsi, 9-cu mikrorayon, Binəqədi kəndi, Sabunçu rayonunun tabeliyinə daxil olan bir neçə yaşayşı məntəqələri), ümumiyyətlə, 13-dən çox mənbədən məişət, çirkab, kanalizasiya suları axıdılır. Bu gölün altında 2 böyük qəbiristanlıq da qalmışdı. Biz Böyükşor gölünün yaranma tarixini təhlil edib, 1907- ci ilin xəritəsindən istifadə edərək onun çirkab və kanalizasiya sularından yaranmış





süni göl olduğunu sübut etdik.

Həmin ərazi çox kəskin bir üfunət zonasına çevrilmişdi. Göldə olan suyun tərkibinin kimyəvi təhlili göstərdi ki, buradakı su tərkibi etibarilə yararsız, təhlükəli bir xəstəlik mənbəyi idi. Elmi təşkilatlarda isə belə bir ideya hökm sürürdü ki, bu göl, guya, təbii yaranmışdır və onun qalxmasının qarşısını heç cür almaq mümkün deyil. Biz bu yanlışlığı aradan qaldırmağa nail olduq. Araşdırma zamanı o da məlum oldu ki, yaxınlıqdakı yaşayış məntəqələrində 15 yaşınadək uşaqlar arasında ölüm faizi şəhərin başqa ərazilərinə nisbətən təxminən iki dəfə yüksəkdir.

Ərazidə bütün tikinti işləri, demək olar ki, yarımçıq qalmış, fabrik və zavodların əksəriyyəti öz fəaliyyətini qismən və ya tamamilə dayandırmış, kommunikasiyalar suyun altında qalmışdır. Böyükşor gölünün suyu daşanda Rəsulzadə qəsəbəsindən Binəqədi kəndinə getmək, demək olar ki, müşkülə çevrilirdi. Ərazidə çox acınacaqlı vəziyyət yaranmışdı. Əməli tədbirlər həyata keçirmək üçün vəsait yox idi və heç bir əlavə köməklik də göstərilmirdi. Hətta Bakı Şəhər İcra Hakimiyyəti (başçı Rəfael Allahverdiyev) dövlət əhəmiyyətli bu böyük işin həllinə kömək etməli olduğu halda, əksinə, həyata keçirdiyimiz tədbirləri “Nadirovun bataqlıq əməliyyatı” adlandıraraq maneçilik törədirdi. Lakin həyat bu dözülməz vəziyyətdən çıxmağı bizdən təkidlə tələb edirdi.

Lakin biz göstərilən bütün təzyiqlərə və maneələrə baxmayara bütün təbliğat və təşviqat vasitələrindən is-

tifadə edərək öncə əhaliyə bu işlərin görülməsinin vacib olduğunu izah etdik. Dövlət vəsaiti sərf edilmədən, əsasən iməcilik yolu ilə bu işi həll etməyi qərara aldıq. Bu təşəbbüsün əhəmiyyətini dərindən dərk edən rayonun idarə və təşkilatları könüllü olaraq işə öz köməkliklərini göstərməyə başladılar. Biz ilk növbədə 1974-cü ildən tikintisi yarımçıq qalmış 4 saylı nasos stansiyasını istifadəyə verdik. Biləcəridən axan bütün çirkab sularını mərkəzləşdirilmiş qaydada böyük ölçülü borularla 4 saylı stansiyaya ötürən kanalizasiya xətti çəkdik. Rayon ərazisindən Böyükşor gölünə axıdılan sular əsasən ram edildi. Yeni istifadəyə verilmiş 4 saylı nasos stansiyası vasitəsi ilə sular Hövsana – təmizləyici qurğuya ötürüldü.

İki yerdə quraşdırılmış ölçmə qurğusu vasitəsi ilə suyun səviyyəsinin enməsinə nəzarəti həyata keçirirdik. Torpaq daşınaraq qurudulmuş sahələrə tökülürdü. Apa-



*Böyük şorda yeni qəsəbə*





rılan işlər müsbət nəticəsini tezliklə göstərdi. İşlər yaxşı mənada o qədər yüksək əks-sədaya səbəb oldu ki, Azərbaycan Dövlət Televiziyası hazırda “Qızıl fond”da saxlanılan– “Binəqədi” (1995-ci il), “Böyükşor gölü”(1996-cı il) və “Canlanan torpaq” (1997-ci il) adlı sənədli filmlərini çəkdi. Hətta burada görülən işlər 1996-cı ildə BMT-nin “Azərbaycanda İnsan İnkişafı Haqqında” hesabatına daxil edildi. Artıq bunun əks- sədası bütün ölkəni bürümüşdü. Bunun nəticəsi olaraq 1995- ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti çox hörmətli, akademik Eldar Salayev, AMEA- nın elmi katibi, akademik Asəf Nadirov, Binəqədi rayonunun ərazisində yerləşən Elmi Tədqiqat İnstitutunun direktoru akademik Urxan Ələkbərov Binəqədi rayon icra hakimiyyətinə- mənim yanıma gəldilər. Mənim iş otağımda Böyükşor gölü ilə əlaqədar aparılan işlər (xəritələr, diaqramlar, çertyojlar və. s.) haqqında onlara müfəssəl məlumatlar verdim. Onlar dedilər ki, bura rayon icra hakimiyyəti başçısının otağından çox elmi- tədqiqat İnstitutunun direktorunun kabinetinə bənzəyir. Onlar məndən xahiş etdilər ki, görülən işlərlərlə yerindəcə tanış olsunlar. Biz birlikdə maşına əyləşib əraziyə çıxdıq. Görülən işlərin gedişatı haqqında onlara yetərincə məlumat verdim. Onlar mənim məlumatlarıma heyranlıqla qulaq asırdılar. Bu da təbii idi. Çünki, bu vaxta qədər Böyüşor gölü haqqında rəhbərlikdə və Elmlər Akademiyasında belə bir fikir formalaşmışdı ki, Böükşor gölü təbii yaranmış göldür və onun qalxması qarşısıalınmazdır; o qalxacaq və Bakını

da ağuşuna alacaq. İndiki dövrdə Bakı kimi bir şəhərdə, Azərbaycanın paytaxtında bu qədər elmi müəssisələrin olmasına baxmayaraq insanların təbiət qarşısında bu qədər aciz qalması məndə heyrət doğurdu.

Mənim apardığım işin mahiyyəti isə ondan ibarət idi ki, Böyükşor gölü süni surətdə yaranmış göldür, qalxmasının qarşısı alına bilər və alınmalıdır. Mən ona əsaslanırdım ki, əsrin əvvəlində- 1907- ci ildə çap edilmiş xəritəni arxivdən əldə etmişdim və öyrənmişdim ki, əsrin əvvəlində bura bağlı- bağatlı yer olmuş, hətta bu ərazidəki neft quyularına vurmaq üçün kənardan su gətirirmişlər və s.

Bu işin mahiyyəti onların ciddi marağına səbəb olduğu üçün mənə dedilər ki, bu gördüyün işin içərisində 7 (yeddi) elmlər doktorunun işi yatır. Bu işin birini özün götür və dissertasiya yaz. Hətta mənə təklif olundu ki,



*Böyük şorda yeni qəsəbə*





Böyükşor gölü probleləri ilə əlaqədar Azərbaycan MEA-nın nəzdində Elmi Tədqiqat İnstitutu yaradaq və sizi ora 0,5 ştat vahidi ilə rəhbər təyin edək. Təbii ki, işimin çoxluğu ilə əlaqədar buna razılıq vermədim. Sonra onlar MEA Prezidentinin təklifi ilə mənə “ **Abşeron İqtisadi rayonunda ekosistemin sağlamlaşdırılması və məhsuldar qüvvələrin səmərəli ərazi təşkili” ( Böyükşor gölü massivinin timsalında)** adında dissertasiya mövzusu hazırlayıb təklif etdilər. Elə buradaca əsas elmi rəhbər kimi iqtisad elmləri doktoru, akademik Asəf Nadirovu və ikinci elmi rəhbər kimi iqtisad elmləri doktoru Əli Nuriyevi təyin etdilər. Dissertasiya işləri ilə əlaqadar bütün işləri yekunlaşdırandan sonra 30 dekabr 1997- ci ildə AMEA – İqtisadiyyat İnstitutunun Elmi Şurasında müzakirənin axırına yaxın dissertasya işimə Şura üzvləri tərəfindən ən yüksək qiymət verilməsinə baxmayaraq, səbəb göstərilmədən “guya rəhbər işçi olduğuma görə” dissertasiyamın müdafiəsi müvəqqəti olaraq dayandırıldı (hansıki o vaxt məndən çox yüksək vəzifələrdə işləyənlər dissertasiya müdafiə edirdilər). Mən işdən çıxandan yeddi il sonra- 2005-ci ildə dissertasiyamı müdafiə etdim.

Görülmüş işlərin nəticəsində 20-dək quyu, 5 nefttutma məntəqəsi suyun altından çıxarılaraq istifadəyə verilmişdir. 2000 hektara qədər sahəni əhatə edən gölün, təxminən yarısı qurudulmuş, çirkab sulardan təmizlənmiş, ekoloji cəhətdən sağlamlaşdırılmış və orada yeni qəsəbə salınmışdır. 400 milyon ABŞ dollarınadək iqtisadi səmərə əldə edilmişdir.

***Qırdım tilsimini Böyükşorun mən,***
***Xalqım bayram etdi bu əməlimdən.***
***Köhnə fikirləri alt- üst eylədim,***
***Əsil həqiqəti xalqa söylədim...***

***Yaradan insana Yaradan yardır,***
***Çünki üzərində kölgəsi vardır.***
***Mənə Tanrım verdi gücü, qüdrəti,***
***Əzmimlə qazandm əbədiyyəti...***

***Hər əsər- abidə, bir yadigardır,***
***Mənim də "Böyükşor" abidəm vardır.***
***Xalqım qiymət verər bu abidəmə,***
***Xalq üçün yaşayan heç batmaz qəmə...***

Bu gün Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm ki, orada yarımçıq qalan işlərin davam etdirilməsi və ətrafın abadlaşdırılması üçün fərman vermişdir. Mən dövlət başçısının bu məramını ürəkdən alqışlayıram. Tam əminəm ki, bir çox nadir abadlıq və quruculuq işlərinə imza atmış cənab Prezident bu işlərin də yüksək səviyyədə həyata keçirilməsinə nail olacaqdır. Və beləcə mənim Boyükşor gölü ilə bağlı arzum da tam həyata keçəcəkdir.

*Binəqədi rayon İH-nin sabiq başçısı İnqilab Nadirov,*
*"Xalq" qəzeti", 23.01.2014*

**PS.** ***Məqalədə qismən dəyişiklik edilmişdir***





**KƏLBƏCƏR MƏNİM ÜÇÜN NƏDİR?..**

Harada doğulmağın, dünyaya göz açmağın heç də həmin torpağa bağlı olmağın demək deyildir. O qədər adamlar (belələrinə "insan" deməyə adamın dili də gəlmir) var ki, öz doğulduğu yerə, el-obasına biganə olur və bəzən də qənim kəsilir.

Amma elələri də var ki (şükürlər olsun onların sayı çoxdur), başqa bölgələrdə dünyaya göz açsalar da, taleyin onlara qismət etdiyi yerə, məkana, qəlbi ilə bağlanıb onun təəssübbünü, qeyrətini çəkib, xidmətində dayanıb. Təvazökarlıqdan uzaq da olsa mən özümü belələrindən biri hesab edirəm. Kəlbəcər rayonu ilə bağlı planda olmayan çox tədbirlər həyata keçirmişəm. Onlardan yalnız bir neçəsini nümunə gətirirəm.

Mən ora rəhbər vəzifəyə gedənə qədər Kəlbəcər iqtisadi cəhətdən çox geri qalmış bir rayon idi. Rayon sakinlərinin dolanışıqları o dərəcədə pis idi ki, əhalinin müəyyən qismi artıq rayonu tərk etmiş, bəziləri isə tərk etməkdə idi. Hətta iş o yerə çatmışdı ki, Kəlbəcəri perspektivsiz, imkansız, gələcəyi olmayan bir rayon kimi ləğv edib, əhalisini arana köçürmək barədə qərar lahiyəsi də hazırlanmışdı. Axı Kəlbəcər əsasən dövlət vəsaiti hesabına maliyyələşirdi, başqa sözlə, dövlət hesabına yaşayırdı. Bu isə, davamlı ola bilməzdi. Təbii ki, bütün bunlar mən Kəlbəcərə birinci katib göndərilən ərəfədə və ondan əvvəl olmuşdu.

Həmişə olduğu kimi, yenə də Azərbaycan KP Mərkə-

zi Komitəsi və Nazirlər Soveti 1975-ci ildə Kəlbəcər rayonunun təsərrüfatlarından 5 milyon manat (bu, o zaman çox böyük pul idi) ziyanı silmək məcburiyyətində qalmışdır. Bu köməyə baxmayaraq, 1976-cı il avqustun 16-da mən Kəlbəcərə raykomun birinci katibi seçildiyim ərəfədə, yəni, həmin ilin sonuna rayonun 31 kolxozunun cari hesabında cəmi 4.304 manat pul var idi, dövlətə isə ssuda borcu 1.001.703 manat, kreditor borc isə 1.045.227 manat və o cümlədən, kolxozçulara əmək haqqından olan borc isə 812.883 manat təşkil edirdi.

Əslində o zaman respublikanın əksər dağ rayonlarında vəziyyət çox acınacaqlı idi. Respublika rəhbərliyində belə qərara gəlmişdilər ki, çıxış yolu dağ rayonlarında kolxozları sovxozlara çevirməkdir. Azərbaycan KP Mərkəzi Komitəsində və Nazirlər Sovetində də bu barədə qərar layihəsi hazırlanmışdı. Ona görə də dağ rayonlarının rəhbərlərinə tapşırıqlar verilmişdi ki, öz təkliflərini hazırlayıb versinlər. İşə təzəcə başlamışdım. Bir gün PİK-nin sədri mənə bir qovluq verdi. Soruşdum ki, bu nədir? – dediki kolxozların sovxozlara çevrilməsilə əlaqədar hazırladığımız materiallardır. Materiallara baxdım, 31 kolxozun bazasında 17 covxozun yaradılması nəzərdə tutulurdu, rayonda 4 sovxoz var idı, hamısının da vəziyyəti kolxozlardan pis idi. Ona görə də mən buna qəti etiraz etdim. Mənim əsaslı mövqeyimi respublika kənd təsərrüfatı naziri, pəhmətlik Məmməd Əsgərov da müdafiə etdi. Beləliklə, Kəlbəcər rayonu istisna edilməklə respublikanın bütün dağ rayonlarında kolxozlar sovxozlara çevrildi.







*Laçın qayası*

Mən isə çıxış yolunu kolxozların təsərrüfat hesabına keçilməsində görürdüm və belə də etdik. (sonradan bizim uğurları görəndən sonra respublika rəhbərliyi öz əvvəlki qərarında dəyişiklik etməli oldu). Ona görə də biz qısa zaman kəsiyində iqtisadi təhlillər aparıb “İşin nəticələrinə görə əmək haqqı verilməsi barədə tövsiyələr” hazırlayıb həyata keçirməyə başladıq. O zaman təsərrüfatlar ağır vəziyyətdə olduğuna görə,mən təsərrüfatlarda olub, əhali ilə söhbət apararaq təsərrüfatları bu ağır vəziyyətdən çıxarmaq üçün yollar axtarırdım.

1977-ci ilin ortaları idi. Növbəti dəfə Almalıq kəndinə getdim. Geniş söhbətlər apardım. Yığıncağın axırında rayonun Laçın kəndinin sakini, həmin kəndin məktəb direktoru vəzifəsində işləyən Hümbət Həsənov söz alaraq dedi ki, “ Yoldaş Nadirov, mən indiyə qədər 9 birinci

katibə müraciət etmişəm. Hamısı baxıb, gediblər. Heç bir iş görməyiblər. Sizə də deyirəm. Bizim ərazidə adına Laçın qayası deyilən və indiyədək insan ayağı dəyməmiş, məskunlaşmamış bir dağ var, oraya yol çəkdirib, onu xalqın istifadəsinə vermək lazımdır". Mən ona bildirdim ki, sabah gələrəm, birlikdə baxarıq. Elə də etdim.

İki il (1977-1979) ərzində sıldırım qayalardan Laçın dağına yol şəkdik. 1979-cu il yay ayında yolun təntənəli açılışını keçirdik. Orada şoxlu sayda qurbanlar kəsildi. Bu mənim Kəlbəcərdə ilk böyük qələbəm idi. İnsan ayağı dəyməyən torpaq xalqın istifadəsinə verildi. Onu da deyim ki, oraya ilk ayağı dəyən insan mən olmuşam. Elə təntənəli anda Hümbət Həsənov bir ağsaqqal kimi camaata müraciət edərək mənim sayəmdə həmin zirvə fəth olunduğu üçün bu zirvəyə "İnqilab zirvəsi" adının verilməsini təklif etdi. El şairi Əli Qurban Dastançı oradaca bədahətən "Zirvəyə ad qoyuldu" şeirini oxudu. Bu yolun çəkilməsindən gələcəkdə Murov və Dəlidağ yollarının salınması üçün təcrübə qazandım. Və xalqda özünə, öz gücünə hədsiz dərəcədə inam yarandı.

Həmin dönəmdə SSRİ məkanında ilk dəfə olaraq naryadsız əmək haqqı sistemini biz tətbiq etdik.(Xatırlatmağa dəyər ki, bu üsulu bizdən 30 il sonra ölkədə həyata keçirdilər). Tütünçülük bərpa edildi. Bu sahə üzrə beş illik planı 2 il yarımda yerinə yetirmək barədə təşəbbüs qaldırdıq. Azərbaycan KP MK bu təşəbbüsü bəyəndi. Nəhayət, vədimizə əməl etdik. Kolxozların gəliri artmağa başladı. Əhalidə sabaha inam yarandı, köçüb gedənlər







*Murov yolunun açılışı. 18.09.1988*

rayona qayıtmağa başladılar. Nəticədə Kəlbəcərdə dirçəliş, inkişaf dövrü başlandı. 1979-cü ilin noyabr-dekabr aylarında Azərbaycanın bütün rayon partiya komitələrində hesabat və hesabat-seçki konfransları keçirilirdi. Tədbir ərəfəsində raykomun birinci katibləri MK-ya ətraflı söhbətə çağırılırdılar. Əslində bu, özü də bir imtahan idi. Belə ki, MK-nın müvafiq şöbələri də öz növbələrində rayon haqqında və əsasən də, nöqsanlar barədə ətraflı hesabat hazırlayırdılar. Bu hesabatlar MK-nın birinci katibinə təqdim olunurdu. Təbii ki, Respublika rəhbərliyi bu məlumatları diqqətlə oxuyur və rayon haqqında müfəssəl məlumatlara malik olurdu.

Belə söhbətlərdə hər bir raykom katibinin işdə qalıb-qalmaması məsələsi də həll olunurdu. Noyabr ayının 10-da mən də Azərbaycan KP MK-nın birinci katibi cənab Heydər Əliyevin qəbuluna çağırıldım.



*Könnə Kəlbəcər*

Uğurlarımız çox olsa da, həyəcanlı idim. O, mənə rayondakı vəziyyətlə bağlı xeyli suallar verdi. Cavablar onu qane etdiyindən söhbətmizin sonunda mənə MK-nın adından təşəkkür etdi. Qulaqlarıma inanmadım. Çünki Heydər Əliyevdən təşəkkür eşitmək nadir hadisə idi, heç kəsin müsbət işlərini hər vaxt üzünə vurmazdı. Minnətdarlığımı bildirib təşəkkürün səbəbini soruşdum. Dedi ki,"sən ora gedənə qədər Mərkəzi Komitə və Nazirlər Sovetində belə söhbətlər gedirdi ki, Kəlbəcər perspektivsiz rayondur, onun qətiyyən özünü dolandırmaq imkanı yoxdur. Yeganə çıxış yolu oranın əhalisini arana köçürmək, ərazisini isə yaylaq kimi aran rayonları arasında bölmək idi. Lakin bu fikir məndə ciddi şübhə yaradıb. Mən Kəlbəcər rayonunda olmamışam. Kəlbəcərin köçürülməsi barədə hazırlanmış qərar layihəsinə məndən başqa hamı qol çəksə də, mən imzalamamışam. Sizin qısa zamanda əldə etdiyiniz nailiyyətlər mənə əsas verir deyəm ki, Kəlbəcərin inkişafı üçün potensial imkanlar





genişdir. Hələ bundan sonra çoxlu işlər görülməlidir və görüləcəkdir. Sənin apardığın iş və əldə etdiyin nəticələr bu barədə mənim fikirlərimi tamamilə təsdiq etdi. Mən ona görə sənə təşəkkür edirəm ki, Kəlbəcər rayonunun köçürülməsinin qarşısını aldın. Mən indi daha qətiyyətlə deyə bilərəm ki, Kəlbəcər rayonu köçürülməməlidir. Həm də onu bildirim ki, sənin orada gördüyün bir iş Mərkəzi Komitənin nəzərində aran rayonlarında görülən beş işə bərabər nəzərdə tutulur..."

Əlbəttə, o vaxt Heydər Əliyev bu şübhənin nə olduğunu açıqlamadı və açıqlaya da bilməzdi. Bunun mahiyyətini mən sonralar dərk etdim. Strateji cəhətdən çox əhəmiyyətli olan Kəlbəcər rayonu coğrafi məkan etibari ilə Ermənistan və Dağlıq Qarabağın arasında yerləşir. Buradan əhalini köçürəndən sonra ermənilər heç bir müqavimətə rast gəlmədən qış aylarında sərbəst qaydada orada məskunlaşacaqdılar və bununla da Ermənistanla DQMV birləşmiş olacaqdı. Faktiki olaraq ermənilərin ***"Böyük Ermənistan***" xülyasının bir hissəsi həyata keçmiş olacaqdı. Respublika rəhbərliyində və rayonda məskən salmış ermənipərəst qüvvələrin Kəlbəcər rayonunun köçürülməsi barədə hazırladıqları məkrli planı biz beləcə məharətlə alt-üst etdik.

Bəli, mən onda da, indi də fəxr etmişəm, qürur duymuşam ki, o vaxt hamının gözü qarşısında olan gərgin əməyimin sayəsində Kəlbəcərin köçürülməsinin qarşısını almışam. Yoxsa 25-30 il bundan əvvəl Kəlbəcər bir rayon kimi birdəfəlik ləğv olunar, adamları respublikanın

ayrı-ayrı rayonlarına köçürülərdi.

Yaxşı yadımdadır, 1981-ci il idi. Bütün sahələrdən bol məhsul götürmək uğrunda gərgin mübarizə gedirdi. O vaxt respublikada 1 milyon tondan çox pambıq, 2 milyon tondan çox üzüm istehsal olunurdu. Azərbaycan bütün sabiq müttəffiq respbublikalar sırasında yüksək göstəriciləri ilə seçilirdi. Ölkədə məhsul istehsalının sürətini heç bir vəchlə aşağı salmaq olmazdı. Yarışlarda qalib gəlmək üçün yeni üsullar axtarılır, müxtəlif tədbirlər həayata keçirilir, bütün imkan və vasitələrdən maksimum istifadə olunurdu. Bir sözlə, ciddi yaris gedirdi. Dövrün tələbinə uyğun olaraq bütün rayon partiya komitələrinin birinci katibləri bu yarışların əsas təşkilatçıları idilər.

Bərdə rayonu ərazisində Kəlbəcər rayonuna məxsus ümumi sahəsi 1152 hektar olan mal-qara kökəltmə birliyi var idi. Bu sahə xeyli əvvəl dağ rayonlarının iqtisadiyyatını daha da yaxşılaşdırmaq tədbirləri ilə əlaqədar olaraq Kəlbəcərə verilmişdir. Onu da qeyd edim ki, respublikanın bütün dağ rayonlarına bu qayda ilə aran bölgələrindən torpaq sahələri ayrılmışdır.

Qonşu Gədəbəy rayonuna Bərdə və Ağcabədi rayonları arasında olan 7 min hektarlıq torpaq sahəsi verilmişdir.

Bərdə RPK-nın birinci katibi Rüstəm Səfərəliyev də rayonda məhsul istehsalını artırmaq üçün yeni ərazilər əldə etməyə çalışırdı. Bu məqsədlə də o, vaxtilə Bərdədən alınıb Kəlbəcərə verilmiş 1152 hektar torpaq sahəsini geri almaq istəyirdi. Odur ki, dəfələrlə məni Bərdəyə





dəvət edir, müxtəlf şirnikləşdirici təkliflər edirdi. Bu təkliflər baş tutmadıqda hətta Ləmbəran kəndinin camaatının həmin sahəyə hücumlarını təşkil etdilər, sakinlər arasında ciddi münaqişələr baş verdi. Nəticədə xəsarət alanlar da oldu.

Azərbaycan KP MK-nın növbəti plenumu ərəfəsində Azərbaycan KP MK-nın bölmə müdiri Svetlana Caniyarova mənə zəng edib xahiş etdi ki, MK-ya gələndə onunla görüşüm. Görüşdüm də. S.Caniyarova tanış olmaq üçün qarşıma bir qərar layihəsi qoydu. Layihə “Bərdə, Ağcabədi və Sabirabad rayonlarının hər birinin 100 min ton pambıq istehsal edib dövlətə satmaq təşəbbüsləri barədə” idi. Layihədə nəzərdə tutulurdu ki, bir milyon ton pambıq istehsalının səviyyəsini aşağı salmamaq şərti ilə üç rayon hər biri dövlətə 100 min ton pambıq satsın və pambıq istehsalı üçün şəraiti olmayan rayonlar başqa kənd təsərrüfatı bitkləri əkini üçün ixtisaslaşdırılsın. Bu faydalı işin təşəbbüskarı R.Səfərəliyev idi. Amma layihədə həmin rayonların tələbləri də göstərilmişdir ki, Kəlbəcərin Ləmbəranda olan torpağı və həmçinin Gədəbəy rayonuna məxsus 7 min hektar sahə onlara verilsin. Gədəbəy RPK-nin birinci katibi də burada idi. Layihə ilə tanışlıqda məqsəd rəsmi imza atıb razılıq vermək idi. Mən buna qəti etirazımı bildirdim. S. Caniyarova bizi MK-nin kənd təsərrüfatı şöbəsinin müdiri Zakir Abdullayevin yanına göndərdi. Getdik. Gədəbəyin birinci katibi elə oradaca razılıq verdi və bununla da Gədəbəy rayonuna məxsus 7 min hektar sahə Bərdə rayonuna veril-

di. Mən isə etiraz edib bildirdim ki, əgər o torpaq sahəsi Kəlbəcər rayonundan alınıb Bərdə rayonuna verilsə, istefa verəcəyəm. Zakir Abdullayev mənə bildirdi ki, bu gün saat 16-da burada qərar layihəsinin ilkin müzakirəsi keçiriləcəkdir. Orada iştirak edin və fikrinizi bildirin. Razılaşdıq. Həmin gün mən RİK-nin sədri Qənbər Qurbanovu və kənd təsərrüfatı idarəsinin rəisi Vəliyəddin İsmayılovu götürüb iclasa getdim.

Müzakirəyə kənd təsərrüfatı ilə əlaqəli bütün nazirlər, komitə sədrləri, baş idarə rəhbərləri dəvət olunmuşdular. Tapşırıq ciddi idi. Hətta mənim işimlə həmişə fəxr edən kənd təsərrüfatı naziri Məmməd Əsgərov da məcburiyyət qarşısında qalıb razılıq vermişdir. Geniş müzakirələr aparıldı. Rüstəm Səfərəliyevin arxayın və etinasız hərəkəti məni təbdən çıxardı və ona görə də icazəsiz danışmalı oldum. Bərdə rayonunda geniş torpaq sahələrinin olmasını və bu torpaq sahələrindən səmərəli istifadə olunmamasını və s. bir çox neqativ halları müzakirə iştirakçılarının nəzərinə çatdırdım. Bu mənada imkansız və həmçinin torpağın hər qarışından səmərəli istifadə edən Kəlbəcər rayonundan həmin torpaq sahəsinin alınmasının qeyri-məqbul olmasını bir daha xatırlatdım. Axırda da dedim ki, əgər o torpaq sahəsi Bərdə rayonuna veriləcəksə, mən bu gündən Kəlbəcər RPK-nin birinci katibi vəzifəsindən istefa verirəm. Bununla da iclas başa çatmamış yarımçıq qaldı. Layihənin müzakirəsi tamamlanmadı. MK-nin işçiləri vasitəsi ilə iclasın gedişatı barədə MK-nın kənd təsərrüfatı işləri üzrə katibi işləyən, şəxsiy-





yətinə və billur təmizliyinə həmişə qibtə etdiyim mərhum Hacıağa İbrahimova ətraflı çatdırıldı.

O, iclasın gedişatı haqqında Heydər Əliyevə məlumat verir. Mənim çıxışım barədə o, Heydər Əliyevə belə deyir: “Mən artıq rahat ölə bilərəm. Çünki xalq üçün, rayon üçün, camaat üçün, raykomun birinci katibi vəzifəsindən istefa verən adamı gördüm. Bu adam İnqilab Nadirovdur”. Heydər Əliyev maraqlanır; “Kəlbəcərin orada neçə hektar torpaq sahəsi var?” H.İbrahimov dəqiq bilmədiyindən: “Min hektar deyə cavab verir. Heydər Əliyev tapşırır ki, onda əgər belədirsə, Bərdə rayonuna bundan 3 dəfə çox torpaq sahəsi verin, qoy Rüstəm Səfərəliyev bir də mənə bu barədə müraciət etməsin.

H.İbrahimov tapşırığı yerinə yetirmək üçün dövlət fond torpaqlarından, ayrı-ayrı sahələrdən kəsərək Bərdə rayonuna 2903 hektar ayırtdırır. R.Səfərəliyev bu sahənin niyə 3 min hektar olmadığını görüb, kabinetində



*Yeni Kəlbəcər*

H.İbrahimovu təhqir edir və Bərdəyə yollanır.

R.Səfərəliyevin bu hərəkəti Heydər Əliyevə çatdırılır. Təbii ki, bu, Heydər Əliyevin qəzəbinə səbəb olur. R.Səfərəliyev Qazımməmməd şəhəri ərazisində dövlət yol polisi işçiləri tərəfindən saxlanılaraq geri qaytarılır. Heydər Əliyev Hacıağa İbrahimovun iştirakı ilə onu qəbul edir. Deyir ki, mənim sənə qoyduğum hörmət sənin başını gicəlləndirməməlidir. Təkidlə ondan tələb edir ki, H.İbrahimovdan üzr istəsin. Heydər Əliyev deyir: "Qoy sənə deyim sən kimsən və İnqilab Nadirov kimdir. Sən 800 il bundan qabaq tarixi Azərbaycan dövlətinin paytaxtı olan və Nüşabənin hökmranlıq etdiyi Bərdədə işləyirsən və necə işlədiyini də biz yaxşı bilirik. İnqilab Nadirov isə MK-ya yeni bir rayon kəşf edib veribdir. Fərqiniz bundan ibarətdir. Sən ikinci "Qızıl Ulduz" uğrunda çalışırsan, o, isə geri qalmış, batmış bir rayonu dirçəltmək, xalqa çörək vermək üçün mübarizə aparır".

Bununla da, bütün məsələlər həll olundu. Bərdə rayonunun Ləmbərən kəndi ərazisində yerləşən kökəltmə birliyinin 1152 hektarlıq sahəsi Kəlbəcər rayonunun sərəncamında saxlanıldı. Sonralar Hacıağa İbrahimovun yanında olanda bu söhbətlər barədə o, mənə ətraflı danışdı. Orada olan söhbətlər barədə həm də vaxtilə rəhbərim olmuş kənd təsərrüfatı naziri, çox hörmətli Məmməd Əsgərov mənə ətraflı məlumat verdi.

1993-cü ildə Kəlbəcər işğal olunanda kəlbəcərlilərin üz tutduğu yeganə torpaq sahəsi özlərinə məxsus həmin ərazi oldu.





İki il öncə həmin ərazidə yaşayan kəlbəcərliləri yoxlamaq onların, vəziyyəti ilə tanış olmaq üçün oraya getmişdim. Gördüm ki, burada 60-dan çox kəlbəcərli ailəsi məskunlaşıb. Mənə tuşlanan doğma baxışlar çox şey deyirdi. Məğrur kəlbəcərlilərin baxışlarında bir qaçqınlıq, köçkünlük nisgili gördüm. O, baxışlarda həm qəm- qüssə, həm də minnətdarlıq vardı. O, adamlar Kəlbəcərdən uzaqlarda yaşasalar da, özlərinə məxsus torpaqda yaşayırdılar. O, minnətdarlıq baxışları altında ötən günləri bir daha xatırladım və yenə də fəxr etdim, qürur duydum ki, məğrur kəlbəcərlilər ən çətin anda da mənim rəhbərliyim altında çəkilmiş Murov və Dəlidağ yolları ilə xilas olmuşlar və öz doğma Ləmbəran torpağında bu gün də yaşayırlar.

Yadımdadır, 1988-ci ilin fevralın 26-da Azərbaycanın KP MK-nın plenumunda iştirak etmək üçün sübh tezdən Bakıya yola düşdüm. Amma nədənsə, qəribə hallar baş verirdi. Maşın bir-bir kəndlərdən keçdikcə yolboyu dayananlar tez-tələsik əl qaldırır, mənim əyləşdiyim şəhərə tələsən "Volqa"nı saxlamağa can atırdılar. Görəsən nə baş verib?-deyə düşündüm. Maşını dayandırmaq istəyənlərin sayı beşi, onu adlayanda sürücü əyləci basdı. Bir nəfər özünü qaranəfəs maşına çatdırdı: "Bakıdan Kamran Bağırov zəng edib. Bərk-bərk tapşırıb ki, rayondan çıxmasın. Zəngimizi gözləsin", "Axı nə olub? "cavab verən tapılmadı. Heç kəsin heç nədən xəbəri yox idi. Maşını rayonun çıxacağında yerləşən civə zavodunun həyətinə sürdürdüm. Dərhal Bakıya, Kamran Bağırovun

köməkçisi Sahib Quliyevə zəng çaldım. Xeyli vaxt idi ki, məni axtarırmış: “Yoldaş Nadirov, siz icazəlisiniz rayonda qalın. Sizdən aşağıdakıların (Mardakert rayonunun ermənilərini nəzərdə tuturdu) başı xarab olub, orada sakitlik yaradın”.

Heç nədən xəbərim yox idi. Qayıtdım kabinetimə. Zəng etsəm də, ətraflı məlumat ala bilmədim. Erməni dilini yaxşı bilən rayon daxili işlər şöbəsinin rəis müavini E.Baxşəliyevi təcili Mardakertlə göndərdim. O günün ikinci yarısı qayıtdı. Xəbər gətirdi ki, bütün ermənilər küçəyə tökülüblər. Əllərində Qorbaçovun şəklini tutub “Miatsium” deyə bağırışırlar. Mardakertin içindən keçən Kəlbəcərin yeganə yolu da bağlıdır. Bütün bunlar uzun sürəcək bir fəlakətin başlandığından, Azərbaycanın başı üzərində qara buludların toplandığından xəbər verirdi. Kəlbəcərlə Azərbaycanın bölgələrini yalnız bu yol və bir də teleqraf dirəkləri birləşdirirdi. “Yeni yol açılmasa Kəlbəcərin vəziyyəti ağır olacaq”,- deyə fikirləşdim. Təcili əməli tədbirlər görmək lazım idi. Yadıma Sümüklü dərə düşdü. Dalqılıncı kəndinin yaxınlığında yerləşən bu dərənin adı xalqımızın soyqırımı tarixi ilə bağlıdır. Onun haqqında indi də acı xatirələr danışılır. İlboyu oradakı həmin dərənin dibində qar olur. Qış aylarında isə qar qatının hündürlüyü bəzən 5-6 metrə çatır. Yay günəşinin qızmar şüaları dərənin dibini isindirəndə, qar əriyəndə göz önündə olduqca dəhşətli mənzərə canlanır. Dərə insan sümükləri ilə doludur. 1905-1906-cı illərdə ermənilər Basarkeçərdən yüzlərlə, minlərlə dinc Azərbaycan





türkünü ev-eşiklərindən zorla çıxararaq buraya gətirmiş və onları diri-diri dərənin dibinə atmışlar. Hava isinən kimi qanlı qar ərimiş, parçalanmlş insan cəsədlərini qurd-quş dağıtmış, yemiş sümükləri dərənin dibinə yayılmışdı. Sonralar bu dəhşətli mənzərə həmin dərəyə məşum “Sümüklü dərə” adı qazandırmışdı. Kəlbəcərə katib seçildiyim ilk vaxtlar yolumu buraya salmışdım. Həmin dəhşətli mənzərə məni də çox sarsıtmışdı. Mən o zaman həmin dərədə o soyqırım qurbanlarının xatirəsini əbədiləşdirmək üçün orada abidə ucaltmaq istədim. Fikrimi MK-yə də bildirdim. Onlar isə bu məqsədimin həyata keçməsinə razılıq vermədilər.

Qərbdə Ermənistan, şərqdə ermənilərin daha çox yaşadığı Mardakert rayonu Kəlbəcəri məngənədə sıxırdı. Daş qəfəsin qıfılı ermənilərin əlində idi. Çıxış yolu tapmaq gərək idi. Çıxış yolu isə vardı.

Məni təkcə kəlbəcərlilərin taleyi düşündürmürdü. Laçın rayonu da eyni məngənədə çırpınırdı. Yol lazım idi. Elə yol ki, bir tərəfdən ermənilərin nəzarətindən uzaq olsun, digər tərəfdən Kəlbəcəri, Laçını fasiləsiz mülki və hərbi yardımla təmin etsin. Çox yerlərə zəng etdim, çıxış yolunu göstərən olmadı. Elə ertəsi gün təcili müşavirə çağırdım. Kəlbəcərin ağsaqqallarını, rəhbər işçilərini, əlaqədar adamları yığdım. Vəziyyəti onlara danışdım. Dedim ki, ermənilərin niyyəti başqadır. Bu işin nə ilə nəticələnəcəyini də hələ bilmirik. Lakin hadisələrin gedişi göstərir ki, müəyyən müddət sakitlik əmin - amanlıq olmayacaq. Əgər Mardakert yolu açılmazsa, bir nəfər də

Kəlbəcərdən sağ çıxa bilməyəcək. Məhz bu gün qəti qərar qəbul etmək, işə başlamaq lazımdır. Hərə öz rəyini bildirdi. Nəhayət, fikrimiz bu oldu: ilk yol Dəlidağ - Laçın istiqamətində olmalıdır!

Həmin gün respublikanın əlaqədar təşkilatlarına, Nazirlər Sovetinin sədrinə, yollar nazirinə,kənd təsərrüfatı nazirliyinə müraciət etdim. Müraciətlərim demək olar ki, nəticəsiz qaldı. Hətta bu haqda məsələ qaldırmağı mənə məsləhət bilmədilər. Yol çəkilişi üçün vəsait ayırtdıra bilmədim. Deməli, Bakıdan kömək gözləmək əbəs idi. Tikinti yalnız rayonun daxili imkanları hesabına, iməcilik yolu ilə və xəlvəti aparılmalıdır. Hətta layihə hazırlamağa beiə vaxt yox idi. Söhbət yüz mindən çox əhalinin taleyindən gedirdi. Odur ki, bütün kəlbəcərlilərə müraciət etməyi qərara aldım. Və müvafiq marşrut müəyyənləşdirdik. Yol xalq tikintisi elan olundu, iməcilik yolu ilə və xəlvəti çəkilməlidir. Nəhəng qayaları, daşları yarmaq tikintini sürətləndirmək üçün təkcə fəhlə qüvvəsi, istək, əzmkarlıq kifayət deyildi. Texnika, xeyli partlayıcı maddə gərək idi. Partlayıcı texnikanı isə ermənilər ələ keçirib Stepanakertə (Xankəndi) aparmışdılar.

Respublikada texniki partlayış üzrə ixtisaslaşdırılmış idarənin rəhbəri Kovalenkonu tapdım. Fikrimi ona dedim. Halal olsun ona Azərbaycan çörəyi! Dərhal Kəlbəcər anbarındakı 30 tonadək partlayıcı maddəni bizim ixtiyarımıza verdi. Üstəlik bunun üçün texnika da bizə verdi.

Tikinti işləri üçün rayonda cəmi üç buldozer vardı. Bundan başqa, Yaponiyanın istehsalı olan "Kamatsu"





markalı texnika da inşaatçıların sərəncamında idi. Bu, həmin "Kamatsu" idi ki, Kəlbəcər dəliqanlıları onu ermənilərin gözü qabağında "qaçırdıb" rayona gətirmişdilər. Doğrudur, hətta yuxarıdan da mənə dəfələrlə hədə-qorxu gəlmişdilər ki, "qardaşlarımız" erməniləri niyə incidirsən? Buldozeri qaytar! Mən isə tərslik edib hər dəfə bir bəhanə ilə texnikanın bizdə olmadığını bildirirdim. Nəticədə həmin nəhəng, güclü texnikanı vermədim və onun yol çəkilişində bizə çox köməyi dəydi.

Əvəz Şükürovun rəhbərliyi ilə qərargah yaratdım. RİH sədri Qənbər Qurbanovu da ora təhkim etdim. Sonradan işin gedişi məni tam qane etmədiyi üçün kənd təsərrüfatı idarəsinin rəisi Vəliyəddin İsmayılovu da ora təhkim etdim. Martın 1-də işə başladıq. Yol Dəlidağın Tutqu dərəsindən keçməklə Laçının Lolabağır kəndi istiqamətinə doğru iləliləməli idi. Bu marşrutdakı ensiz at cığırı gələcək yolun bazası kimi götürüldü. Yazqabağı olsa da, boran, çovğun, qar əlindən göz açmaq olmurdu. Buna baxmayaraq iş bir saat da olsa, dayanmırdı. Yolun uzunluğu cəmi 15-20 kilometr olmalı idi. Şəhər, aran yeri üçün bu çox kiçik rəqəmdir. Yəni orada bu həcmdə işi qısa vaxt ərzində başa çatdırmaq mümkündür. Bütün rayon, xüsusilə Tutqu zonasının bütün kəndləri yol çəkilişinə cəlb olundu. Addım-addım irəliləyirdik. Vaxtımın çoxunu bu işə sərf edirdim. Nəhayət, aprelin 28-də yolun çəkilişi başa çatdı. Kəlbəcərin, Laçının ehtimal olunan blokadasının yarılmasının ilk mərhələsi beləcə başa çatdı. Lakin hələ qarşıda görüləsi işlər çox idi...

Gündəliyimdə Dəlidağ yolunun açılışı barədə vaxtilə bu qeydləri yazmışdım: *"Bu gün Kəlbəcər-Laçın yolunun təntənəli açılışı oldu. Xeyli adam toplaşmışdı* İzdihamlı mitinq *keçirildi. Yolun* çəkilişində *böyük xidmətləri olan traktorçular Telman* İsgəndərov, Əvəz *Yaqubov, Həsən Manasov, Musa Xəlilov, Vahid* Çıraqov, partlayış *mütəxəssisləri Münasib Alışanov, Köçəri Mustafayev, tikintiyə ağsaqqallıq edən Qazıxan kənd sakini Səlim Səlimov və başqalarına minnətdarlıq bildirildi. Açılış təntənəsinə* şair Qasım *Qasımzadə də gəlmişdi. Yeni yolun əhəmiyyətindən danışdı,* şeirlər *söylədi".*

Bəli, o yol, təkcə Kəlbəcərin deyil, Laçının da ilk Nicat yolu idi. Necə deyərlər, qaranlıq otağa işıqlı pəncərə açdıq, nəfəsimiz genişləndi. Dar gündə on minlərlə laçınlı bu yolu keçərək düşmən çaynağından, əsirlikdən xilas ola bilmişdi. Həmin yolla Kəlbəcərdən Şuşaya üç dəfə yardım göndərdik. Rayon nümayəndələrindən Tapdıq Cəfərovun, Məhəmməd Salahovun və Vəli Məmmədhəsənovun iştirakı ilə 5 ağır yük maşını oraya 10 min rublluq ərzaq, paltar çatdırdı.

Başımızın üstünü alan qara buludlar get-gedə sıxlaşırdı. İndi də Kəlbəcərin mühasirəsini yarmaq lazım idi. Qərara gəldik ki, təxirə salmadan, Bakıdan kömək gözləmədən yenə iməcilik yolu ilə Kəlbəcər-Xanlar yolu çəkilsin.Bu yolun da layihəsini hazırlamaq üçün nə vaxt, nə də imkan vardı. Təcili qərargah yaratdım. Təhməz Cəfərovun rəhbərliyi ilə Arif Ələsgərovu və Şahvələd Qaraşovu bura cəlb etdim. Kəlbəcərin Yanşaq kəndindən başlayacaq bu yol Murovdağın suayrıcını aşmalı və Xanların Toğana kəndinə qovuşmalı idi. Tikinti gedən ərazi boyu yerləşən Ayrım zonasındakı kəndlər işləyən fəhlələrə hər cür qayğı göstərir, yemək-içmək verirdilər. Böyük iqtisadi, coğrafi, strateji əhəmiyyət kəsb edən bu yolun çəkilişində ciddi nizam- intizam hökm sürürdü. Hər kəs öz iş yerini yaxşı bilirdi. Nə qar, nə yağış, nə dolu onlara mane olmurdu. Tikinti olduqca qısa müddətdə, dörd ay yarıma başa çatdı. Beləliklə, kəlbəcərlilər və laçınlılar üçün erməni basqınından xilas olmağa və müdafiə qrupları yaratmağa real imkan yarandı. Əgər Mardakertdən(keçmiş Ağdərədən) keçən Kəlbəcər-Gəncə magistralı yolunun uzunluğu 202 kilometr idisə, yeni yol həmin məsafəni 104 kilometr qısaltdı və bu 98 kilometrlik yol əhalinin təhlükəsizliyini təmin etdi.





Beləliklə, Kəlbəcərdən Laçına, habelə Laçından Kəlbəcərə və Gəncəyə təhlükəsiz çıxmaq üçün yol açdıq. Bu çətin və ağır iş hayküysüz, böyük zəhmət bahasına, yüksək təşkilatçılıq nəticəsində ən qısa müddətdə göründü. Həmin tikintinin əhəmiyyətini göstərmək üçün bircə fakt kifayətdir: bu yollar Dağlıq Qarabağın aran ərazilərindən keçmədən Gəncə, Kəlbəcər, Laçın və Şuşanı, birləşdirən, oradan da Zəngilan-Bakı magistralına qovuşan yeganə yol idi.

Murov yolunun çəkilişi iməcilik yolu ilə aparıldığı üçün traktorçuların, orada daimi işləyənlərin əmək haqqını Təhməz müəllim təşkil edirdi. Bu da könüllülük əsasında ora gedən idarə, müəssisə rəhbərləri tərəfin-

dən təxminən bir aylıq maaşları həcmində işləyən traktorçulara maddi köməklik edirdilər. Bir misal: Bir gün ikinci katib, qərargahın rəhbəri Təhməz Cəfərov mənə dedi ki, bu gün Qənbər Qurbanovdan traktorçulara vermək üçün səhv etmirəmsə, 100 dedi,100 manat almışam. Mən dedim ki, yaxşı eləmisən, gərək bir aylıq maaşı miqdarında alaydın, qoy heç olmasa Murov yolunun çəkilişinə onun da bir köməyi dəysin və s. Yəni demək istəyirəm ki,bu qayda ilə dövlət vəsaiti sərf etmədən o yolu da çəkdik. Murovdağdan çəkilən yolda Yanşaq və Qamışlı kəndlərinin adamlarının fədakarlıqları bir an da gözlərimin önündən getmir. Buldozerçi Nəsrəddin nəzərimdə qayaçapan Fərhad idi. Gəncəyə yol marşrutu seçəndə mənə dedi ki, yoldaş Nadirov heç bir çertyoj-filan lazım deyil. Uşaqlığım bu yerlərdə keçib, qarış-qarış bələdəm. Qabağa özüm düşəcəm, qoy qalanları da arxamca gəlsinlər.

Bu yolun açılışı münasibətilə 1988-ci il sentyabrın 18-də Xanların(Göygölün) Toğana kəndində böyük şadlıq oldu. Bu tədbirə Gəncənin, Xanların adlı-sanlı adamları, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun professor-müəllimləri, eləcə də çoxlu ziyalılar gəlmişdilər.

Gündəliyimdən sətirlər: *“Kəlbəcər-Gəncə yolunun bu gün 18.09.88-ci ildə (bazar günü) açılışı keçirildi. 30-40 maşınla Xanlar rayonunun Toğana kəndinə qədər getdik. Saat 15-də ora çatdıq. Yolda* şəkillər çəkdirdik. *Bizimlə “Kommunist” qəzetinin bölgə müxbiri Firudin Rəsulov, əslən kəlbəcərli olan Daşkəsən rayonun prokuroru Nəbi Quliyev də vardı. Təhməz Cəfərovun qardaşı Hüseyn,onun* əmisi oğlu *Təyyar, dostlarım AZKTİ-nin prorektoru, elmlər doktoru Cəmil Hacıyev, keçmiş tələbə yoldaşlarım, elmlər namizədləri Aydın, Gəray, Murad, Ağcabədinin Hacılar kəndindən olan müstəntiq* Şəmşir *(sonralar Samux rayonunun prokuroru vəzifəsində işlədi) və başqaları onların arasında idi. Mitinqi açaraq bu yolun iqtisadi, sosial, mədəni, strateji,* əhəmiyyətindən danışdım. *Sonra sözü professor Cəmil Hacıyeva verdim. O, yolun böyük əhəmiyyətini qeyd etdi və bizi təbrik etdi.*

*Professor Təyyar Cəfərov, Hüseyn müəllim, Nəbi Quliyev* çıxış etdilər. Əslən Kəlbəcərin *Keşdək kəndindən olan aşıq* Ədalət *sazı sinəsinə basıb, “Yanıq Kərəmi” havasını çaldı. 7 yaşlı göyçək balamız Gözəl “Sarıköynək”, “Qəşəngdir” mahnılarını ifa etdi. Cəfərov Təhməz buldozerçi Nəsrəddin də söz aldılar. Gözəl rəqs də etdilər. Aşıq Telman bir el havası oxudu. Oğlum Faiq, qızım Gülnar da bizimlə idilər.* Ünvanıma *deyilən xoş sözlər məni yeni, daha böyük işlər görməyə, yadigarlar qoymağa ruhlandırdı. Bu yol mənim ən müqəddəs arzularımdan biri idi. Traktorçulardan Nəsrəddin Xəlilov, Çingiz Fərzəliyev, Telman İsgəndərov və Əzizin, eləcə də partlayış işini görən Köçərinin adlarını həmişə minnətdarlıqla yad edəcəyəm”.*

Təzə çəkilən və uzunluğu 98 kilometr olan yol dəniz səviyyəsindən 3 min metrlik yüksəklikdən, Murovdağdan keçir. Səfər Verdiyevin bu yolun çəkilişinə həsr etdiyi şeirindən:

*Murovun köhlənin yəhərləmisiz,*
*Üzəngisin gəlin basaq, a dostlar.*
*Sizin bu qayğıkeş əməlinizi*
*Xatirətək qəlbdən asaq, a dostlar.*

*"Görülən qalacaq!"-Babalar deyib,*
*Dəli Murov təslim olub, baş əyib,*
*Gəlinlik paltarın bax, bu gün geyib,*
*Şənlik edək, büsat quraq, a dostlar.*

*Əhsən deyək bu yaradan əllərə,*
*Tədbir tökən, yol göstərən dillərə!*
*Yadigardır bu yol sizdən ellərə,*
*Gəlin sizi öpək, qucaq, a dostlar!..*

1988-ci il noyabrın 17-dən Kəlbəcər-Ağdərə yolu bağlanmışdı. Bu yolllar çəkilməsəydi, Laçın və Kəlbəcər camaatının taleyi necə olardı? Bu gün bunu hər bir vicdanlı adam aydın təsəvvür edir. Heç şübhəsiz ki, ermənilər davasız-şavasız hələ 27 il bundan öncə Kəlbəcərə yiyə durar və Qarabağı Ermənistana birləşdirərdilər. Lakin bu yollar təkcə kəlbəcərlilərin sevincinin yox, həm də ağır faciəsinin şahididir. Ümumilikdə təqribən 100 min nəfərdən çox əhalisi olan Basarkeçər rayonunun bir hissəsi, eləcə də Laçın və Kəlbəcər rayonlarının əhalisi son nicatını bu yollarda tapdı. Və düşmən caynağından xilas olmuş əhalinin ona verdiyi "Nicat yolu" adını doğrultdu.

Azərbaycanın məşhur el şairi, kəlbəcərli Bəhmən Vətənoğlunun yazdığı poemasında belə misralar vardır:





*Nə yaxşı var imiş Murovun yolu,*
*Çovğunun, boranın, qırovun yolu,*
*O yol çəkiləndə gülənlər vardı,*
*Həm də paxıllıqdan ölənlər vardı.*
*O yolla anamız xilas olubdu,*
*O yolla sonamız xilas olubdu,*
*O yolla bacımız xilas olubdu,*
*Lap başda tacımız xilas olubdu.*
*O yolda Nəsrəddin çəkən zəhmətə,*
*Kim qiymət verməsə, ona ar olsun!*
*Onu unudarmı Kəlbəcər eli?,*
*İnqilab Nadirov bəxtiyar olsun!*
*O yolla kim gəlib can qurtarıbsa,*
*Təhməz Cəfərova minnətdar olsun!..*

Onu da deyim ki, Bəhmən Vətənoğlunun yazdığı həmişə müftə yeməyə adət etmiş o "gülənlər" və "paxıllıqdan ölənlər" Murovdağ yolunun çəkilişində heç bir əməyi olmayanlar, o yolun çəkilməsini bəzən öz adlarına çıxmağa çalışanlardır. Həm də mən bu gün çox təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, Murov yolunun çəkilməsində heç bir zəhməti olmayan Kəlbəcərin məndən sonrakı rəhbərliyi eşitdiyimə görə, Murovdan yol çəkilməsi adı altında yuxarı təşkilatlarla əlaqəyə girib külli miqdarda dövlət vəsaitini mənimsəyiblər. Bu məsələ ciddi məsələdir və təbii ki, araşdırılmalıdır! Aldığım məlumata görə, məndən sonra Murov yolunda heç bir əsaslı iş görülməmişdir. Kəlbəcər camaatı hər şeyi düzgün bilir. Axı bu yolların çəkilişi onların gözü qabağında, özlərinin iştirakı ilə olub.

Bu gün isə həmin yolun daha bir adı var: "Ümid yolu"! İnanıram ki, tezliklə Laçın da, Kəlbəcər də düşməndən təmizlənəcək, o yollar yenidən əmin- amanlığa, firavanlığa xidmət edəcəkdir. Doğru deyirlər ki, ümid sonda ölür. İnanıram ki, bir zamanlar bu yollarla canlarını götürüb çıxanlar bir gün gələcəkdir ki, bu yollarla da doğma yurd yerlərinə qayıdacaqlar.

